**"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin**

**2023-cü il üzrə**

# İLLİK İDARƏETMƏ HESABATI

1. **Emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi;**

   - "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti / "AzerGold" QSC / VÖEN:1403467421/ Qeydiyyata alındığı tarix: 05.07.2016, nömrəsi (VÖEN): 1403467421

2. **Emitentin hüquqi ünvanı və olduğu yer;**

   - **Hüquqi ünvan:** AZ1010, Azərbaycan Respublikası, Bakı şəhəri, Ü.Hacıbəyli, 84 (Hökumət evi)
   - **Olduğu yer:** Bakı şəhəri, Mikayıl Müşfiq küç., 2H və Xətai rayonu, Yeryomenko küçəsi, 73

3. **Emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları;**

   - Hesabat dövrü ərzində "AzerGold" QSC-yə münasibətdə sadalanan hallar mövcud olmamışdır.

4. **Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar;**

   - Hesabat dövrü ərzində "AzerGold" QSC-yə münasibətdə sadalanan hallar mövcud olmamışdır.

5. **Emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti;**

   - Hesabat dövrü ərzində "AzerGold" QSC-yə münasibətdə sadalanan hallar mövcud olmamışdır.

6. **Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı;**

- "AzerGold" QSC şirkətlər qrupunun bir hissəsi deyil.

7. **Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri;**

- müvafiq sahədə dövlət siyasətinin formalaşmasında və həyata keçirilməsində iştirak etmək;
- müvafiq sahədə aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, təkliflərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;
- faydalı qazıntı ehtiyatlarının dövlət balansına qəbul edilmiş əlvan və qara metal filizi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və idarə olunması;
- faydalı qazıntı ehtiyatlarının dövlət balansında qeydiyyata və uçota alınmış tərkibində əlvan və qara metal filizi olan kommersiya əhəmiyyətli filizin hasilatı, daşınması, emalı və satışı;
- yeni texnologiyaları, texniki vasitələri tətbiq etməklə yüksək keyfiyyətli əlvan və qara, o cümlədən nəcib metalların istehsalı, emalı, onlardan müasir tələblərə cavab verən rəqabətədavamlı məhsulların istehsalı və belə məhsulların satışı;
- Cəmiyyətin fəaliyyətində yeni texnologiyaların tətbiqi, texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə edilməsi, beynəlxalq standartların tələblərinə uyğun məhsul istehsalı güclərinin formalaşdırılması;
- Cəmiyyətin Nizamnaməsi ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

8. **Emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri;**

- ➢ Azərbaycan Respublikası Energetika Nazirliyi tərəfindən verilmiş 29.03.2017-ci il tarixli qızılın və digər qiymətli metalların hasilatı və emalı vasitələrinin dövriyyəsinə dair İcazə-müddətsiz
- ➢ Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən verilmiş 3616 qeydiyyat nömrəli 25 dekabr 2020-ci il tarixli "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsi üçün" Xüsusi İcazə
- ➢ Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş EL-476/2018 nömrəli 23 noyabr 2018-ci il tarixli "Təhlükəli yüklərin nəqliyyat vasitəsilə daşınması" Lisenziya
- ➢ Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən verilmiş 217 nömrəli 25 yanvar 2021-ci il tarixli Azərbaycan Respublikasının ərazisində zəhərli maddələrin topdan dövriyyəsinə dair xüsusi icazə.

9. **Emitentin təklif etdiyi məhsullar və xidmətlər;**

- Qızıl külçə satışı
- Gümüş külçə satışı
- Pərakəndə şəkildə qızıl və gümüş sikkələri satışı **(Heydər Əliyev Mərkəzi AG – 5,10,20 qr, Heydər Əliyev 100 il AU 1 oz, Heydər Əliyev Mərkəzi AU 10 qr , Qarabağ xalçası "Çələbi" AG 5,10,20 qr, Qobustan AG – 5,10,20 qr, Qobustan AU – 5 qr, SPECA 25 AG – 100 qr, Xurşidbanu Natəvan AU - 5,10,20 qr, Qarabağ inciləri AU - 5,10,20 qr, Şuşa AU - 5,10, 20 qr, Qızıl külçə - 2,5,10,20,50,100,500,1000 qr, 1 oz, 10 oz, Uzun Həsən 600 AU- 20 qr).**

10. **Emitentin işçilərinin sayı və onun rüblük dinamikası;**

31.03.2023 - 830 nəfər
30.06.2023 - 900 nəfər
30.09.2023 - 965 nəfər
31.12.2023 - 989 nəfər

11. **Emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı;**

- **Müşahidə Şurası:** Sədr: Mətin Eynullayev , üzvləri: Səməd Bəşirli , Faiq Mütəllimov, Vüqar Məcidli , Rəşad İsmayılov.
- **İdarə Heyəti:** İdarə Heyətinin sədri – Zakir Zaur oğlu İbrahimov, İdarə Heyətinin üzvü – sədrin müavini - Oqtay Xanlar oğlu Məmmədov, İdarə Heyətinin üzvü – sədrin müavini - Xəyyam Oqtay oğlu Fərzəliyev.
- **Audit Komitəsi:** Sədr: Anar Novruzov ; üzvlər: Rəşad İsmayılov, Faiq Mütəllimov, Rəşadət Məmmədov

12. **Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayrılıqda sayı;**

- Cəmiyyətin bütün səhmləri dövlətə məxsusdur.

13. **Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı;**

- Cəmiyyətin bütün səhmləri dövlətə məxsus olmaqla, 2 milyon adi səhmdən ibarətdir.

**14. Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı);**

- **"Daşkəsən Dəmir Filiz" Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC)**
- Hüquqi ünvanı: AZ1600, Daşkəsən şəhəri, İ.Qayıbov küçəsi 1
- Qeydiyyat haqqında məlumatlar: Qeydiyyata alındığı tarix: 14.12.2020, dövlət qeydiyyat nömrəsi: (VÖEN 4900437551)
- Nizamnamə kapitalında emitentin payı: "AzerGold" QSC- 1 pay (100%)

- **"AzerBlast" Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC)**
- Hüquqi ünvanı: AZ1623, Daşkəsən rayonu Çovdar kəndi, Çovdar filiz emalı sahəsi.
- Qeydiyyat haqqında məlumatlar: Qeydiyyata alındığı tarix: 09.03.2021, dövlət qeydiyyat nömrəsi: VÖEN 4900451501
- Nizamnamə kapitalında emitentin payı: "AzerGold" QSC- 51 pay (51%)

**15. Emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat:**

Cari il ərzində Ümumi Yığıncağın 1 (bir) iclası olmuşdur. 19.10.2023-cü il tarixdə Cəmiyyətin Ümumi Yığıncağı qismində çıxış edən Azərbaycan İnvestisiya Holdinqin Müşahidə Şurasının qiyabi formatında baş tutmuşdur.,

**16. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat**

- Hesabat dövrünün sonuna dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları olmamışdır.

**17. Emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar:**

- Hesabat dövrü ərzində xüsusi əhəmiyyətli əqdlər bağlanılmamışdır.

**18. Emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:**

1) Emitentin Müşahidə Şurasının 1 nömrəli 27 yanvar 2023-cü il Protokolu əsasında 13 mart 2023-cü il tarixli "AzerGold" QSC və "AzerGold" QSC-nin 100% pay sahibi olduğu "Daşkəsən Dəmir Filiz" MMC arasında 3613,05 ton istehsalatdan alınmış qırmadaş (çınqıl) materialının satın alınmasına dair ümumi dəyəri 15,348.24 (on beş min üç yüz qırx səkkiz manat, iyirmi dörd qəpik) manat olan alqı-satqı müqaviləsi bağlanmışdır.

2) Emitentin Müşahidə Şurasının 12 nömrəli 12 oktyabr 2023-cü il tarixli Protokolu əsasında 14 noyabr 2023-cü il tarixli "AzerGold" QSC və "AzerGold" QSC-nin törəmə müəssisəsi olan "Daşkəsən Dəmir Filiz" MMC arasında 5600 ton istehsalatdan alınmış qırmadaş (çınqıl) materialının satın alınmasına dair ümumi dəyəri 23,788.80 (iyirmi üç min yeddi yüz səksən səkkiz manat, səksən qəpik) manat olan alqı-satqı müqaviləsi bağlanmışdır.

**19. İllik hesabatın təsdiq edildiyi ümumi yığıncağın qərarı**

- Müşahidə Şurasının 17.10.2024 tarixli, 8 nömrəli protokoluna əsasən məqbul hesab edilmişdir.

**20. Hesabatın açıqlanma mənbəyi haqqında məlumat**

Mövcud deyildir.

"AzerGold" QSC-nin

İdarə Heyətinin sədri — Zakir İbrahimov

Baş mühasib — Malik Fətullayev

**“AzerGold” Qapalı Səhmdar Cəmiyyəti**

**31 dekabr 2023-cü il tarixinə**

**Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun Konsolidasiya Edilmiş Maliyyə Hesabatları və Müstəqil Auditorun Hesabatı**

**Mündəricat**

MÜSTƏQİL AUDİTORUN HESABATI

KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARI


Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat ..... 1
Konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat ..... 2
Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat ..... 3
Konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat ..... 4

Konsolidasiya edilmiş maliyyə hesabatları üzrə qeydlər

1 "AzerGold" QSC və onun fəaliyyəti ..... 5
2 Qrupun fəaliyyət mühiti ..... 6
3 Maliyyə hesabatlarının tərtibatının əsasları ..... 7
4 Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr ..... 8
5 Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi ..... 9
6 Yeni uçot qaydaları ..... 11
7 Seqmentlər üzrə məlumat ..... 12
8 Əlaqəli tərəflərlə əməliyyatlar və qalıqlar ..... 13
9 Əsas vəsaitlər ..... 14
10 Kəşfiyyat və qiymətləndirmə aktivləri ..... 19
11 Qeyri-maddi aktivlər ..... 22
12 İstifadə hüquqlu aktivlər və icarə öhdəlikləri ..... 24
13 Mal-material ehtiyatları ..... 27
14 Ticarət və digər debitor borcları ..... 28
15 Verilmiş avanslar ..... 30
16 Ticarət və digər kreditor borcları ..... 30
17 Ətraf mühitin bərpası öhdəliyi ..... 30
18 Sair qısamüddətli aktiv və öhdəliklər ..... 31
19 Pul vəsaitləri və onların ekvivalentləri ..... 32
20 Müddətli depozitlər ..... 33
21 Nizamnamə kapitalı ..... 33
22 Borc vəsaitləri ..... 33
23 Müştərilərlə müqavilələr üzrə gəlirlər ..... 35
24 Satışların maya dəyəri ..... 35
25 Ümumi və inzibati xərclər ..... 36
26 Sair gəlirlər ..... 37
27 Maliyyə xərcləri ..... 37
28 Mənfəət vergisi ..... 37
29 Təəhhüdlər və şərti öhdəliklər ..... 41
30 Nəzarət olunmayan iştirak payı ..... 41
31 Maliyyə risklərinin idarə edilməsi ..... 42
32 Ədalətli dəyər haqqında açıqlamalar ..... 44
33 Maliyyə alətlərinin qiymətləndirmə kateqoriyaları üzrə təqdim edilməsi ..... 45
34 Səhm üzrə qazanc ..... 45
35 Hesabat tarixindən sonra baş vermiş hadisələr ..... 45

# Müstəqil Auditorun Hesabatı

"AzerGold" QSC-nin Səhmdarına və idarəetməyə məsul şəxslərinə:

## Rəy

Bizim fikrimizcə, hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları "AzerGold" QSC-nin ("Cəmiyyət") və onun törəmə müəssisələrinin (birlikdə "Qrup") 31 dekabr 2023-cü il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə Qrupun konsolidasiya edilmiş maliyyə nəticələrini və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından BMHS Mühasibat Uçotu Standartlarına uyğun olaraq düzgün əks etdirir.

**Auditin predmeti**

Qrupun konsolidasiya edilmiş maliyyə hesabatları aşağıdakılardan ibarətdir:

- 31 dekabr 2023-cü il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat;
- həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat;
- həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat;
- həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat; və
- mühüm uçot siyasəti prinsipləri və digər izahedici məlumatlar daxil olmaqla, konsolidasiya edilmiş maliyyə hesabatları üzrə qeydlər.

## Rəy üçün əsas

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyət rəyimizin "Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində əks etdirilir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Müstəqillik**

Biz Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) (MBESŞ Məcəlləsi) uyğun olaraq, Qrupdan asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk. Biz MBESŞ Məcəlləsinə uyğun olaraq, etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik.

## Audit yanaşmamız

**İcmal**




- Qrup üçün ümumi əhəmiyyətlilik dərəcəsi: 1,240,000 ABŞ dolları təşkil edir ki, bu da vergidən əvvəlki mənfəətin 5%-ni əks etdirir.
- Biz Cəmiyyətin audit yoxlamasını apardıq, törəmə müəssisələrin isə maliyyə hesabatlarının əhəmiyyətli sətir maddələri üzrə audit prosedurları və analitik prosedurlar həyata keçirdik.
- Qrup üzrə audit komandası Bakı və Daşkəsəndə yerləşən Qrup müəssisələrinə səfər etmişdir.
- Audit yoxlamamız Qrupun gəlirlərinin 100%-ni və vergidən əvvəlki mənfəətin mütləq dəyərinin 99%-ni əhatə etmişdir.

**Əsas audit məsələsi**

- Kəşfiyyat və qiymətləndirmə aktivləri, qeyri-maddi aktivlər və əsas vəsaitlərin dəyərsizləşməsi.

PraysvoterhausKupers Audit Azərbaycan MMC
Landmark Ofis Plaza III, 12ci mərtəbə, 90A Nizami küçəsi
AZ 1010, Bakı, Azərbaycan
T: +994 (12) 497 25 15, F: +994 (12) 497 74 11, www.pwc.com/az

Audit metodologiyamızın bir hissesi kimi, biz əhəmiyyətlilik dərəcəsini müəyyən etdik və konsolidasiya edilmiş maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi riskini qiymətləndirdik. Xüsusilə, biz rəhbərliyin (məsələn, ehtimalların irəli sürülməsi və qeyri-müəyyən xarakterli gələcək hadisələrin nəzərdən keçirilməsini özündə ehtiva edən əhəmiyyətli uçot təxminləri) subyektiv mülahizələr tətbiq etdiyi sahələri təhlil etdik. Bütün audit yoxlamalarımızda olduğu kimi, biz, həmçinin rəhbərlik tərəfindən daxili nəzarət sistemində sui-istifadə riskini nəzərdən keçirdik, eləcə də, digər məsələlərlə yanaşı, fırıldaqçılıq hallarına görə əhəmiyyətli təhriflərə səbəb olan qeyri-obyektivlik əlamətlərinin olub-olmadığını təhlil etdik.

**Əhəmiyyətlilik**

Audit prosedurlarının həcmi əhəmiyyətlilik dərəcəsindən asılıdır. Audit, konsolidasiya edilmiş maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin olub-olmadığına dair kifayət qədər əminlik əldə etmək üçün nəzərdə tutulur. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər və fərdi və ya məcmu olaraq istifadəçilərin konsolidasiya edilmiş maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmək ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Peşəkar mühakiməmizə əsasən biz kəmiyyət baxımından müəyyən əhəmiyyətlilik dərəcəsini, həmçinin aşağıdakı cədvəldə göstərildiyi kimi, bütövlükdə konsolidasiya edilmiş maliyyə hesabatları üzrə Qrup üçün ümumi əhəmiyyətliliyi müəyyən etmişik. Bu göstəricilər və keyfiyyət amilləri sayəsində biz auditin əhatə dairəsini, habelə audit prosedurlarının xüsusiyyətini, müddətini və həcmini müəyyən etmiş və mümkün təhriflərin fərdi və ya məcmu olaraq bütövlükdə konsolidasiya edilmiş maliyyə hesabatlarına təsirini qiymətləndirmişik.

| | |
|---|---|
| **Qrupun maliyyə hesabatları üçün ümumi əhəmiyyətlilik dərəcəsi** | 1,240,000 ABŞ dolları |
| **Əhəmiyyətlilik dərəcəsinin müəyyən edilməsi** | Vergidən əvvəlki mənfəətin 5%-i |
| **Əhəmiyyətlilik dərəcəsinin müəyyən edilməsi üçün tətbiq edilən meyarın əsaslandırılması** | Biz əsas meyar kimi "vergidən əvvəlki mənfəəti" seçmək qərarına gəlmişik. Bizim fikrimizcə bu, Qrupun fəaliyyət nəticələrinin qiymətləndirilməsi üçün istifadəçilər tərəfindən daha çox nəzərdən keçirilən və ümumi qəbul edilmiş meyardır. Biz bu sektorda fəaliyyət göstərən kommersiya təşkilatlarına tətbiq edilən kəmiyyət əhəmiyyətliliyi hədlərinə uyğun olaraq 5%-lik əmsal seçmişik. |

**Əsas audit məsələləri**

Əsas audit məsələləri peşəkar mülahizəmizə əsasən cari dövrün konsolidasiya edilmiş maliyyə hesabatlarının auditində ən çox əhəmiyyət kəsb etmiş məsələlərdir. Bu məsələlərə konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi kontekstində və həmin hesabatlara dair rəyimizin formalaşdırılması zamanı ümumi baxılmış və biz bu məsələlərə dair ayrı rəy bildirmirik.

| Əsas audit məsələsi | Əsas audit məsələsi ilə bağlı həyata keçirilmiş audit prosedurları |
|---|---|
| **Kəşfiyyat və qiymətləndirmə aktivləri, qeyri-maddi aktivlər və əsas vəsaitlərin dəyərsizləşməsi**<br><br>Bax: Qeyd 4 "Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr", Qeyd 9 "Əsas vəsaitlər", Qeyd 10 "Kəşfiyyat və qiymətləndirmə aktivləri" və Qeyd 11 "Qeyri-maddi aktivlər".<br><br>Qeyd 10-da göstərildiyi kimi, Cəmiyyət altı pul vəsaiti yaradan vahid ("CGU") müəyyən edir.<br><br>Rəhbərlik dəyərsizləşmə təhlili tələb edən CGU üzrə dəyərsizləşmə göstəricilərinin olub-olmadığını qiymətləndirmək üçün əhəmiyyətli mülahizə yürüdür. Bu zaman rəhbərlik əmtəə qiymətləri, valyuta məzənnələri, proqnozlaşdırılan kapital və istehsal xərcləri, ehtiyatlar və resursların həcmi, eləcə də diskontlaşdırma dərəcələri kimi daxili və kənar amilləri nəzərə alır. Dəyərsizləşmə göstəriciləri mövcud olduqda, rəhbərlik CGU-nun bərpa edilə bilən dəyərini təxmin edir və onu CGU-nun balans dəyəri ilə müqayisə edir.<br><br>Hər bir CGU-nun bərpa edilə bilən dəyəri onun istifadə dəyəri və satış xərcləri çıxılmaqla ədalətli dəyərindən daha yüksək olan dəyəri kimi müəyyən edilir. Bu hesablamalar zamanı hər bir mədən sahəsi üçün mədənin istismar müddətini əhatə edən dağ-mədən sahəsində beynəlxalq məsləhətçilər tərəfindən hazırlanmış geoloji tədqiqatlara əsaslanan pul axınları ilə bağlı proqnozlardan və rəhbərlik tərəfindən təsdiq edilmiş illik maliyyə büdcələrindən istifadə edilir.<br><br>31 dekabr 2023-cü il tarixinə Qrup tərəfindən həyata keçirilmiş dəyərsizləşmə təhlili nəticəsində Peydərə (CGU 4) və Tutxun (CGU 6) sahələri üzrə 175 min ABŞ dolları məbləğində əlavə dəyərsizləşmə zərəri müəyyən edilmiş və Çovdar İnteqreolunmuş (CGU 1) üçün əvvəlki dövr üzrə tanınmış 10,578 min ABŞ dolları məbləğində dəyərsizləşmə zərəri qaytarılmışdır.<br><br>Kəşfiyyat və qiymətləndirmə aktivləri, əsas vəsaitlər və qeyri-maddi aktivlərin maliyyə hesabatları üçün əhəmiyyətini, dəyərsizləşmənin müəyyən edilməsində daha yüksək mülahizə tələb edən və ya mürəkkəb olan sahələri, eləcə də gələcək kəşfiyyat nəticələrinin qeyri-müəyyənliyini, fərziyyələrin həssaslığını, habelə diskontlaşdırma dərəcəsini və artım templərini nəzərə alaraq, biz kəşfiyyat və qiymətləndirmə aktivləri, qeyri-maddi aktivlər və əsas vəsaitlərin dəyərsizləşməsini əsas audit məsələsi hesab edirik. | • 31 dekabr 2023-cü il tarixinə dəyərsizləşmə göstəricilərinin mövcudluğu ilə bağlı rəhbərliyin hesablamasını/təhlilini qiymətləndirdik. Buraya əmtəə qiymətləri və diskontlaşdırma dərəcəsinin xarici bazar və sənaye məlumatları ilə müqayisəsi, kapital və istehsal xərcləri üzrə proqnozların CGU-ların cari və keçmiş fəaliyyəti ilə əsaslandırılmasının və bu fərziyyələrin uyğun olduqda auditin digər sahələrində əldə edilmiş sübutlarla uzlaşmasının qiymətləndirilməsi daxildir.<br><br>• Biz, həmçinin ehtiyatlar və resurslar ilə bağlı rəhbərliyin ekspertləri tərəfindən hazırlanmış ən son proqnozları nəzərə alaraq, ehtiyatların və resursların həcminin rəhbərlik tərəfindən təhlilini qiymətləndirdik. Ekspertlərin işindən istifadə üçün əsas kimi rəhbərliyin ekspertlərinin səriştəsi, imkanları və obyektivliyi qiymətləndirilmiş, onların işi barədə təsəvvür əldə edilmiş və ekspertlərin işinin audit sübutu kimi uyğunluğu ehtimallar, metodlar və nəticələrin münasibliyi və məntiqliliyi nəzərə alınmaqla qiymətləndirilmişdir.<br><br>• Biz rəhbərlik tərəfindən kəşfiyyat və qiymətləndirmə aktivləri, qeyri-maddi aktivlər və əsas vəsaitlərin bərpa edilə bilən dəyərinin müəyyən edilməsi prosesi ilə tanış olduq.<br><br>• Kəşfiyyat və qiymətləndirmə aktivləri, əsas vəsaitlər və qeyri-maddi aktivlərin bərpa edilə bilən dəyərinin hesablanmasında rəhbərlik tərəfindən hər bir CGU üçün istifadə olunan dəyərsizləşmə modellərini əldə etdik. Dəyərsizləşmə modellərinin riyazi cəhətdən düzgünlüyündən əmin olmaq üçün onları nəzərdən keçirdik.<br><br>• Qiymətləndirmə üzrə ekspertlərimiz dəyərsizləşmə modellərinin nəzərdən keçirilməsində, diskont dərəcəsinin hesablanmasının uyğunluğu və düzgünlüyünün qiymətləndirilməsində, modellərdəki ilkin məlumatlar üzrə həssaslıq təhlillərinin aparılmasında və uzunmüddətli metal qiymətlərinin spot qiymətlərlə müqayisə olunmasında iştirak etmişdir. Eyni zamanda, onlar digər makroiqtisadi fərziyyələrin xarici mənbələrlə müqayisəsini aparmışdır.<br><br>• Biz dəyərsizləşmə modelləri üzrə əsas məlumatları dağ-mədən sahəsində beynəlxalq məsləhətçilər tərəfindən aparılmış geoloji tədqiqatlarla və digər müvafiq sənədlərlə müqayisə etdik.<br><br>• Bundan əlavə, biz qiymətləndirmə zamanı istifadə edilən əsas fərziyyələri nəzərdən keçirdik və lazım gəldikdə, bu məlumatları kənar mənbələrlə və ya daxili sənədlərlə üzləşdirdik.<br><br>• Biz, həmçinin il üzrə faktiki hasilat nəticələrini proqnozlaşdırılan rəqəmlərlə müqayisə etdik.<br><br>• Bundan başqa, aparılmış dəyərsizləşmə təhlili ilə bağlı təqdimat və açıqlamaların tamlığını və uyğunluğunu qiymətləndirdik. |

**Qrup auditinin əhatə dairəsinin müəyyən edilməsi**

Biz audit prosedurlarının əhatə dairəsini bütövlükdə konsolidasiya edilmiş maliyyə hesabatlarına dair rəy bildirmək məqsədilə kifayət qədər işləri yerinə yetirmək üçün Qrupun strukturunu, uçot proseslərini və nəzarət mexanizmlərini, habelə Qrupun fəaliyyət göstərdiyi sektorun xüsusiyyətlərini nəzərə alaraq müəyyən etmişik.

Biz Cəmiyyəti Qrupun əhəmiyyətli komponenti, törəmə müəssisələrini isə əhəmiyyətli olmayan komponenti kimi müəyyən etdik. Biz əhəmiyyətli komponentin maliyyə məlumatlarının auditini apardıq və maliyyə hesabatlarının ayrı-ayrı əhəmiyyətli maddələri üzrə audit prosedurları, əhəmiyyətli olmayan komponentlər üzrə isə analitik prosedurlar həyata keçirdik.

## Konsolidasiya edilmiş maliyyə hesabatlarına görə rəhbərliyin və korporativ idarəetməyə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik konsolidasiya edilmiş maliyyə hesabatlarının BMHS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik Qrupu ləğv etmək və ya fəaliyyətini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fəaliyyətin fasiləsizliyinə dair məlumatların açıqlanmasına və fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Korporativ idarəetməyə cavabdeh olan səlahiyyətli şəxslər Qrupun maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

## Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Bizim məqsədimiz bütövlükdə konsolidasiya edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kifayət qədər əminlik əldə etmək və rəyimizin daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək səviyyəsidir, lakin Beynəlxalq Audit Standartlarına uyğun olaraq auditin aparılması zamanı mövcud olan bütün əhəmiyyətli təhriflərin həmişə aşkar olunacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər və fərdi və ya məcmu olaraq istifadəçilərin konsolidasiya edilmiş maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmək ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Beynəlxalq Audit Standartlarına uyğun aparılan auditin bir hissəsi olaraq, biz audit zamanı peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Konsolidasiya edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması riskini müəyyən edir və qiymətləndirir, həmin risklərə qarşı audit prosedurlarını hazırlayır və həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən daha yüksəkdir, çünki fırıldaqçılığa gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, yanlış təqdimat və ya daxili nəzarət sistemində sui-istifadə halları daxil ola bilər.
- Qrupun daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarını işləyib hazırlamaq üçün daxili nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Rəhbərlik tərəfindən istifadə edilən uçot siyasətinin uyğunluğunu, habelə uçot təxminləri və müvafiq açıqlamaların münasibliyini qiymətləndiririk.

- Fəaliyyətin fasiləsizliyi prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Qrupun fasiləsiz fəaliyyət göstərmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və şəraitlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair qənaətə gəlirik. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gəldikdə, auditor rəyimizdə konsolidasiya edilmiş maliyyə hesabatlarındakı müvafiq məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması yetərli olmadıqda, rəyimizdə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və şəraitlər Qrupun fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, konsolidasiya edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin konsolidasiya edilmiş maliyyə hesabatlarında düzgün təqdim edilib-edilmədiyini qiymətləndiririk.
- Konsolidasiya edilmiş maliyyə hesabatlarına dair rəy bildirmək üçün Qrupa daxil olan müəssisələrin maliyyə məlumatları və ya fəaliyyəti ilə bağlı yetərli müvafiq audit sübutu əldə edirik. Biz Qrup auditinin idarə edilməsi, nəzarəti və həyata keçirilməsi üçün məsuliyyət daşıyırıq. Biz auditor rəyimizə görə tam məsuliyyət daşıyırıq.

Biz korporativ idarəetməyə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar barədə məlumat veririk.

Biz, həmçinin korporativ idarəetməyə cavabdeh olan səlahiyyətli şəxslərə müstəqillik ilə bağlı müvafiq etik normalara riayət etdiyimiz barədə bəyanat verir və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün münasibətlər və digər məsələlər, habelə zəruri hallarda təhdidlərin aradan qaldırılması üçün görülən tədbirlər, o cümlədən ehtiyat tədbirləri barədə məlumat veririk.

Korporativ idarəetməyə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlər arasında biz cari dövrün konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi üçün ən əhəmiyyətli və bu səbəbdən də əsas audit məsələlərini müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi və ya çox nadir hallarda, məsələ haqqında rəyimizdə açıqlamanın verilməsinin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmış şəkildə güman edildiyi hallar istisna olmaqla, bu məsələni rəyimizdə təsvir edirik.

Audit nəticəsində dərc olunan hazırkı müstəqil auditor hesabatına görə məsul partnyor Fəxri Mustafayevdir.

PricewaterhouseCoopers Audit Azerbaijan LLC

Bakı, Azərbaycan

7 noyabr 2024-cü il

***"AzerGold" QSC***
***Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat***

| *Min ABŞ dolları ilə* | **Qeyd** | **31 dekabr 2023** | **31 dekabr 2022** |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əsas vəsaitlər | 9 | 225,032 | 143,857 |
| İstifadə hüquqlu aktivlər | 12 | 5,623 | 810 |
| Kəşfiyyat və qiymətləndirmə aktivləri | 10 | 19,187 | 34,767 |
| Qeyri-maddi aktivlər | 11 | 42,018 | 40,478 |
| Ticarət və digər debitor borcları | 14 | 3,216 | 3,093 |
| Verilmiş avanslar | 15 | 408 | 556 |
| Təxirə salınmış vergi aktivləri | 28 | 55 | 80 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **295,539** | **223,641** |
| **Qısamüddətli aktivlər** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 19 | 36,176 | 6,801 |
| Müddətli depozitlər | 20 | 33,449 | 62,062 |
| Verilmiş avanslar | 15 | 11,257 | 5,856 |
| Ticarət və digər debitor borcları | 14 | 488 | 3,554 |
| Mal-material ehtiyatları | 13 | 68,163 | 36,564 |
| Sair qısamüddətli aktivlər | 18 | 23,064 | 19,387 |
| **Cəmi qısamüddətli aktivlər** | | **172,597** | **134,224** |
| **CƏMİ AKTİVLƏR** | | **468,136** | **357,865** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 21 | 36,471 | 36,471 |
| Əlavə kapital qoyuluşu | 21 | 133,003 | 106,532 |
| Bölüşdürülməmiş mənfəət | | 147,111 | 119,621 |
| **Qrupun səhmdarlarına aid olan kapital** | | **316,585** | **262,624** |
| **Nəzarət olunmayan iştirak payı** | 30 | **664** | **926** |
| **CƏMİ KAPİTAL** | | **317,249** | **263,550** |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Borc vəsaitləri | 22 | 57,135 | 26,398 |
| İcarə öhdəlikləri | 12 | 4,724 | 405 |
| Təxirə salınmış vergi öhdəlikləri | 28 | 3,753 | 416 |
| Ətraf mühitin bərpası öhdəliyi | 17 | 14,711 | 11,661 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **80,323** | **38,880** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Ticarət və digər kreditor borcları | 16 | 18,645 | 13,333 |
| Borc vəsaitləri | 22 | 35,925 | 30,672 |
| Cari mənfəət vergisi öhdəliyi | | 12,990 | 9,145 |
| İcarə öhdəlikləri | 12 | 1,037 | 484 |
| Sair qısamüddətli öhdəliklər | 18 | 1,967 | 1,801 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **70,564** | **55,435** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **150,887** | **94,315** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **468,136** | **357,865** |

04 noyabr 2024-cü il tarixində təsdiqlənmiş və imzalanmışdır.

Zakir İbrahimov
İdarə Heyətinin sədri

Turan Hacıyev
Maliyyə şöbəsinin müdiri

| *Min ABŞ dolları ilə* | Qeyd | 2023 | 2022 |
|---|---|---|---|
| Müştərilərlə müqavilələr üzrə gəlirlər | 23 | 135,355 | 123,646 |
| Satışların maya dəyəri | 24 | (93,153) | (65,336) |
| **Ümumi mənfəət** | | **42,202** | **58,310** |
| Ümumi və inzibati xərclər | 25 | (24,884) | (21,334) |
| Kəşfiyyat və qiymətləndirmə aktivlərinin dəyərsizləşməsi | 10 | (175) | (3,582) |
| Qeyri-maddi aktivlər və əsas vəsaitlər üzrə dəyərsizləşmə zərərinin qaytarılması | 9,11 | 11,362 | - |
| Maliyyə aktivləri üzrə xalis dəyərsizləşmə zərərinin qaytarılması/(yaradılması) | 14,20 | 625 | (805) |
| Sair gəlirlər | 26 | 6,126 | 7,074 |
| **Əməliyyat mənfəəti** | | **35,256** | **39,663** |
| Maliyyə xərcləri | 27 | (3,331) | (1,072) |
| Maliyyə gəlirləri | 20 | 2,513 | 984 |
| **Vergidən əvvəlki mənfəət** | | **34,438** | **39,575** |
| Mənfəət vergisi xərci | 28 | (7,210) | (9,363) |
| **İL ÜZRƏ MƏNFƏƏT** | | **27,228** | **30,212** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR** | | **27,228** | **30,212** |
| **Mənfəətin/(zərərin):** | | | |
| - Qrupun səhmdarlarına aid olan hissəsi | | 27,490 | 30,361 |
| - Nəzarət olunmayan iştirak payına aid olan hissəsi | 30 | (262) | (149) |
| **İl üzrə mənfəət** | | **27,228** | **30,212** |
| **Cəmi məcmu gəlirin:** | | | |
| - Qrupun səhmdarlarına aid olan hissəsi | | 27,490 | 30,361 |
| - Nəzarət olunmayan iştirak payına aid olan hissəsi | 30 | (262) | (149) |
| **İl üzrə cəmi məcmu gəlir** | | **27,228** | **30,212** |

*"AzerGold" QSC*
***Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat***

| *Min ABŞ dolları ilə* | Qeyd | Qrupun səhmdarlarına aid olan hissə | | | | Nəzarət olunmayan iştirak payı | Cəmi kapital |
|---|---|---|---|---|---|---|---|
| | | Nizamnamə kapitalı | Əlavə kapital qoyuluşu | Bölüşdürülməmiş mənfəət | Cəmi | | |
| **1 yanvar 2022-ci il tarixinə qalıq** | | **36,471** | **33,003** | **89,260** | **158,734** | **1,075** | **159,809** |
| Əlavə kapital qoyuluşunda artım | 21 | - | 73,529 | - | 73,529 | - | 73,529 |
| İl üzrə mənfəət/(zərər) | | - | - | 30,361 | 30,361 | (149) | 30,212 |
| 2022-ci il üzrə cəmi məcmu gəlir/(zərər) | | - | - | 30,361 | 30,361 | (149) | 30,212 |
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | | **36,471** | **106,532** | **119,621** | **262,624** | **926** | **263,550** |
| Əlavə kapital qoyuluşunda artım | 21 | - | 26,471 | - | 26,471 | - | 26,471 |
| İl üzrə mənfəət/(zərər) | | - | - | 27,490 | 27,490 | (262) | 27,228 |
| 2023-cü il üzrə cəmi məcmu gəlir/(zərər) | | - | - | 27,490 | 27,490 | (262) | 27,228 |
| **31 dekabr 2023-cü il tarixinə qalıq** | | **36,471** | **133,003** | **147,111** | **316,585** | **664** | **317,249** |

| *Min ABŞ dolları ilə* | Qeyd | 2023 | 2022 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Vergidən əvvəlki mənfəət | | 34,438 | 39,575 |
| Düzəlişlər: | | | |
| Faiz xərcləri | 27 | 4,299 | 707 |
| Faiz gəlirləri | | (2,513) | (984) |
| Əsas vəsaitlərin amortizasiyası və tükənməsi | 9 | 31,905 | 11,710 |
| İstifadə hüquqlu aktivlərin amortizasiyası | 12 | 883 | 744 |
| Qeyri-maddi aktivlərin amortizasiyası və tükənməsi | 11 | 3,037 | 3,924 |
| Kəşfiyyat və qiymətləndirmə aktivlərinin dəyərsizləşməsi | 10 | 175 | 3,582 |
| Əsas vəsaitlər üzrə dəyərsizləşmə zərərinin qaytarılması | 9 | (7,137) | - |
| Qeyri-maddi aktivlər üzrə dəyərsizləşmə zərərinin qaytarılması | 11 | (4,225) | - |
| Maliyyə aktivləri üzrə xalis dəyərsizləşmə zərəri/(gəliri) | 14,20 | (625) | 805 |
| Mədən yataqlarının satılması üzrə gəlir | | - | (1,771) |
| Ətraf mühitin bərpası öhdəliyi üzrə diskontlaşmanın amortizasiyası | | 559 | 365 |
| Məzənnə fərqi üzrə xalis zərər | | 2 | 54 |
| Sair qeyri-pul əməliyyat gəlirləri | | 527 | (882) |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | **61,325** | **57,829** |
| Ticarət və digər debitor borclarında azalma/(artım) | | 3,074 | (6,046) |
| Sair qısamüddətli aktivlərdə artım | 18 | (3,677) | (14,469) |
| Mal-material ehtiyatlarında artım | 13 | (31,598) | (14,486) |
| Verilmiş qısamüddətli avanslarda artım | 15 | (4,846) | (1,966) |
| Ticarət və digər kreditor borclarında (azalma)/artım | 16 | (4,939) | 5,523 |
| Təxirə salınmış gəlirlərdə azalma | | - | (600) |
| Sair qısamüddətli öhdəliklərdə artım | 18 | 163 | 672 |
| **Dövriyyə kapitalında dəyişikliklər** | | **(41,823)** | **(31,372)** |
| Ödənilmiş mənfəət vergisi | | - | (491) |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | | **19,502** | **25,966** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitlər və mədənlərin işlənilməsi üzrə məsrəflər | 9 | (74,697) | (101,651) |
| Verilmiş uzunmüddətli avanslar | | (407) | 5,565 |
| Kəşfiyyat və qiymətləndirmə aktivləri üzrə investisiyalar | 10 | (3,616) | (27,879) |
| Mədən yataqlarının satılması üzrə gəlir | | - | 1,180 |
| Sair qeyri-maddi aktivlərə investisiya qoyuluşu | 11 | (352) | (358) |
| Müddətli depozitlərə investisiya qoyuluşu | | (70,587) | (61,765) |
| Müddətli depozitlərin qaytarılması | | 100,000 | - |
| Müddətli depozitlər üzrə alınmış faizlər | | 2,193 | - |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | | **(47,466)** | **(184,908)** |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Əlavə kapital qoyuluşu | 21 | 26,471 | 73,529 |
| Kreditlər və borc vəsaitləri üzrə daxilolmalar | 22 | 135,018 | 74,912 |
| Kreditlər və borc vəsaitləri üzrə əsas məbləğin ödənilməsi | 22 | (98,979) | (38,014) |
| İcarə öhdəliklərinin ödənilməsi | 12 | (1,063) | (828) |
| Ödənilmiş faizlər | | (4,108) | (800) |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | | **57,339** | **108,799** |
| Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | | - | (30) |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | 19 | **6,801** | **56,974** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 19 | **36,176** | **6,801** |

## 1 "AzerGold" QSC və onun fəaliyyəti

Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları 31 dekabr 2023-cü il tarixində başa çatan il üzrə Beynəlxalq Maliyyə Hesabatı Standartlarına ("BMHS Mühasibat Uçotu Standartları") uyğun olaraq "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti ("Cəmiyyət") və onun törəmə müəssisələri (bundan sonra Cəmiyyət və törəmə müəssisələri birlikdə "Qrup" adlandırılacaq) üçün hazırlanmışdır.

Cəmiyyət Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 11 fevral tarixli 1047 nömrəli Sərəncamına əsasən təsis edilib və 5 iyul 2016-cı il tarixində Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq dövlət qeydiyyatına alınıb. Cəmiyyətin bütün səhmləri Azərbaycan Dövlətinə ("Dövlət") məxsusdur.

Cəmiyyət öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir və bu Standartlar Azərbaycan İnvestisiya Holdinqi (AİH) tərəfindən təsdiq olunur. Standartlar 2023-cü ilin sentyabrında təsdiqlənmişdir və həmin vaxtdan Cəmiyyət tərəfindən tətbiq edilir. Həmin Standartların 18-ci Maddəsinə əsasən Cəmiyyət Standartların Qrup tərəfindən davamlı tətbiq olunmasını təmin etmək üçün lazımi tədbirlər görür.

***Əsas fəaliyyət istiqamətləri.*** Cəmiyyətin əsas məqsədi əlvan və qara metal filizi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və idarə olunması, bu sahədə yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, habelə bu sahənin inkişafı ilə bağlı digər işlərin yerinə yetirilməsindən ibarətdir.

Qrup bu məqsədlərin həyata keçirilməsi məqsədilə Daşkəsən rayonu inzibati ərazi dairəsində yerləşən Çovdar və Daşkəsən Dəmir Filiz, Daşkəsən və Göygöl rayonları inzibati ərazi dairəsində yerləşən Ağyoxuş 1, Ağyoxuş-2, Ağyoxuş-3, Göygöl rayonu inzibati ərazi dairəsində yerləşən Mərəh və Tülallar, Balakən rayonu inzibati ərazi dairəsində yerləşən Filizçay, Mazımçay və Naxçıvan MR-nın Culfa rayonu inzibati ərazi dairəsində yerləşən Göydağ sahələrində fəaliyyət göstərir.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 25 may tarixli 2065 nömrəli Sərəncamına uyğun olaraq, Cəmiyyətə Azərbaycan Respublikasının qanunvericiliyi ilə 30 dekabr 2006-cı il tarixində təsdiq edilmiş və 5 iyun 2007-ci il tarixində 30 illik müddət üçün qüvvəyə minmiş "Azərbaycan Respublikasında Qaradağ, Çovdar, Göydağ, Dağkəsəmən filiz sahələrinin, Köhnəmədən sahəsinin və Kürəkçay hövzəsi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Saziş ("HPBS") üzrə "Londeks Resorzis S.A.", "Uill ənd Meyris S.A.", "Fargeyt Mayninq Korporeyşn" və "Qlobeks İnternəşnl LLP" şirkətlərinə (bundan sonra birlikdə "keçmiş podratçılar" adlandırılacaq) məxsus olan 100%-lik iştirak paylarının alınması "AzerGold" QSC, Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) və İqtisadiyyat Nazirliyinə tapşırılmışdır.

4 avqust 2016-cı il tarixində Cəmiyyət keçmiş podratçılar ilə alqı-satqı müqaviləsi (bundan sonra "ASM") imzalamış və HPBS-də 100%-lik iştirak payı əldə etmişdir.

8 avqust 2016-cı il tarixində Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 25 may tarixli 2065 nömrəli Sərəncamına uyğun olaraq, Cəmiyyət HPBS-nin xitamı haqqında ETSN ilə müqavilə imzalamış və HPBS-yə xitam vermişdir.

2020-ci ildə Bakı Fond Birjasının (BFB) Listinq Komitəsinin qərarı ilə "AzerGold" QSC-nin ümumi dəyəri 20,000 min (iyirmi milyon) ABŞ dolları olan istiqrazları iki tranşda emissiya edilərək standart bazar seqmentində listinqə daxil edilmişdir. İstiqrazların sayı 200,000 ədəd, nominal dəyəri 100 ABŞ dolları, illik faiz dərəcəsi 4%, tədavül müddəti isə 3 ildir.

Şirkət iki törəmə müəssisə - "Daşkəsən Dəmir Filiz" MMC və "AzerBlast MMC"-ni təsis etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2202 nömrəli 6 avqust 2020-ci il tarixli Sərəncamı ilə regionun ən nəhəng dəmir filizi yataqları kompleksi olan "Daşkəsən" dəmir filizi sahəsinin istismara verilməsi ilə əlaqədar ilkin qiymətləndirmə sənədinin hazırlanması "AzerGold" QSC-yə həvalə edilib. Prezidentin 1 sentyabr 2020-ci il tarixli Sərəncamı ilə Cəmiyyətin fəaliyyət sahələrinə ölkə ərazisində qara metal filizi yataqlarının tədqiqi, kəşfiyyatı, işlənilməsi və idarə olunması, habelə bu sahənin inkişafına dair digər vəzifələr əlavə edilib. Sözügedən sənədlərdən irəli gələn tapşırıqların maliyyələşdirilməsi, dəmir filizi yataqları üzrə fəaliyyətin təşkili məqsədilə "AzerGold" QSC tərəfindən törəmə müəssisə qismində "Daşkəsən Dəmir Filiz" MMC təsis edilib. Şirkətin yaradılmasında məqsəd təsisçi Cəmiyyətin ən iri layihələrindən biri olan "Daşkəsən" dəmir filizi sahəsinin yenidən istismara verilməsi ilə ölkə iqtisadiyyatı, o cümlədən regionun inkişafına əlavə sosial-iqtisadi töhfələr verməkdir. "Daşkəsən Dəmir Filiz" MMC-nin payları tamamilə Cəmiyyətə məxsusdur.

"AzerBlast MMC"-nin yaradılmasında məqsəd xüsusilə dağ-mədən və tikinti sənayesində istifadə edilən mülki partlayıcı maddələrə olan daxili tələbatın ödənilməsi və idxaldan asılılığın aradan qaldırılmasıdır. "AzerBlast MMC"-nin ümumi paylarının 51 faizi "AzerGold" QSC-yə, 49 faizi isə "DM Servis" MMC-yə məxsusdur. "DM Servis" MMC mülki partlayıcı maddələr və innovativ partlayış sistemlərinin istehsalı sahəsində dünya liderlərindən olan "Orica-Nitro" şirkətinin rəsmi tərəfdaşıdır.

## 1 "AzerGold" QSC və onun fəaliyyəti (davamı)

***Cəmiyyətin hüquqi və faktiki ünvanı.*** Qrup şirkətlərinin hüquqi ünvanları aşağıdakı kimidir: AZ1010, Bakı şəhəri, Azərbaycan Respublikası, Nəsimi rayonu, Üzeyir Hacıbəyov küçəsi ev 84 və AZ1025, Bakı şəhəri, Azərbaycan Respublikası, Xətai rayonu, Yeryomenko küçəsi ev 73. Qrup şirkətlərinin əsas faktiki ünvanı aşağıdakı kimidir: AZ1004, Bakı şəhəri, Azərbaycan Respublikası, Mikayıl Müşfiq küçəsi 2H.

***Təqdimat valyutası.*** Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarındakı məbləğlər başqa valyuta göstərilmədiyi halda, ABŞ dolları ilə ("ABŞ dolları") təqdim edilir.

***HPBS-də iştirak payının alınması.*** 4 avqust 2016-cı il tarixində Cəmiyyət ASM əsasında HPBS-də keçmiş podratçıların 100%-lik iştirak payını almışdır. Bu müqavilə üzrə cəmi ödəniş məbləği 158,000 min ABŞ dolları məbləğində razılaşdırılmışdır. Cəmiyyət bu satınalmanı ayrıca biznes olmayan aktivlər qrupunun alışı kimi tanımış və satınalmanın dəyərini fərdi olaraq müəyyən edilə bilən aktivlər və öhdəliklər arasında onların nisbi ədalətli dəyərləri əsasında bölüşdürmüşdür. Bu yanaşma Cəmiyyətin uçot siyasətinə uyğun olmuşdur (Qeyd 3).

Satınalma tarixində satınalma dəyərinin müəyyən edilə bilən aktivlərə və öhdəliklər üzrə bölüşdürülməsi aşağıdakı kimi olmuşdur:

| *Min ABŞ dolları ilə* | **Bölüşdürülmüş dəyər** |
|---|---|
| Dağ-mədən və kəşfiyyat işlərinin aparılması hüquqları | 95,404 |
| Əsas vəsaitlər | 24,159 |
| Mal-material ehtiyatları | 40,272 |
| Ətraf mühitin bərpası öhdəliyi | (1,835) |
| **Aktivlər qrupunun cəmi satınalma dəyəri** | **158,000** |

## 2 Qrupun fəaliyyət mühiti

***Azərbaycan Respublikası.*** Azərbaycan iqtisadiyyatında inkişaf etməkdə olan bazarlara xas müəyyən xüsusiyyətlər müşahidə edilir. Azərbaycan iqtisadiyyatının mövcud və gələcək artımı və dayanıqlığı hökumətin həyata keçirdiyi fiskal və monetar tədbirlərin effektivliyindən, eləcə də xam neft və qazın qiymətlərindən və Azərbaycan manatının sabitliyindən əhəmiyyətli dərəcədə asılıdır.

2023-cü il ərzində Azərbaycan iqtisadiyyatı qlobal geosiyasi və geoiqtisadi risklərin yaratdığı qeyri-müəyyənliklər, qlobal iqtisadi aktivliyin zəifləməsi, enerji qiymətlərində volatillik, o cümlədən, yüksək inflyasiya təzyiqləri fonunda formalaşmışdır. Azərbaycan iqtisadiyyatı hələ də neft-qaz hasilatından asılıdır, lakin ölkənin iqtisadi artımı əsasən qeyri-neft-qaz sektoru hesabına təmin edilir. Neft-qaz qiymətlərində əsasən azalma tendensiyası müşahidə olunsa da, hələ də yüksək olaraq qalmaqdadır. Dövr ərzində neft-qaz sektorunda istehsal olunmuş əlavə dəyərdə azalma, qeyri neft-qaz sektorunda isə artım müşahidə olunmüşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 2023-cü ilin ilk yarısında qeyri-neft sektorunun bir çox sahələri üzrə artım müşahidə olunmuşdur. Ən böyük artım turizm sektoru üzrə qeydə alınmışdır ki, bu da pandemiyadan sonra ölkədə bu sektorun sürətlə inkişaf etməsi ilə əlaqədardır.

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən antiinflyasiya xarakterli pul siyasəti üzrə tədbirlər davam etdirilmişdir. Qəbul edilmiş pul siyasəti qərarları inflyasiya təzyiqlərini yumşaltmışdır. İnflyasiya ötən illə müqayisədə azalsa da, pandemiyadan əvvəlki dövrlə müqayisədə yüksək olaraq qalmaqdadır.

Fiskal xərclər işğaldan azad edilmiş ərazilərin bərpasının sürətləndirilməsi məqsədilə artırılmışdır. İqtisadi artımın dəstəklənməsi, habelə əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində və işğaldan azad olunmuş ərazilərin bərpası fonunda tədbirlər həyata keçirilmişdir.

Valyuta ehtiyatlarının uzunmüddətli artım dinamikası davam etmişdir. Bütövlükdə ölkənin valyuta ehtiyatları 7.9% artmışdır, bu da son illərin ən yüksək göstəricisidir.

2023-cü il ərzində beynəlxalq reytinq agentlikləri Azərbaycanın xarici və yerli valyutalarda əvvəlki müsbət suveren kredit reytinqlərini təkrar təsdiqləyiblər.

Siyasi və iqtisadi vəziyyətin mövcud təsirini proqnozlaşdırmaq çətindir, lakin bunun Azərbaycan iqtisadiyyatına təsiri daha çox ola bilər. Qrupun rəhbərliyi mövcud iqtisadi mühitdə baş verən prosesləri müşahidə edir və Qrupun yaxın gələcəkdə fəaliyyətinin dayanıqlığını və inkişafını təmin etmək üçün qabaqlayıcı tədbirlər görür. Buna baxmayaraq, mövcud iqtisadi vəziyyətin gələcək təsirini qabaqcadan proqnozlaşdırmaq nisbətən mürəkkəb olduğuna görə rəhbərliyin iqtisadi mühitlə bağlı cari proqnozları və təxminləri faktiki nəticələrdən fərqli ola bilər.

## 2 Qrupun fəaliyyət mühiti

***COVID-19.*** 2020-ci ilin mart ayında Dünya Səhiyyə Təşkilatı COVID-19 epidemiyasını qlobal pandemiya elan etmişdir. Azərbaycan dövləti tərəfindən COVID-19 pandemiyasının yayılmasının qarşısının alınması və mənfi təsirlərinin azaldılması məqsədilə hərəkətin məhdudlaşdırılması ilə bağlı tədbirlər, o cümlədən karantin, özünütəcrid və ticarət fəaliyyətinin məhdudlaşdırılması, o cümlədən müəssisələrin bağlanması kimi bir sıra tədbirlər görülmüşdür. 31 dekabr 2023-cü il tarixinə xüsusi karantin rejimi 2024-cü ilə qədər uzadılmışdır. Yuxarıda qeyd olunan tədbirlər sonradan yumşaldılmış və 2023-cü ilin mayında Ümumdünya Səhiyyə Təşkilatı COVID-19-un qlobal səhiyyə üçün fövqəladə vəziyyət statusunun bitdiyini elan etmişdir.

***Rusiya-Ukrayna münaqişəsi ilə bağlı sanksiyaların təsiri.*** 24 fevral 2022-ci il tarixində Rusiyanın Ukraynaya müdaxiləsi ilə Şərqi Avropada geosiyasi vəziyyət gərginləşmişdir. Bu münaqişə iqtisadi və qlobal maliyyə bazarlarına getdikcə daha çox təsir etmiş və inflyasiyanın artması və qlobal təchizat zəncirinin pozulması kimi problemlər daxil olmaqla, davam edən iqtisadi çətinliyi daha da kəskinləşdirmişdir. Mövcud iqtisadi vəziyyətin uzunmüddətli təsirini qabaqcadan proqnozlaşdırmaq çətin olduğundan, rəhbərliyin iqtisadi mühitlə bağlı cari proqnozları və təxminləri faktiki nəticələrdən fərqli ola bilər. Buna baxmayaraq, belə münaqişə Qrupun fəaliyyətinə hər hansı təsir göstərməmişdir.

***İqlim dəyişmələri.*** Rəhbərlik iqlim dəyişmələrinin mümkün təsiri ilə bağlı məlumatlara malikdir. Hazırda bu məsələnin konsolidasiya edilmiş maliyyə hesabatlarına əhəmiyyətli təsiri yoxdur və Qrupun fəaliyyətinə və biznes planlarına gələcək təsirini proqnozlaşdırmaq çətindir. Rəhbərlik bu sahədə hadisələrin inkişafını izləməklə yanaşı, Qrupun dayanıqlığının təmin edilməsi üçün zəruri tədbirlərin görülməsini, eləcə də onun fəaliyyət göstərdiyi sahədə dövlətin qəbul edəcəyi bütün göstərişlərə və təlimatlara riayət edilməsini təmin edəcək.

## 3 Maliyyə hesabatlarının tərtibatının əsasları

***Maliyyə hesabatlarının tərtibatının əsasları.*** Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları maliyyə alətlərini ilkin olaraq ədalətli dəyərlə tanımaqla, Beynəlxalq Maliyyə Hesabatı Standartlarına ("BMHS Mühasibat Uçotu Standartları") uyğun olaraq ilkin dəyər metoduna əsasən hazırlanmışdır. Sözügedən konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasında istifadə edilən mühüm mühasibat uçotu prinsipləri hər bir müvafiq Qeyddə açıqlanır. Həmin uçot prinsipləri başqa cür nəzərdə tutulmadığı halda, təqdim edilən bütün dövrlərə sistemli şəkildə tətbiq edilmişdir (Qeyd 5).

Konsolidasiya edilmiş maliyyə hesabatlarının BMHS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanması bəzi əhəmiyyətli uçot təxminlərinin istifadəsini tələb edir. Bundan əlavə, uçot siyasətini tətbiq edərkən rəhbərlik öz mülahizələrini irəli sürməlidir. Daha yüksək mülahizə tələb edən və ya mürəkkəb olan sahələr, həmçinin konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasında uçot təxminləri və fərziyyələrin əhəmiyyətli olduğu sahələr Qeyd 4-də açıqlanır.

***Əməliyyatlar və qalıqlar.*** Monetar aktivlər və öhdəliklər Azərbaycan Respublikası Mərkəzi Bankının ("AMB") müvafiq hesabat dövrünün sonuna qüvvədə olan rəsmi valyuta məzənnəsinə uyğun olaraq hər bir müəssisənin əməliyyat valyutasına çevrilir. Belə əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsi və monetar aktiv və öhdəliklərin Mərkəzi Bankın ilin sonuna müəyyən etdiyi rəsmi məzənnə ilə hər bir müəssisənin əməliyyat valyutasına çevrilməsi nəticəsində yaranan gəlir və zərər mənfəət və ya zərərdə tanınır. Borc öhdəlikləri və pul vəsaitləri və onların ekvivalentləri ilə bağlı məzənə fərqlərindən yaranan gəlir və zərər konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda "maliyyə gəlirləri və ya xərcləri" kimi təqdim edilir. Məzənə fərqindən yaranan bütün digər gəlir və zərərlər konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda "sair xalis gəlir/(zərər) kimi göstərilir. İlin sonuna qüvvədə olan məzənnə ilə çevrilmə ilkin dəyərlə qiymətləndirilən qeyri-monetar maddələrə tətbiq edilmir. Xarici valyutada olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr, o cümlədən səhm investisiyaları ədalətli dəyərin müəyyən edildiyi tarixə qüvvədə olan məzənnələrdən istifadə etməklə təqdimat valyutasına çevrilir. Məzənnə dəyişikliklərinin xarici valyutada olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələrə təsiri ədalətli dəyərin dəyişməsindən yaranan gəlir və ya zərərin tərkibində qeydə alınır.

***Qrup şirkətləri.*** Hər bir Qrup müəssisəsinin əməliyyat nəticələri və maliyyə vəziyyəti (bu müəssisələrdən heç birinin əməliyyat valyutası hiperinflyasiya iqtisadiyyatlı ölkələrin valyutası deyil) aşağıdakı şəkildə təqdimat valyutasına çevrilir:

(i) təqdim edilmiş hər bir maliyyə vəziyyəti haqqında hesabat üzrə aktiv və öhdəliklər, müvafiq hesabat dövrünün sonunda qüvvədə olan məzənnə ilə çevrilir;

(ii) gəlir və xərclər orta məzənnə ilə yenidən qiymətləndirilir (həmin orta məzənnə əməliyyat tarixinə məzənnələrin məcmu təsirinə əsaslı şəkildə yaxın olmadığı halda, gəlir və xərclər əməliyyat tarixinə qüvvədə olan məzənnə ilə çevrilir);

## 3 Maliyyə hesabatlarının tərtibatının əsasları (davamı)

(iii) kapitalın komponentləri ilkin dəyərlə çevrilir; və

(iv) bütün məzənnə fərqləri sair məcmu gəlirlərdə tanınır.

Qrupun hər bir komponentinin əməliyyat valyutası (Azərbaycan manatı, "AZN") onun fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Hazırkı konsolidaisya edilmiş maliyyə hesabatlarındakı məbləğlər Qrupun təqdimat valyutası olan ABŞ dolları ("ABŞ dolları") ilə təqdim edilir.

Xarici müəssisə və ya Qrupun əməliyyat və təqdimat valyutasından fərqli valyutanı istifadə edən törəmə müəssisə üzərində nəzarət itirildikdə, əvvəlki dövrlərdə sair məcmu gəlirlərdə tanınmış məzənnə fərqləri silinnmədən yaranan gəlir və ya zərərin bir hissəsi kimi il üzrə mənfəət və ya zərərə yenidən təsnifləşdirilir. Törəmə müəssisə üzərindəki nəzarəti itirmədən onu qismən satdıqda, yığılmış məzənnə fərqlərinin müvafiq hissəsi kapitalda qeyri-nəzarət payına yenidən təsnifləşdirilir.

31 dekabr 2023-cü il tarixinə xarici valyuta qalıqlarının çevrilməsində istifadə olunan rəsmi valyuta məzənnələri aşağıdakı kimi olmuşdur: 1 ABŞ dolları = 1.7000 AZN və 1 Avro = 1.8766 AZN (2022: 1 ABŞ dolları = 1.7000 AZN və 1 Avro = 1.8114 AZN). Gəlir və xərclərin çevrilməsində istifadə olunan rəsmi orta valyuta məzənnələri aşağıdakı kimi olmuşdur: 1 ABŞ dolları = 1.7000 AZN və 1 Avro = 1.8394 AZN (2022: 1 ABŞ dolları = 1.7000 AZN və 1 Avro = 1.7921 AZN).

***Konsolidasiya edilmiş maliyyə hesabatlarının imzalanmasından sonra onlara dəyişikliyin edilməsi.*** İmzalandıqdan sonra hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarına edilmiş hər hansı dəyişiklik Qrupun rəhbərliyi tərəfindən təsdiqlənməlidir.

## 4 Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr

Qrup konsolidasiya edilmiş maliyyə hesabatlarında tanınan məbləğlərə və aktiv və öhdəliklərin balans dəyərinə növbəti maliyyə ili ərzində təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik, həmçin peşəkar ehtimallar və təxminlər irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

***Əlaqəli tərəflərlə əməliyyatların ilkin uçotu.*** Ətraflı məlumat üçün Qeyd 8-ə baxın.

***Əsas vəsaitlərin faydalı istifadə müddəti. .*** Ətraflı məlumat üçün Qeyd 9-a baxın.

***İcarə müddətinin uzadılması və ləğv edilməsi imkanları.*** Ətraflı məlumat üçün Qeyd 12-yə baxın.

***Aktivlərin CGU-lar üzrə qruplaşdırılması.*** Ətraflı məlumat üçün Qeyd 9, 10 və 11-ə baxın.

***Hasilatın başlanma tarixi.*** Ətraflı məlumat üçün Qeyd 10-a baxın.

***Filiz ehtiyatları və mineral resurslar.*** Ətraflı məlumat üçün Qeyd 10-a baxın.

***Ətraf mühitin bərpası öhdəliyi üzrə ehtiyatın müəyyən edilməsi ilə bağlı fərziyyələr.*** Ətraflı məlumat üçün Qeyd 17-yə baxın.

***Mal-material ehtiyatlarının silinməsi.*** Ətraflı məlumat üçün Qeyd 13-ə baxın.

***Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi.*** Ətraflı məlumat üçün Qeyd 14-ə baxın.

***Ekoloji, Sosial və İdarəetmə (ESİ) prinsipləri - İqlim dəyişmələri və onunla əlaqəli risklərin nəzərə alınması.*** Qrup iqlim dəyişmələri ilə əlaqəli fiziki riskləri (məsələn, çətin hava şəraiti və temperaturun yüksəlməsinin təsiri), siyasət dəyişiklikləri və karbonsuzlaşdırma istiqamətində görülən tədbirlərin iqtisadi təsirləri daxil olmaqla, iqlimlə bağlı riskləri və onların Qrupun fəaliyyətinə təsirini mütəmadi olaraq qiymətləndirir.

## 5 Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi

Aşağıdakı yeni standartlar və onlara dəyişikliklər 1 yanvar 2023-cü il tarixindən qüvvəyə minmişdir:

***BMHS 17 "Sığorta müqavilələri" (18 may 2017-ci ildə dərc olunub və 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlanan illik dövrlər üçün qüvvəyə minir).*** BMHS 17 müəssisələrə sığorta müqavilələrinin uçotu üzrə mövcud praktikanı tətbiq etməyə icazə verən BMHS 4-ü əvəz edir. BMHS 4-ə əsasən investorlar analoji sığorta şirkətlərində maliyyə nəticələrini müqayisə etmək və üzləşdirməkdə çətinlik çəkirdilər. BMHS 17 sığortaçının təkrarsığortaya verdiyi müqavilələr daxil olmaqla, bütün növ sığorta müqavilələrinin uçotu üçün prinsiplərə əsaslanan yeganə standartdır. Bu standarta əsasən sığorta müqavilələri qrupu: (i) müqavilələrin icrası üzrə pul axınları haqqında bütün mövcud məlumatları müşahidə edilə bilən bazar məlumatlarına uyğun olaraq nəzərə alan gələcək pul axınlarının riskə görə tənzimlənmiş cari dəyərində (müqavilələrin icrası üzrə pul axınları); üstə gəl (dəyər öhdəlik olduqda) və ya çıxılsın (dəyər aktiv olduqda); (ii) müqavilələr qrupu üzrə bölüşdürülməmiş mənfəətin (müqavilə üzrə xidmət marjası) məbləğində tanınmalı və qiymətləndirilməlidir. Sığortaçılar, sığorta müqavilələri qrupundan yaranan gəliri sığorta təminatının təqdim edildiyi dövr ərzində, eləcə də riskdən azad olunduğu halda tanıyacaqlar. Müqavilələr qrupu üzrə zərər mövcuddursa və ya mövcud olarsa müəssisə dərhal zərəri tanıyacaqdır.

***BMHS 17 və BMHS 4-ə dəyişikliklər (25 iyun 2020-ci ildə dərc olunub və 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlanan illik dövrlər üçün qüvvəyə minir).*** Dəyişikliklər BMHS 17-nin tətbiqini asanlaşdırmaq, həmçinin standart və ona keçidlə bağlı müəyyən tələbləri sadələşdirmək üçün bəzi izahlardan ibarətdir. Bu dəyişikliklər BMHS 17-nin səkkiz sahəsini əhatə edir və standartın əsas prinsiplərinin dəyişdirilməsini nəzərdə tutmur. BMHS 17-yə aşağıdakı dəyişikliklər edilmişdir:

- *Qüvvəyə minmə tarixi:* BMHS 17-nin qüvvəyə minmə tarixi (dəyişikliklər daxil olmaqla) 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrlərinə qədər iki il təxirə salınmışdır; BMHS 4 ilə müəyyən olunan BMHS 9-un tətbiqindən müvəqqəti azadolmanın qüvvədə olma müddəti də 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrlərinə qədər təxirə salınmışdır.
- *Sığorta müqaviləsinin əldə edilməsi zamanı pul axınlarının gözlənilən bərpası:* Müəssisələr sığorta müqaviləsinin əldə edilməsi xərclərinin bir hissəsini gələcəkdə yenilənməsi gözlənilən müvafiq müqavilələrə ayırmalı və bu xərcləri müəssisə yenilənmiş müqavilələr tanıyana qədər aktiv kimi tanımalıdır. Müəssisələr hər bir hesabat tarixinə aktivin bərpa olunma ehtimalını qiymətləndirməli və maliyyə hesabatları üzrə qeydlərdə həmin aktiv haqqında məlumat təqdim etməlidir.
- *İnvestisiya xidmətləri ilə əlaqəli müqavilə üzrə xidmət marjası:* Dəyişən haqların bölüşdürülməsi yanaşması üzrə müqavilələr və ümumi modelə əsasən 'investisiya gəlirlərinin əldə edilməsi ilə bağlı xidmətlər' üzrə digər müqavilələr üçün sığorta təminatı üzrə faydaların həcmini, eləcə də sığorta təminatı və investisiya xidmətləri üzrə gözlənilən dövrü nəzərə almaqla, təminat vahidləri müəyyən edilməlidir. İnvestisiya fəaliyyəti ilə əlaqəli xərclər müəssisənin belə fəaliyyəti sığortalılara sığorta təminatından əldə olunan faydaları artırmaq məqsədilə həyata keçirildiyi halda, sığorta müqaviləsi çərçivəsində pul axınları kimi daxil edilməlidir.
- *Təkrarsığortaya verilmiş sığorta müqavilələri - zərərlərin ödənilməsi:* Müəssisə zərərli baza sığorta müqavilələri qrupunun ilkin tanınması və ya zərərli baza sığorta müqavilələrinin qrupa əlavə edilməsi zamanı zərəri tanıdıqda, müvafiq təkrarsığortaya verilmiş sığorta müqavilələri qrupundakı müqavilə üzrə xidmət marjasına düzəliş etməli və belə müqavilələr üzrə gəliri tanımalıdır. Təkrarsığortaya verilmiş sığorta müqaviləsi üzrə ödənilən zərərin məbləği baza sığorta müqavilələri üzrə tanınmış zərəri müəssisənin təkrarsığortaya verilmiş sığorta müqaviləsi üzrə ödənilməsini gözlədiyi baza sığorta müqavilələri üzrə zərərlərin nisbətinə vurmaqla müəyyən edilir. Bu tələb yalnız təkrarsığortaya verilmiş sığorta müqaviləsi baza sığorta müqavilələri üzrə zərərin tanınmasından əvvəl və ya onunla eyni vaxtda tanındıqda tətbiq edilməlidir.
- *Digər dəyişikliklər:* Digər dəyişikliklərə aşağıdakılar daxildir: bəzi kredit kartı (və ya oxşar) müqavilələri və bəzi kredit müqavilələrində tətbiq sahəsi ilə bağlı istisnalar; sığorta müqavilələri üzrə aktiv və öhdəliklərin maliyyə vəziyyəti hesabatında qruplar əvəzinə portfellər üzrə təqdim edilməsi; təkrarsığortaya verilmiş sığorta müqavilələrindən və ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərə aid olunan qeyri-törəmə maliyyə alətlərindən istifadə edərək maliyyə risklərini azaltmaq üçün risklərin azaldılması imkanının tətbiqi; BMHS 17-ni tətbiq edərkən əvvəlki aralıq maliyyə hesabatlarındakı uçot təxminlərinə dəyişikliklər etmək üçün uçot siyasəti seçimi; sığorta müqaviləsinin şərtlərinə əsasən müəyyən sığortalıya aid edilən mənfəət vergisi ödənişlərinin və daxilolmaların müqavilələrin icrası üzrə pul axınlarına daxil edilməsi; keçid dövründə tələblərdən seçim əsasında azadolmalar və digər kiçik dəyişikliklər.

**5 Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)**

***BMHS 17-yə dəyişikliklər – BMHS 17-nin tətbiqi zamanı sığortaçılar üçün keçid imkanı (9 dekabr 2021-ci ildə dərc olunub və 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** BMHS 17-yə keçid tələblərinə edilmiş dəyişiklik sığortaçılara investorlar üçün BMHS 17-nin ilkin tətbiqi ilə bağlı məlumatın faydalılığını artırmaq imkanı yaradır. Dəyişiklik yalnız sığortaçıların BMHS 17-yə keçidinə aiddir və BMHS-in hər hansı digər tələblərinə təsir göstərmir. BMHS 17 və BMHS 9-da keçid tələbləri müxtəlif tarixlərdə tətbiq ediləcək və BMHS 17-nin ilkin tətbiqi zamanı təqdim olunan müqayisəli məlumatların təsnifatında aşağıdakı birdəfəlik fərqlərlə nəticələnəcək: cari dəyərlə ölçülən sığorta müqaviləsi öhdəlikləri ilə amortizasiya olunmuş dəyərlə uçota alınan hər hansı əlaqəli maliyyə aktivləri arasında uçot uyğunsuzluğu; müəssisə BMHS 9-a uyğun olaraq müqayisəli məlumatlara dəyişiklik etməyi seçərsə, müqayisəli dövrdə tanınması dayandırılmış maliyyə aktivləri (BMHS 9 tətbiq olunmayacaq) və digər maliyyə aktivləri (BMHS 9 tətbiq olunacaq). Bu dəyişiklik sığortaçılara həmin müvəqqəti uçot uyğunsuzluqlarına yol verməməyə kömək edəcək və nəticədə investorlar üçün müqayisəli məlumatların faydalılığını artıracaq. Bu, sığortaçılara maliyyə aktivləri haqqında müqayisəli məlumatları təqdim etmək imkanı yaradır. Müəssisə, BMHS 17-nin ilkin tətbiqi zamanı müqayisəli məlumatların təqdimatı məqsədləri üçün BMHS 9-a uyğun olaraq retrospektiv dəyişiklik edilmədən belə maliyyə aktivlərinə təsnifat düzəlişi tətbiq edə bilər. Keçid imkanı hər bir maliyyə aləti üçün ayrıca tətbiq edilə biləcək; müəssisəyə müqayisəli məlumatları sanki BMHS 9-un təsnifat və qiymətləndirmə tələblərinin həmin maliyyə alətinə tətbiq edilirmiş kimi təqdim etməyə imkan verəcək, lakin müəssisədən BMHS 9-un dəyərsizləşmə tələblərinin tətbiqini tələb etməyəcək. Bundan əlavə, seçim imkanı maliyyə aktivinə təsnifat düzəlişi tətbiq edən müəssisədən həmin aktivi BMHS 9-a uyğun olaraq necə təsnifləşdirəcəyini müəyyən etmək üçün keçid tarixinə mövcud olan əsaslı və təsdiqləyici məlumatların istifadəsini tələb edir.

***BMS 1 və BMHS-in tətbiqi üzrə 2 nömrəli praktiki tövsiyələrə dəyişikliklər: Uçot siyasəti haqqında açıqlamalar (12 fevral 2021-ci ildə dərc olunub və 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** BMS 1-ə dəyişikliklər müəssisələrdən mühüm uçot siyasəti deyil, əhəmiyyətli uçot siyasəti məlumatlarının açıqlanmasını tələb edir. Bu dəyişiklik əhəmiyyətli uçot siyasəti məlumatlarını müəyyənləşdirir. Bundan əlavə, dəyişikliyə əsasən uçot siyasəti məlumatlarının əhəmiyyətli olması o zaman gözlənilə bilər ki, belə məlumat olmadıqda maliyyə hesabatlarının istifadəçiləri maliyyə hesabatlarındakı digər əhəmiyyətli məlumatları anlaya bilməsin. Dəyişiklik müəssisənin maliyyə hesabatları üçün əhəmiyyətli hesab oluna bilən uçot siyasəti məlumatlarına dair nümunələr təqdim edir. Bundan başqa, BMS 1-ə edilən dəyişikliyə əsasən əhəmiyyətli olmayan uçot siyasəti məlumatlarının açıqlanmasına ehtiyac olmadığı qeyd olunur. Bununla birlikdə, belə məlumatlat açıqlandığı təqdirdə əhəmiyyətli uçot siyasəti məlumatlarının açıqlanmasına mane olmamalıdır. Bu dəyişikliyi dəstəkləmək məqsədilə, uçot siyasətindəki açıqlamalara əhəmiyyətlilik konsepsiyasının tətbiqi ilə bağlı təlimat əlavə etmək üçün BMHS-in tətbiqi üzrə 2 nömrəli tövsiyələrə ("Əhəmiyyətliliklə bağlı mühakimələrin yürüdülməsi") dəyişiklik edilmişdir.

***BMS 8-ə dəyişikliklər: Uçot təxminlərinin müəyyən edilməsi (12 fevral 2021-ci ildə dərc olunub və 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** BMS 8-ə edilmiş dəyişiklik müəssisələrin uçot siyasətindəki dəyişiklikləri uçot təxminlərindəki dəyişikliklərdən necə fərqləndirməli olduğunu izah edir.

***BMS 12-yə dəyişiklik - Vahid əməliyyatdan yaranan aktiv və öhdəliklərə aid təxirə salınmış vergilər (7 may 2021-ci ildə dərc edilib və 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** BMS 12-yə dəyişikliklər icarə və istismardan çıxarma öhdəlikləri kimi əməliyyatlar üzrə təxirə salınmış vergilərin uçota alınması qaydasını izah edir. Müəyyən hallarda müəssisələr aktiv və ya öhdəliklərin ilk dəfə uçota alınması zamanı təxirə salınmış verginin tanınması öhdəliyindən azad edilir. Əvvəllər bu istisnanın icarə və istismardan çıxarma öhdəliklərinə şamil edilib-edilməməsi ilə bağlı müəyyən qeyri-müəyyənlik olmuşdur, halbuki hər iki əməliyyat üçün aktiv və öhdəlik tanınır. Bu dəyişikliklər, istisnanın tətbiq edilmədiyini və müəssisələrin belə əməliyyatlar üzrə təxirə salınmış vergini tanımalı olduğunu aydınlaşdırır. BMS 12-yə dəyişikliklər müəssisələrdən ilkin tanınma zamanı vergi bazasını artıran və azaldan bərabər məbləğdə müvəqqəti fərqlərə səbəb olan əməliyyatlar üzrə təxirə salınmış vergini tanımağı tələb edir.

***BMS 12-yə "Mənfəət vergisi" dəyişikliklər: Beynəlxalq vergi islahatı – Pillar II model qaydaları (23 may 2023-cü ildə dərc olunub).*** 2023-cü ilin may ayında BMUSŞ tərəfindən BMS 12-yə ("Mənfəət vergisi") məhdud məzmunlu dəyişikliklər edilmişdir. Bu dəyişikliklər İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) beynəlxalq vergi islahatları çərçivəsində dərc etdiyi Pillar II model qaydalarının tezliklə tətbiqinə cavab olaraq edilmişdir. Dəyişikliklər Pillar II model qaydalarını tətbiq edən qüvvədə olan və ya mahiyyətcə qüvvəyə minmiş vergi qanunvericiliyindən irəli gələn təxirə salınmış vergilərin tanınması və açıqlanması tələbi üzrə müvəqqəti istisnanı nəzərdə tutur. IASB-nin müəyyən etdiyi qüvvəyə minmə tarixinə əsasən müəssisələr bu istisnanı dərhal tətbiq edə bilər, lakin məlumatların açıqlanması tələbləri 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün tələb olunur.

## 5 Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)

Bu dəyişikliklərin tətbiqi Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərməmişdir.

## 6 Yeni uçot qaydaları

1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün məcburi xarakter daşıyan və Qrup tərəfindən vaxtından əvvəl tətbiq edilməyən bəzi yeni standartlar və onlara dair şərhlər dərc olunmuşdur.

***BMHS 16-ya ("İcarələr") dəyişikliklər - Satış və geriyə icarə öhdəliyi (22 sentyabr 2022-ci ildə dərc olunub və 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** Dəyişikliklər BMHS 15-in tələblərinə uyğun olaraq satış kimi uçota alınmalı olan satış və geriyə icarə əməliyyatlarına aiddir. Bu dəyişikliklərə əsasən satıcı-icarəyə götürən əməliyyat nəticəsində yaranan öhdəlikləri sonradan elə şəkildə qiymətləndirməlidir ki, aktiv üzərində saxladığı istifadə hüququ ilə bağlı hər hansı gəliri və ya zərəri tanımasın.

***BMS 1-ə dəyişikliklər – Öhdəliklərin qısamüddətli və ya uzunmüddətli kimi təsnifləşdirilməsi (ilkin olaraq 23 yanvar 2020-ci ildə dərc olunub və sonradan 15 iyul 2020-ci il və 31 oktyabr 2022-ci il tarixlərində dəyişikliklər edilmiş, yekun olaraq 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** Bu dəyişikliklər hesabat dövrünün sonunda mövcud olan hüquqlardan asılı olaraq, öhdəliklərin qısamüddətli və ya uzunmüddətli kimi təsnifləşdirildiyini izah edir. Əgər müəssisə hesabat dövrünün sonunda öhdəliklərin icrasını ən azı on iki ay müddətinə təxirə salmaq üçün əsaslı hüquqa malikdirsə, o zaman öhdəliklər uzunmüddətli kimi təsnifləşdirilir. Yeni dəyişikliklər belə hüququn qeyri-şərtsiz olmasını artıq tələb etmir. 2022-ci ilin oktyabr ayında edilmiş dəyişikliklərə əsasən hesabat tarixindən sonra riayət edilməli olan xüsusi kredit şərtləri hesabat tarixində öhdəliyin cari və ya uzunmüddətli kimi təsnifləşdirilməsinə təsir etmir. Rəhbərliyin hesabat tarixindən sonrakı dövr ərzində öhdəliyin icrasını təxirə salmaq hüququnun istifadəsinə dair gözləntiləri öhdəliklərin təsnifatına təsir göstərmir. Öhdəlik hər hansı şərtin hesabat tarixində və ya ondan əvvəl pozulduğu halda qısamüddətli kimi təsnifləşdirilir (hətta kreditor bu şərtin pozulması ilə bağlı hesabat dövründən sonra rəsmi razılıq təqdim etsə belə). Kredit müqaviləsinin şərti hesabat tarixindən sonra pozularsa, kredit uzunmüddətli öhdəlik kimi təsnifləşdirilir. Bundan əlavə, dəyişikliklər müəssisənin kapitala çevirməklə ödəyə bildiyi borclar üzrə təsnifat tələblərini nəzərdə tutur. 'Ödəmə' dedikdə öhdəliyin nağd pul, özündə iqtisadi səmərəni təcəssüm etdirən digər resurslar və ya müəssisənin öz pay alətləri ilə ödənilməsi nəzərdə tutulur. Bu dəyişikliklər kapitala konvertasiya oluna bilən alətlər üçün istisnanı nəzərdə tutur, lakin bu istisna yalnız kombinə edilmiş maliyyə alətinin ayrıca komponenti şəklində pay aləti kimi təsnifləşdirilən konvertasiya seçiminin nəzərdə tutulduğu maliyyə alətlərinə aiddir.

***BMS 7 "Pul vəsaitlərinin hərəkəti haqqında hesabat" və BMHS 7-yə "Maliyyə alətləri: Açıqlamalar: Təchizatçıların maliyyələşdirmə razılaşmaları" dəyişikliklər (25 may 2023-cü ildə dərc olunub).*** Maliyyə hesabatlarının istifadəçilərinin maliyyələşdirmə razılaşmalarının səhv və ya yanlış açıqlanması ilə bağlı narahatlıqlarına cavab olaraq, BMUSŞ 2023-cü ilin may ayında müəssisələrdən təchizatçıların maliyyələşdirmə razılaşmaları (SFA) haqqında məlumatların açıqlanmasını tələb etmək üçün BMS 7 və BMHS 7-yə dəyişikliklər etmişdir. Bu dəyişikliklər maliyyə hesabatlarının istifadəçilərinə həmin razılaşmaların müəssisənin öhdəliklərinə və pul axınlarına, eləcə də likvidlik riskinə məruz qalmasının təsirini qiymətləndirməyə imkan verəcək təchizatçının maliyyələşdirilməsi razılaşmaları haqqında məlumatın açıqlanmasını tələb edir. Əlavə açıqlama tələblərinin məqsədi təchizatçının maliyyə razılaşmalarının şəffaflığını artırmaqdır. Qeyd olunan dəyişikliklər tanınma və ya qiymətləndirmə prinsiplərinə deyil, yalnız məlumatların açıqlanması tələblərinə təsir edir. Yeni açıqlama tələbləri 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minəcək.

***BMHS 14, Tənzimlənən tariflər üzrə həyata keçirilən fəaliyyətlə bağlı təxirə salınmış ödənişlər (30 yanvar 2014-cü ildə dərc olunub və 1 yanvar 2016-cı il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** BMHS 14 BMHS-i ilk dəfə qəbul edən müəssisələrə BMHS Mühasibat Uçotu Standartlarına keçid zamanı tənzimlənən tariflər üzrə həyata keçirilən fəaliyyətə aid olan məbləğləri əvvəlki ümumi qəbul edilmiş uçot standartlarına uyğun olaraq tanımağa icazə verir. Bununla belə, bu standart BMHS Mühasibat Uçotu Standartlarını artıq tətbiq edən, lakin belə məbləğləri tanımayan müəssisələrlə müqayisəliliyi artırmaq məqsədilə, tariflərin tənzimlənmə effektini digər maddələrdən ayrıca təqdim olunmasını tələb edir. Bu standart maliyyə hesabatlarını artıq BMHS Mühasibat Uçotu Standartlarına uyğun hazırlayan müəssisələrə şamil edilmir.

## 6 Yeni uçot qaydaları (davamı)

***BMHS 10 və BMS 28-ə dəyişikliklər - "İnvestor tərəfindən aktivlərin asılı və ya birgə müəssisələrə satılması və ya ötürülməsi" (11 sentyabr 2014-cü ildə dərc olunub və BMUSŞ tərəfindən müəyyən ediləcək tarixdə və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** Bu dəyişikliklər investor tərəfindən aktivlərin asılı və ya birgə müəssisələrə satılması və ya ötürülməsi ilə bağlı BMHS 10 və BMS 28-in tələbləri arasındakı uyğunsuzluğu aradan qaldırır. Dəyişikliklərin əsas nəticəsi ondan ibarətdir ki, mənfəət və zərər əməliyyatın biznesə aid olduğu halda tam tanınır. Aktivlər özündə biznesi əks etdirmədikdə, hətta bu aktivlər törəmə müəssisəyə məxsus olsa belə, mənfəət və ya zərərin yalnız bir hissəsi tanınır.

Yuxarıda başqa cür nezərdə tutulmadığı hallarda, yeni standartların və şərhlərin Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsiri gözlənilmir.

## 7 Seqmentlər üzrə məlumat

***Seqmentlər üzrə hesabat.*** Əməliyyat seqmentləri haqqında hesabat Qrupun fəaliyyəti ilə bağlı qərar qəbul edən səlahiyyətli şəxsə təqdim edilən daxili hesabat qaydalarına əsasən hazırlanır. Fəaliyyətlə bağlı qərar qəbul edən səlahiyyətli şəxs vəsaitlərin seqmentlər üzrə bölüşdürülməsi və əməliyyat seqmentlərinin fəaliyyət nəticələrinin qiymətləndirilməsinə görə məsuliyyət daşıyır. Gəlirləri, maliyyə nəticələri və ya aktivləri bütün seqmentlərin on faizini və ya artıq hissəsini təşkil edən hesabat seqmentləri ayrıca şəkildə açıqlanır.

Əməliyyat seqmentləri müəssisənin biznes fəaliyyəti zamanı mənfəət əldə edə bildiyi və ya xərc çəkdiyi, əməliyyat nəticələrinin fəaliyyətlə bağlı qərar qəbul edən səlahiyyətli şəxs tərəfindən mütəmadi olaraq nəzərdən keçirildiyi və haqqında ayrıca maliyyə məlumatlarının mövcud olduğu komponentlərdir. Fəaliyyətlə bağlı qərar qəbul edən səlahiyyətli şəxs resursların bölüşdürülməsi və müəssisənin fəaliyyətinin qiymətləndirilməsi ilə məşğul olan şəxs və ya şəxslər qrupu ola bilər. Fəaliyyətlə bağlı qərar qəbul edən səlahiyyətli şəxsin funksiyaları Qrupun İdarə Heyəti tərəfindən həyata keçirilir.

### *(a) Hesabat seqmentinin gəlir mənbəyi olan məhsul və xidmətlərin təsviri*

Qrupun fəaliyyəti üç əsas biznes seqmenti üzərində qurulmuşdur:

- Seqment 1 - qızıl satışı;
- Seqment 2 - gümüş satışı;
- Seqment 3 - törəmə müəssisələr tərəfindən digər materialların satışı.

İdarə Heyəti seqmentlər üzrə fəaliyyət nəticələrini vergidən əvvəlki mənfəətə əsasən qiymətləndirir.

### *(b) Hesabat seqmenti üzrə mənfəət və ya zərər haqqında məlumat*

31 dekabr 2023-cü il tarixində başa çatan il üzrə hesabat seqmentləri haqqında məlumat aşağıda göstərilir:

| *Min ABŞ dolları ilə* | Qızıl | Gümüş | Digər | Cəmi |
|---|---|---|---|---|
| Satış üzrə gəlirlər | 131,130 | 2,584 | 1,641 | 135,355 |
| Satılmış malların maya dəyəri | (91,132) | (1,796) | (225) | (93,153) |
| **Ümumi mənfəət/(zərər)** | **39,998** | **788** | **1,416** | **42,202** |
| Ümumi və inzibati xərclər | (18,055) | (356) | (6,473) | (24,884) |
| Kəşfiyyat və qiymətləndirmə aktivlərinin dəyərsizləşməsi (Qeyd 10) | (172) | (3) | - | (175) |
| Qeyri-maddi aktivlər və əsas vəsaitlər üzrə xalis dəyərsizləşmə zərərinin qaytarılması/(yaradılması) | 10,374 | 204 | 784 | 11,362 |
| Maliyyə aktivləri üzrə xalis dəyərsizləşmə zərəri | 17 | - | 608 | 625 |
| Sair gəlirlər | 5,174 | 102 | 850 | 6,126 |
| **Əməliyyat mənfəəti/(zərəri)** | **37,336** | **735** | **(2,815)** | **35,256** |
| Faiz xərcləri | (3,267) | (64) | - | (3,331) |
| Faiz gəlirləri | 125 | 3 | 2,385 | 2,513 |
| **Vergidən əvvəlki mənfəət/(zərər)** | **34,194** | **674** | **(430)** | **34,438** |

## 7 Seqmentlər üzrə məlumat (davamı)

31 dekabr 2022-ci il tarixində başa çatan il üzrə hesabat seqmentləri haqqında məlumat aşağıda göstərilir:

| *Min ABŞ dolları ilə* | Qızıl | Gümüş | Digər | Cəmi |
|---|---|---|---|---|
| Satış üzrə gəlirlər | 117,704 | 4,524 | 1,418 | 123,646 |
| Satılmış malların maya dəyəri | (60,851) | (2,339) | (2,146) | (65,336) |
| **Ümumi mənfəət/(zərər)** | **56,853** | **2,185** | **(728)** | **58,310** |
| Ümumi və inzibati xərclər | (17,226) | (662) | (3,446) | (21,334) |
| Kəşfiyyat və qiymətləndirmə aktivlərinin dəyərsizləşməsi (Qeyd 10) | (3,449) | (133) | - | (3,582) |
| Maliyyə aktivləri üzrə xalis dəyərsizləşmə zərəri | (114) | (4) | (687) | (805) |
| Sair gəlirlər | 5,443 | 209 | 1,422 | 7,074 |
| **Əməliyyat mənfəəti/(zərəri)** | **41,507** | **1,595** | **(3,439)** | **39,663** |
| Faiz xərcləri | (1,032) | (40) | - | (1,072) |
| Faiz gəlirləri | - | - | 984 | 984 |
| **Vergidən əvvəlki mənfəət/(zərər)** | **40,475** | **1,555** | **(2,455)** | **39,575** |

## 8 Əlaqəli tərəflərlə əməliyyatlar və qalıqlar

### *Mühüm mühasibat uçotu prinsipi*

Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar ümumi nəzarət altında olsun və ya tərəflərdən biri digərinə nəzarət etmək iqtidarında olsun və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələlərə dair qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli dərəcədə təsir göstərə bilsin və ya ona birgə nəzarət etsin. Əlaqəli tərəflərlə hər hansı mümkün münasibətlər nəzərdən keçirilərkən, həmin münasibətlərin mahiyyətinin onların hüquqi formasından üstünlüyü prinsipi tətbiq olunur.

Əlaqəli tərəflər əlaqəli olmayan tərəflərin həyata keçirə bilmədiyi əməliyyatlarda iştirak edə bilər. Əlaqəli tərəflər arasında əməliyyatlar əlaqəli olmayan tərəflər arasında əməliyyatlarla eyni şərtlər, müddət və məbləğdə aparılmaya bilər. Öz xüsusiyyətinə görə əlaqəli tərəflər arasında əməliyyatlar bir-birindən asılı olmayan tərəflər arasında aparılan əməliyyatlar hesab oluna bilməz.

### *Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr*

***Əlaqəli tərəflərlə əməliyyatların ilkin uçotu.*** Qrup adi fəaliyyəti gedişində əlaqəli tərəflərlə əməliyyatlar aparır. BMHS 9-a uyğun olaraq maliyyə alətləri ilkin olaraq ədalətli dəyərdə uçota alınmalıdır. Lakin həmin əməliyyatların bazar və ya qeyri-bazar faiz dərəcələrində həyata keçirilməsini müəyyən etmək məqsədilə bu cür əməliyyatlar üçün aktiv bazar mövcud olmadıqda peşəkar mülahizələrdən istifadə etmək lazım gəlir. Mülahizələrin irəli sürülməsinin əsasını əlaqəli olmayan tərəflərlə analoji əməliyyatların qiymətinin müəyyən edilməsi və effektiv faiz dərəcəsinin təhlili təşkil edir. Əlaqəli tərəflərlə əməliyyatların şərtləri haqqında məlumat bu Qeyddə göstərilir.

Əlaqəli tərəflərlə əməliyyatlar üzrə qalıqlar aşağıdakı kimidir:

| | 31 dekabr 2023 | 31 dekabr 2022 |
|---|---|---|
| *Min ABŞ dolları ilə* | Ümumi nəzarətdə olan müəssisələr | Ümumi nəzarətdə olan müəssisələr |
| Pul vəsaitləri və onların ekvivalentləri | 9 | 1 |
| Müddətli depozitlər | - | 11,700 |
| Ticarət və digər debitor borcları | 127 | 3,485 |
| Verilmiş avanslar | 120 | 252 |
| Ticarət və digər kreditor borcları | 185 | 135 |

2023-cü il ərzində Dövlət tərəfindən Qrupa nağd pul şəklində 26,471 min ABŞ dolları (2022: 73,529 min ABŞ dolları) məbləğində əlavə kapital qoyuluşu həyata keçirilmişdir.

## 8 Əlaqəli tərəflərlə əməliyyatlar və qalıqlar (davamı)

Əlaqəli tərəflərlə əməliyyatlardan yaranan gəlir və xərclər aşağıda göstərilir:

| *Min ABŞ dolları ilə* | 31 dekabr 2023 Ümumi nəzarətdə olan müəssisələr | 31 dekabr 2022 Ümumi nəzarətdə olan müəssisələr |
|---|---|---|
| Gəlirlər | 1,539 | 3,793 |
| Satınalmalar | 350 | 267 |
| Maliyyə aktivləri üzrə xalis dəyərsizləşmə zərərləri | - | 142 |

***Əsas idarəedici heyətə ödənişlər.*** Cəmiyyətin əsas idarəedici heyəti Cəmiyyətin fəaliyyətini planlaşdırmaq, idarə etmək və nəzarət etmək üçün normativ sənədlər çərçivəsində müəyyən edilmiş səlahiyyət və məsuliyyətə malik şəxslərdir. Cəmiyyətin əsas idarəedici heyəti İdarə Heyətinin Sədrindən və İdarə Heyətinin üzvləri - Sədrin müavinlərindən ibarətdir. Əsas idarəedici heyətin üzvləri təsdiqlənmiş əmək haqqı cədvəlinə uyğun olaraq əmək haqqı və mükafatlar almaq hüququna malikdir.

Əsas idarəedici heyətə ödənişlər aşağıda göstərilir:

| *Min ABŞ dolları ilə* | 2023 Xərclər | 2022 Xərclər |
|---|---|---|
| *Qısamüddətli ödənişlər:* | | |
| - Əmək haqları | 258 | 252 |
| - Qısamüddətli mükafatlar | 1,530 | 2,463 |
| *Əmək fəaliyyətinin başa çatmasından sonrakı ödənişlər:* | | |
| - Dövlət Sosial Müdafiə Fonduna ayırmalar | 413 | 627 |
| **Cəmi** | **2,201** | **3,342** |

Qısamüddətli ödənişlər rəhbərlik tərəfindən müvafiq xidmətlərin göstərildiyi dövrün başa çatmasından sonra on iki ay ərzində tam şəkildə ödənilir.

## 9 Əsas vəsaitlər

### *Mühüm mühasibat uçotu prinsipi*

Əsas vəsaitlər yığılmış amortizasiya və ehtiyac yaranarsa dəyərsizləşmə çıxılmaqla, ilkin dəyərlə uçota alınır. İlkin dəyər aktivin əldə olunmasına birbaşa aid edilə bilən xərcləri özündə əks etdirir.

Əsas vəsaitlərin rəhbərliyin nəzərdə tutduğu qaydada fəaliyyət göstərə bilməsi üçün zəruri olan məkana və vəziyyətə gətirilməsi zamanı istehsal olunan aktivlərin satışından əldə edilən gəlirlər (məsələn, aktivin düzgün çalışdığını yoxlayarkən hazırlanan nümunələr) və həmin aktivlərin ilkin dəyəri mənfəət və ya zərərdə tanınır.

Əsas vəsaitlərlə bağlı sonrakı xərclər müvafiq olaraq aktivin balans dəyərində və ya ayrıca aktiv kimi yalnız o halda tanınır ki, həmin aktivlə bağlı gələcək iqtisadi səmərənin Qrupa daxil olması ehtimal edilsin və onun dəyəri etibarlı şəkildə ölçülə bilsin. Kiçik həcmli təmir və gündəlik xidmət xərcləri çəkildiyi dövrdə xərcə silinir. Əsas vəsaitlərin əsas hissələrinin və ya komponentlərinin əvəz edilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr balansdan silinir.

Aktivlərin silinməsindən yaranan mənfəət və ya zərər gəlirin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və il üzrə mənfəət və ya zərərdə "sair gəlirlər" kimi tanınır.

***Tikilməkdə olan aktivlər.*** Tikilməkdə olan aktivlər yataqların işlənməsi, binaların, infrastrukturun, maşın və avadanlıqların tikintisi ilə birbaşa bağlı olan xərclərdən ibarətdir.

Aktivin tikintisi başa çatdırıldıqdan və istifadəyə verildikdən sonra aktivlə bağlı xərclər əsas vəsaitlərin tərkibində müvafiq aktivlər qrupuna köçürülür. Bu aktivlərin amortizasiyası həmin aktivlər təyinatı üzrə istifadəyə hazır olduqda başlayır.

## 9 Əsas vəsaitlər (davamı)

***İstehsal mədənləri.*** Əsas vəsaitlərə, həmçinin yığılmış amortizasiya və mümkün dəyərsizləşmə zərərləri çıxılmaqla, ilkin dəyərlə uçota alınan mədənlərin istismarı ilə bağlı aktivlər daxildir. Mədənlərin istismarı ilə bağlı aktivlər qızıl hasilatının iqtisadi rentabelliyi zamanı kəşfiyyat və qiymətləndirmə aktivlərindən köçürülür, yaxud işlənmə və hasilat mərhələsində yaranır. Mədənlərin istismarı ilə bağlı aktivlərə qazma xərcləri, sahənin bərpası üzrə təxmin edilən xərclər, tullantıların daşınma xərcləri və mədən tikintisi xərcləri daxildir.

***Tullantıların daşınması xərcləri.*** Çöküntülərin və dağ-mədən işləri ilə əlaqədar digər istehsalat tullantılarının daşınması mədənin ilkin işlənməsi zamanı mineral filiz yatağına çıxış əldə etmək üçün tələb olunur. Bu fəaliyyətə birbaşa aid edilən xərci, mədən kommersiya hasilatına hazır hesab edilənədək, istehsal mədən aktivləri daxilində tam olaraq kapitallaşdırılır. Bu, investisiyadan yaranan pul vəsaitlərinin hərəkəti daxilində genişlənən əsaslı məsrəflər kimi təsnif edilir.

Mədən kommersiya hasilatına hazır olduqdan sonra istehsalat tullantılarının daşınması süxurların kəsilməsi hesab olunur.

İstehsalat tullantılarının daşınması cari dövrdə hasil edilən filizə çıxışı asanlaşdırdıqda, istehsalat tullantılarının hasilat mərhələsində daşınması üzrə xərclər BMS 2-yə *"Mal-material ehtiyatları"* uyğun olaraq Qrupun konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatında əməliyyat məsrəfləri kimi göstərilir.

Hasilat mərhələsində tullantıların daşınması ehtiyatların yaranması və gələcək dövrlərdə filizə çıxışın asanlaşması ilə nəticələndikdə, istehsalat tullantılarının daşınması ilə əlaqəli xərclər iki element arasında bölüşdürülür. Gələcək filiz hasilatına fayda gətirən hissə tullantıların daşınması və işlənmə üzrə kapital xərclərin tərkibində kapitallaşdırılır. Kapitallaşdırılacaq məbləği xüsusi olaraq müəyyən etmək mümkün olmadıqda o, cari istehsalat tullantılarının həcmini bütöv yatağın müəyyən edilmiş komponenti üzrə gözlənilən həcmi ilə müqayisə etməklə müəyyən edilir. Komponentlər mədənin istismar planına əsasən müəyyən edilən bütöv yatağın xüsusi həcmindən ibarətdir.

Müəyyən hallarda, hasilatın olmaması və ya az həcmdə olmasına baxmayaraq, böyük həcmli istehsalat tullantılarının daşınması baş verə bilər.

İstehsalat tullantılarının daşınması ilə bağlı kapitallaşdırılmış bütün məbləğlər istehsal vahidi metodu ilə onların aid olduğu yatağın komponentinin filiz ehtiyatlarına əsasən amortizasiya olunur.

Mədənin xidmət müddəti planına edilən dəyişikliklərin istehsalat tullantılarının daşınması və ya komponent üçün qalıq ehtiyatları üzrə gözlənilən xərclərə təsiri gələcək dövrlərə tətbiq edilməklə proqnozda dəyişiklik kimi əks etdirilir.

***Köhnəlmə və tükənmə.*** Torpaq və tikilməkdə olan aktivlər üçün amortizasiya hesablanmır. İstehsal mədənləri daxilində mədənin işlənməsi üzrə yığılmış xərclər müvafiq mədənin iqtisadi baxımdan bərpa edilə bilən ehtiyatları üzrə istehsal vahidi əsasında tükənməyə silinir, lakin istifadə müddəti yatağın istifadə müddətindən qısa olan aktivlər üzrə tükənmə istifadə müddəti üzrə bərabər hissələrə bölünməklə hesablanır. Digər əsas vəsaitlər üzrə amortizasiya düz xətt metoduna, yəni əsas vəsaitlərin təxmini faydalı istifadə müddəti ərzində aktivlərin ilkin dəyərini onların qalıq dəyərinədək azaltmaqla hesablanır:

| | Faydalı istifadə müddəti |
|---|---|
| Tikililər | 13 il |
| Nəqliyyat vasitələri | 3 - 4 il |
| Maşın və avadanlıqlar | 4 il |
| Mebel və digər avadanlıqlar | 4 - 5 il |
| Kompüter avadanlığı | 3 - 4 il |

Aktiv faydalı istifadə müddətinin sonunda nəzərdə tutulan vəziyyətə uyğun olduqda, onun satışı ilə bağlı ehtimal olunan xərclər çıxıldıqdan sonra, Qrup tərəfindən əldə oluna biləcək qiymətləndirilmiş məbləğ aktivin qalıq dəyəridir. Aktivlərin qalıq dəyəri və faydalı istifadə müddəti hər bir hesabat dövrünün sonunda nəzərdən keçirilir və lazım olduqda dəyişdirilir.

***Borclar üzrə məsrəflərin kapitallaşdırılması.*** Təyinatı üzrə istifadəyə və ya satışa hazır vəziyyətə gətirilməsi üçün əhəmiyyətli vaxt tələb edilən aktivlərin (kvalifikasiya olunan aktivlər) alınması, inşası və ya istehsalına birbaşa aid edilən ümumi və müəyyən edilmiş məqsədlər üçün cəlb edilmiş borclar üzrə məsrəflər həmin aktivlərin ilkin dəyərinin bir hissəsi kimi kapitallaşdırılmalıdır.

Kapitallaşdırma aşağıdakı hallarda başlanır: (a) kvalifikasiya olunan aktivlər üzrə məsrəflər yarandıqda; (b) borclar üzrə məsrəflər yarandıqda; və (c) aktivin təyinatı üzrə istifadəyə və ya satışa hazır vəziyyətə gətirilməsi üçün lazım olan fəaliyyətlər həyata keçirildikdə. Borclar üzrə məsrəflərin kapitallaşdırılması aktivlərin tamamilə istifadəyə və ya satışa hazır vəziyyətə gətirildiyi tarixədək davam edir.

**9 Əsas vəsaitlər (davamı)**

Qrup kvalifikasiya olunan aktivlər üzrə kapital məsrəfləri çəkməyəcəyi halda, qaçınması mümkün olan borclar üzrə məsrəfləri kapitallaşdırır. Kvalifikasiya olunan aktivin alınması üçün vəsaitlərin borc götürüldüyü hallar istisna olmaqla, kapitallaşdırılmış faiz xərcləri Qrupun maliyyələşdirmə xərclərinin orta dəyəri ilə hesablanır (kvalifikasiya olunan aktivlər üzrə xərclərə orta çəkili faiz xərcləri tətbiq edilir). Bu baş verdikdə, həmin borcların müvəqqəti investisiyasından yaranan hər hansı investisiya gəlirləri çıxılmaqla, dövr ərzində müəyyən edilmiş borclar üzrə çəkilmiş faktiki xərclər kapitallaşdırılır.

***Əsas vəsaitlərin dəyərsizləşməsi.*** Rəhbərlik hər bir hesabat dövrünün sonunda tikili və avadanlıqlar üzrə dəyərsizləşmə əlamətlərini təhlil edir. Əgər belə əlamətlər mövcud olarsa, rəhbərlik bərpa edilə bilən dəyəri təxmin edir. Aktivin bərpa edilə bilən dəyəri onun satış üzrə məsrəfləri çıxılmaqla ədalətli dəyəri və istifadə dəyərindən daha yüksək olan dəyəridir. Balans dəyəri bərpa edilə bilən dəyərə qədər azaldılır və dəyərsizləşmə zərəri il üzrə mənfəət və ya zərərdə tanınır. Aktivin istifadə dəyərini və ya satış üzrə məsrəflər çıxılmaqla ədalətli dəyərini müəyyən etmək üçün istifadə edilmiş təxminlərdə dəyişiklik baş verdiyi təqdirdə, əvvəlki illərdə tanınmış dəyərsizləşmə zərəri geri qaytarılır. Dəyərsizləşmənin qaytarılması ilə əlaqəli olan aktivin dəyəri əvvəlki illərdə həmin aktiv üçün heç bir dəyərsizləşmə tanınmadığı halda qeydə alınan balans dəyərindən yuxarı olmamalıdır. Bu zaman hesablanmalı olan amortizasiya nəzərə alınmalıdır.

Amortizasiya və tükənmə hesablanan əsas vəsaitlər və qeyri-maddi aktivlər balans dəyərinin bərpa edilə bilmədiyini göstərən hadisə və ya şərait dəyişiklikləri baş verdikdə dəyərsizləşməyə görə təhlil edilir. Dəyərsizləşmə zərəri aktivin balans dəyərinin onun bərpa edilə bilən dəyərindən artıq olan məbləğdə tanınır. Aktivin bərpa edilə bilən dəyəri onun ədalətli dəyəri və satış üzrə məsrəfləri çıxılmaqla istifadə dəyərindən daha yüksək olan dəyəridir. Dəyərsizləşməni müəyyən etmək üçün aktivlər əhəmiyyətli dərəcədə sərbəst pul vəsaitləri yaradan ən kiçik aktivlər (pul vəsaiti yaradan vahidlər) üzrə qruplaşdırılır. Qeyri-maliyyə aktivlərinin əvvəlki dövrlərdə dəyərsizləşməsinin qaytarılma ehtimalı hər bir hesabat tarixində təhlil edilir.

***Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr***

***Əsas vəsaitlərin faydalı istifadə müddəti.*** Əsas vəsaitlərin faydalı istifadə müddətinin müəyyən edilməsi oxşar aktivlər ilə bağlı mövcud təcrübəyə əsasən peşəkar mülahizələr tətbiq etməklə aparılmışdır. Belə aktivlərlə bağlı gələcək iqtisadi faydalar əsasən onların istifadəsi nəticəsində əldə ediləcəkdir.

Lakin avadanlığın texniki və kommersiya baxımından köhnəlməsi və aşınması kimi digər amillər bu aktivlərlə bağlı iqtisadi faydaların azaldılmasına gətirib çıxarır. Rəhbərlik aktivlərin cari texniki vəziyyətini və bu aktivlərin Qrupa iqtisadi səmərə gətirəcəyi təxmin edilən dövrü nəzərə alaraq, əsas vəsaitlərin qalan faydalı istifadə müddətini müəyyən edir. Bu zaman aşağıdakı əsas amillər nəzərə alınır: (a) aktivlərin gözlənilən istifadə müddəti; (b) istismar göstəriciləri və texniki xidmət qaydalarından asılı olan gözlənilən fiziki köhnəlmə və aşınma; və (c) bazar şərtlərindəki dəyişikliklər nəticəsində avadanlığın texnoloji və kommersiya baxımından köhnəlməsi və aşınması.

***Aktivlərin CGU-lar üzrə qruplaşdırılması.*** CGU digər aktivlər və ya aktivlər qrupu üzrə pul axınlarından əhəmiyyətli dərəcədə müstəqil olan pul axınları yaradan müəyyən edilə bilən ən kiçik aktivlər qrupudur. Aktivlərin CGU-lar üzrə qruplaşdırılması mülahizəyə əsasən aparılır.

31 dekabr 2021-ci il tarixində başa çatan il ərzində rəhbərlik aktivlərin CGU-lar üzrə qruplaşdırılması ilə bağlı öz təxminlərinə dəyişiklik etmişdir. 2021-ci ilə qədər Çovdar və onun yaxınlığında yerləşən cinah yataqlar ayrıca CGU hesab olunurdu. 2021-ci ildə müstəqil məsləhətçi şirkət tərəfindən yekun texniki-iqtisadi əsaslandırma hesabatının hazırlanmasından sonra rəhbərlik yalnız Çovdar yatağına əhəmiyyətli kapital qoyuluşları etmək və onun yaxınlığında yerləşən yataqların müstəqil şəkildə iqtisadi səmərəsizliyini nəzərə alaraq onların cinah yataqlar kimi istismara cəlb edilməsi qərarına gəlmişdir.

Yuxarıda göstərilənləri, istismar əlaqələrini və sinerjiləri nəzərə alaraq, 2021-ci ildən başlayaraq Çovdar yatağı Tülallar, Ağyoxuş 1, Ağyoxuş 2, Ağyoxuş 3 və Mərəh yataqları ilə birlikdə bir CGU - Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsi kimi nəzərə alınmışdır. 2023-cü il ərzində Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsi CGU-ya yuxarıda qeyd olunan prinsiplər əsasında yeni yataqlar - Quytul, Cavadxan və Çıraqlı əlavə edilmişdir.

***Filiz ehtiyatları və mineral resurslar.*** Filiz ehtiyatları Qrupun mədən obyektlərindən iqtisadi və hüquqi cəhətdən hasil edilə bilən filiz həcminin qiymətləndirilməsidir. Qrup filiz ehtiyatlarını və mineral resursları müvafiq ixtisaslı şəxslər tərəfindən verilən filiz yatağının ölçüsü, dərinliyi və forması ilə bağlı geoloji məlumata əsaslanaraq hesablayır. Bu cür məlumatın şərh edilməsi zamanı mürəkkəb geoloji rəylər tələb olunur. Bərpa edilə bilən ehtiyatların hesablanması xarici valyuta məzənnəsi üzrə proqnozlar, əmtəə qiymətləri, gələcək kapital tələbləri və istehsal dəyəri ilə yanaşı filiz yatağının ölçüsü və keyfiyyətinin qiymətləndirilməsi zamanı verilən geoloji fərziyyələr və rəylər əsasında aparılır.

## 9 Əsas vəsaitlər (davamı)

Ehtiyat və resurslar üzrə proqnozlarda dəyişikliklər kəşfiyyatın və qiymətləndirmə aktivlərinin balans dəyərinə, qeyri-maddi aktivlərə, əsas vəsaitlərə, bərpa işləri üçün ehtiyata və köhnəlmə, tükənmə və amortizasiya xərclərinə təsir göstərə bilər. Tükənmə xərci ehtiyatlarla bağlı yeni hesablamalardan asılı olaraq hər il dəyişə bilər.

***Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi.*** Mühasibat uçotu siyasətinə uyğun olaraq Qrup hər bir hesabat tarixində maddi və qeyri-maddi aktivlərin dəyərsizləşə biləcəyini göstərən hər hansı əlamətin olub-olmadığını qiymətləndirir. Əgər hər hansı əlamət olarsa, Qrup aktivin bərpa edilə bilən dəyərinin rəsmi qiymətləndirməsini aparır. Aktivin bərpa edilə bilən dəyəri aktivin satış məsrəfləri çıxılmaqla ədalətli dəyəri ("FVLCD") və aktivin istifadə dəyərindən ("VIU") daha yüksək olan dəyərdir.

Hər hansı aktiv digər aktiv və ya aktivlər qrupu tərəfindən yaradılan pul vəsaitlərinin mədaxilindən əhəmiyyətli dərəcədə asılı olmayan pul vəsaitlərinin mədaxilini yaradırsa, həmin aktiv üçün aktivin bərpa edilə bilən məbləği fərdi olaraq müəyyən edilir. Belə olan halda, dəyərsizləşmə məqsədləri üçün fərdi aktivlər pul vəsaitləri yaradan vahidlərə ("CGU") qruplaşdırılır. Belə CGU-lar digər aktivlərdən və ya digər aktivlər qruplarından pul vəsaitlərinin hərəkətindən əsas etibarilə müstəqil olan, ayrılıqda müəyyən edilən bilən pul mədaxillərinin mövcud olduğu ən aşağı səviyyəni təmsil edir. Bu, adətən Qrup tərəfindən qeyri-maliyyə aktivlərinin coğrafi və ya lisenziya əsasında qiymətləndirilməsi ilə nəticələnir. Dağ-mədən və kəşfiyyat işlərinin aparılması hüquqları ilə bağlı xərclər dəyərsizləşmə təhlili aparılan müvafiq CGU-nun balans dəyərinə daxil edilir.

Qrupun əməliyyatlarının xüsusiyyətini nəzərə alaraq, potensial alıcılarla danışıqlar aparıldığı və ya oxşar əməliyyatlar həyata keçirildiyi hallar istisna olmaqla, aktivin ədalətli dəyəri haqqında məlumatın əldə edilməsi adətən çətin olur. Bundan irəli gələrək, bir çox CGU-lar üçün istifadə dəyəri CGU-nun genişləndirilməsi layihələri və sonradan satışı da daxil olmaqla, CGU-nun davam edən istifadəsindən əldə edilməsi gözlənilən diskont edilmiş gələcək qiymətləndirilmiş pul vəsaitlərinin hərəkəti əsasında (real qiymətlə ifadə edilmiş), bazara əsaslanan əmtəə qiyməti, qiymətləndirilmiş bərpa edilə bilən mineralların qiymətləndirilmiş həcmi, hasilat səviyyələri, əməliyyat xərcləri və kapital tələbləri istifadə etməklə, rəhbərliyin təsdiq etdiyi maliyyə büdcələri və mədənin son istismar planlarına əsasən qiymətləndirilir.

Bu pul axınları pulun zaman dəyərini və CGU üçün səciyyəvi olan riskləri əks etdirən vergidən sonrakı real diskont dərəcəsini istifadə etməklə diskontlaşdırılmışdır.

Bərpa edilə bilən mineralların həcmi, hasilat səviyyələri, əməliyyat xərcləri və kapital tələblərinin qiymətəndirmələri mədənin istismar planları, maliyyə büdcələri və CGU üçün xüsusi tədqiqat da daxil olmaqla, planlaşdırma prosesindən irəli gəlir.

31 dekabr 2023-cü il tarixinə rəhbərlik Cəmiyyətin aktivləri üzrə dəyərsizləşmə təhlili aparmış və müəyyən yataqlarda (Peydərə və Tutxun) kəşfiyyat və qiymətləndirmə aktivləri üzrə mədənlərin gələcək iqtisadi səmərəliliyinə dair qeyri-müəyyənlik kimi dəyərsizləşmə göstəricilərinin olduğunu müəyyən etmişdir. Nəticədə 175 min ABŞ dolları (2022: 3,582 min ABŞ dolları) məbləğində ümumi dəyərsizləşmə zərəri tanınmışdır (Qeyd 10). Bundan əlavə, dəyərsizləşmə təhlili nəticəsində Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsi CGU-nun bərpa edilə bilən dəyərinin onun xalis balans dəyərindən yüksək olmasına görə həmin CGU üzrə dağ-mədən işlərinin aparılması hüquqları (Qeyd 11) və əsas vəsaitlərlə bağlı əvvəlki dövrlər üzrə dəyərsizləşmə zərəri qaytarılmışdır. 2022-ci il ərzində dəyərsizləşmə zərərinin tanınması/qaytarılması baş verməmişdir. Təxmin edilən diskont dərəcəsi rəhbərliyin təxminlərindən 10% fərqlənsəydi, 31 dekabr 2023-cü il tarixində başa çatan il üzrə dəyərsizləşmə təhlilinin nəticələrinə heç bir mənfi təsiri olmazdı.

31 dekabr 2023-cü il tarixinə Filizçay və Daşkəsən Dəmir Filiz CGU-lar üzrə hər hansı dəyərsizləşmə zərəri tanınmamışdır (2022: hər hansı dəyərsizləşmə zərəri tanınmamışdır). Bərpa edilə bilən dəyərin hesablanması zamanı diskont dərəcəsi, əmtəə qiymətləri, satış həcmi və kapital məsrəfləri kimi əsas fərziyyələrdən istifadə olunmuşdur. Diskont dərəcəsi olaraq aktiv istehsal sahələri üçün 11.33% və qeyri-istehsal mədən sahələri üçün 12.1% Qrupun vergidən sonrakı kapitalının orta çəkili dəyəri (WACC) tətbiq edilmişdir. Təxmin edilən diskont dərəcəsi rəhbərliyin təxminlərindən 10% fərqlənsəydi, 31 dekabr 2023-cü il tarixində başa çatan il üzrə dəyərsizləşmə təhlilinin nəticələrinə heç bir mənfi təsiri olmazdı.

## 9 Əsas vəsaitlər (davamı)

Əsas vəsaitlərin balans dəyəri üzrə hərəkət aşağıdakı cədvəldə göstərilir:

| *Min ABŞ dolları ilə* | Avadanlıq və nəqliyyat vasitələri | Tikililər | İstehsal mədənləri | Tikilməkdə olan aktivlər | Digər | Cəmi |
|---|---|---|---|---|---|---|
| **1 yanvar 2022-ci il tarixinə ilkin dəyər** | **5,933** | **2,201** | **79,813** | **6,099** | **2,219** | **96,265** |
| Əlavələr | 200 | 148 | 23,297 | 80,164 | 1,697 | 105,506 |
| Silinmələr | (203) | - | - | - | - | (203) |
| Kəşfiyyat və qiymətləndirmə aktivlərindən köçürmələr | - | - | - | 6,636 | - | 6,636 |
| Tikilməkdə olan aktivlərdən köçürmələr | - | - | 4,733 | (4,733) | - | - |
| **31 dekabr 2022-ci il tarixinə ilkin dəyər** | **5,930** | **2,349** | **107,843** | **88,166** | **3,916** | **208,204** |
| Əlavələr | 1,475 | 247 | 14,994 | 69,163 | 1,571 | 87,450 |
| Silinmələr | (52) | (589) | (15,597) | - | - | (16,238) |
| Kəşfiyyat və qiymətləndirmə aktivlərindən köçürmələr | - | - | - | 20,056 | - | 20,056 |
| Tikilməkdə olan aktivlərdən köçürmələr | - | 21 | 144,756 | (144,777) | - | - |
| **31 dekabr 2023-cü il tarixinə ilkin dəyər** | **7,353** | **2,028** | **251,996** | **32,608** | **5,487** | **299,472** |
| **1 yanvar 2022-ci il tarixinə yığılmış amortizasiya və tükənmə** | **(2,120)** | **(1,045)** | **(48,629)** | **-** | **(894)** | **(52,688)** |
| Amortizasiya və tükənmə xərci | (1,153) | (103) | (9,946) | - | (508) | (11,710) |
| 2022-ci il üzrə silinmiş aktivlər üzrə yığılmış amortizasiya | 51 | - | - | - | - | 51 |
| **31 dekabr 2022-ci il tarixinə yığılmış amortizasiya və tükənmə** | **(3,222)** | **(1,148)** | **(58,575)** | **-** | **(1,402)** | **(64,347)** |
| Amortizasiya və tükənmə xərci | (1,293) | (209) | (29,887) | - | (516) | (31,905) |
| Silinmiş aktivlər üzrə yığılmış amortizasiya | 22 | 92 | 15,597 | - | - | 15,711 |
| Kəşfiyyat və qiymətləndirmə aktivlərindən köçürmələr – Yığılmış dəyərsizləşmə | - | - | (949) | (87) | - | (1,036) |
| Mənfəət və ya zərər hesabına dəyərsizləşmənin qaytarılması | 53 | 899 | 8,237 | 87 | - | 9,276 |
| Yığılmış dəyərsizləşmədən yığılmış amortizasiyaya köçürmə | (27) | (141) | (1,971) | - | - | (2,139) |
| **31 dekabr 2023-cü il tarixinə yığılmış amortizasiya və tükənmə** | **(4,466)** | **(508)** | **(67,548)** | **-** | **(1,918)** | **(74,440)** |
| **31 dekabr 2022-ci il tarixinə balans dəyəri** | **2,708** | **1,201** | **49,268** | **88,166** | **2,514** | **143,857** |
| **31 dekabr 2023-cü il tarixinə balans dəyəri** | **2,886** | **1,520** | **184,448** | **32,608** | **3,569** | **225,032** |

## 9 Əsas vəsaitlər (davamı)

Dəyərsizləşmənin qiymətləndirilməsi nəticəsində Çovdar İnteqrəolunmuş CGU üzrə dağ-mədən işlərinin aparılması hüquqları (Qeyd 11) və əsas vəsaitlər üzrə müvafiq olaraq 4,225 min ABŞ dolları və 6,353 min ABŞ dolları olmaqla, əvvəlki dövrlər üzrə ümumilikdə tanınmış 10,578 min ABŞ dolları məbləğində dəyərsizləşmə zərəri qaytarılmışdır. Çovdar İnteqrəolunmuş CGU ilə bağlı əsas vəsaitlər üzrə qaytarılmış dəyərsizləşmə zərərinin məbləği yuxarıdakı cədvəldə göstərildiyi kimi, müvafiq olaraq 8,237 min ABŞ dolları, 87 min ABŞ dolları və (1,971) min ABŞ dolları məbləğində istehsal mədənləri və tikilməkdə olan aktivlər üzrə "Mənfəət və ya zərər hesabına dəyərsizləşmənin qaytarılması" və istehsal mədənləri üzrə "Yığılmış dəyərsizləşmədən yığılmış amortizasiyaya köçürmə" sətirlərinin cəmini əks etdirir. Çovdar İnteqrəolunmuş CGU ilə bağlı qeyri-maddi aktivlər üzrə qaytarılmış dəyərsizləşmə zərərinin məbləği müvafiq olaraq 5,927 min ABŞ dolları və (1,702) min ABŞ dolları məbləğində dağ-mədən işlərinin aparılması hüquqları üzrə "Mənfəət və ya zərər hesabına dəyərsizləşmənin qaytarılması" və "Yığılmış dəyərsizləşmədən yığılmış amortizasiyaya köçürmə" sətirlərinin (Qeyd 11) cəmini əks etdirir.

Çovdar İnteqəolunmuş CGU-ya daxil olan digər mədənlərdə qızıl hasilatı daha əlverişli olduğundan, Mərəh yatağında mədən əməliyyatları cari iqtisadi qiymətləndirməyə əsasən müvəqqəti olaraq dayandırılmışdır. Gələcəkdə Mərəh yatağında mədən əməliyyatları davam etdiriləcək.

2021-ci ildə 963 min ABŞ dolları məbləğində aktivlər yararsız vəziyyətdə olduğuna görə dəyərsizləşmişdir. 31 iyul 2023-cü il tarixində "AzerGold" QSC-nin 100% törəmə müəssisəsi olan "Daşkəsən Dəmir Filiz" MMC həmin dəyərsizləşmiş aktivlərin demontajı və onlardan hasil edilən qara metalların satışı üçün podratçı ilə 12 sentyabr 2024-cü il tarixinədək müqavilə bağlamışdır. Bu müqaviləyə əsasən Qrup BMS 36 "Aktivlərin dəyərsizləşməsi" standartına uyğun olaraq əvvəlki dövrlərin dəyərsizləşməsini qaytarmışdır. Aktivlər istehsal vahidi metodu ilə silinir və silinmiş aktivlərin balans dəyəri ilə satışdan əldə olunan gəlirlər arasındakı fərq nəticəsində yaranan hər hansı gəlir və ya zərər "sair gəlirlər" kimi tanınır (Qeyd 26).

2023-cü il ərzində ilkin tikinti dəyəri 118,801 min ABŞ dolları olan Çəndə Qələvilləşdirmə Zavodu sulfid filizindən istifadə etməklə ərinti məhsulunun istehsalı üçün fəaliyyətə başlamışdır. 31 dekabr 2023-cü il tarixinə zavodun xalis qalıq dəyəri 104,558 min ABŞ dolları təşkil edir.

## 10 Kəşfiyyat və qiymətləndirmə aktivləri

### *Mühüm mühasibat uçotu prinsipi*

***Kəşfiyyat və qiymətləndirmə aktivləri.*** Lisenziyanın alınmasından əvvəlki xərclər Cəmiyyətin xüsusi ərazidə kəşfiyyat işlərini aparmaq hüququnu əldə etdikdən öncə çəkilmiş xərclərə aiddir. Bu cür xərclərə kəşfiyyat məlumatının əldə edilməsi və bu məlumatın təhlili ilə bağlı xərclər daxil ola bilər. Bu cür xərclər çəkildiyi dövrdə xərcə silinir.

Perspektiv obyektlərin və kəşfiyyat hüquqlarının əldə edilməsi üzrə məsrəfləri və kəşfiyyat və qiymətləndirmə əməliyyatlarında çəkilmiş xərcləri daxil edən kəşfiyyat obyektləri və icarələri üzrə məsrəflər kəşfiyyat və qiymətləndirmə aktivləri kimi kapitallaşdırılır.

Kəşfiyyat və qiymətləndirmə fəaliyyəti aşağıdakıları əhatə edir:

- Tarixi kəşfiyyat məlumatlarının öyrənilməsi və təhlili;
- Geofiziki tədqiqat vasitəsilə kəşfiyyat məlumatlarının toplanması;
- Qazma prosesinin tədqiqi və nümunə götürülməsi;
- Ehtiyatların keyfiyyətinin və həcminin müəyyən edilməsi və tədqiqi;
- Nəqliyyat və infrastruktur tələblərinin təhlili;
- Dağ-mədən və maliyyə tədqiqatının aparılması.

Kəşfiyyat və qiymətləndirmə aktivləri kəşfiyyat və qiymətləndirmə mərhələsində gələcək dövrlərə keçirilir və kommersiya ehtiyatlarının müəyyən edilənə qədər və ya müəyyənləşdirmə prosesi başa çatana qədər silinir.

Kəşfiyyat və qiymətləndirmə aktivlərinin dəyərsizləşmə üzrə qiymətləndirilməsi BMHS 6 "Mineral resursların işlənməsi və qiymətləndirilməsi" standartında nəzərdə tutulan dəyərsizləşmə göstəricilərinə uyğun olaraq aparılır. Kəşfiyyat və qiymətləndirmə mərhələsində amortizasiya xərci hesablanmır.

Kommersiya baxımından effektiv ehtiyatlar müəyyən edildikdən və onların işlənilməsinə razılıq verildikdən sonra kəşfiyyat və qiymətləndirmə aktivləri dəyərsizləşmə üzrə sınaqdan keçirilir və əsas vəsaitlərin tərkibində tikilməkdə olan aktivlərə köçürülür.

## 10 Kəşfiyyat və qiymətləndirmə aktivləri (davamı)

Kəşfiyyat və qiymətləndirmə üzrə kapitallaşdırılmış məsrəflər üçün hər bir hesabat tarixində əvvəlki dövrdə tanınmış dəyərsizləşmə zərərlərinin artıq mövcud olmaması və ya azalmasının hər hansı əlamətinin olub-olmamasını müəyyənləşdirmək üçün qiymətləndirmə aparılır. Bu cür əlamət mövcud olduqda, Cəmiyyət bərpa edilə bilən məbləği hesablayır.

Kəşfiyyat və qiymətləndirmə üzrə məsrəflər tikilməkdə olan aktivlərə köçürüldükdən sonra, tikili, quraşdırılma və infrastruktur obyektlərinin tamamlanması üzrə bütün məsrəflər tikilməkdə olan aktivlər daxilində kapitallaşdırılır.

***Kəşfiyyat və qiymətləndirmə aktivlərinin dəyərsizləşməsi.*** Hər bir hesabat dövründə Cəmiyyət pul vəsaitləri yaradan vahid ("CGU") daxilində aktivin və ya aktivlər qrupunun dəyərsizləşməsinə dair əlamətin olub-olmadığını qiymətləndirir. Dəyərsizləşmə əlaməti mövcud olduqda, Cəmiyyət CGU-nun bərpa edilə bilən dəyərini hesablayır və onu CGU-nun balans dəyəri ilə müqayisə edir. CGU-nun bərpa edilə bilən dəyəri onun satış məsrəfləri çıxılmaqla ədalətli dəyəri və istifadə dəyərindən daha yüksək olan dəyəridir.

Aktivin balans dəyəri onun bərpa edilə bilən dəyərindən artıq olarsa, dəyərsizləşmə zərəri dövr ərzində konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda tanınır. İstifadə dəyərini müəyyən edərkən proqnozlaşdırılan gələcək pul axınları pulun zaman dəyərinin cari bazar qiymətləndirməsini və aktivlərə xas olan riskləri əks etdirən vergidən əvvəlki diskont dərəcəsindən istifadə etməklə diskontlaşdırılır. Pul axınları CGU-nun sonradan satışı da daxil olmaqla, onun davam edən istifadəsindən əldə edilməsi gözlənilən diskont edilmiş gələcək pul axınlarının ən dəqiq təxminlərinə əsaslanır.

Əvvəllər tanınmış dəyərsizləşmə zərərinin artıq mövcud olmaması və ya azalmasına dair əlamətlər olduqda, dəyərsizləşmənin qaytarılması hər bir hesabat dövründə qiymətləndirilir. Dəyərsizləşmənin qaytarılması əlamətləri mövcud olduqda, bərpa edilə bilən dəyər hesablanır. Bərpa edilə bilən dəyər balans dəyərindən artıq olarsa, CGU-nun balans dəyəri amortizasiya çıxılmaqla oun bərpa edilə bilən dəyərinə qədər artırılır. Artırılmış balans dəyəri əvvəlki illərdə CGU üzrə heç bir dəyərsizləşmə zərəri tanınmayacağı halda müəyyən ediləcək balans dəyərindən artıq ola bilməz. Dəyərsizləşmə zərərinin qaytarılması onun müəyyən edildiyi dövrdə konsolidasiya edilmiş edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda gəlir kimi tanınır.

***Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr***

***Hasilatın başlanma tarixi.*** Cəmiyyət hər bir işlənən/tamamlanmamış mədənin mərhələsini onun nə vaxt hasilat mərhələsinə keçəcəyini təyin etmək üçün qiymətləndirir. Bu, mədən əsasən tamamlanmış və təyinatı üzrə istifadə olunması üçün hazır olduğu zaman baş verir. Başlanma tarixinin qiymətləndirilməsi üçün istifadə edilən meyarlar hər bir işlənən/tamamlanmamış mədən layihəsinin spesifik xüsusiyyəti, məsələn layihənin mürəkkəbliyi və onun yerləşmə ərazisi əsasında müəyyənləşir. Cəmiyyət hasilat mərhələsinin nə vaxt başlanmış hesab ediləcəyini qiymətləndirmək məqsədilə, müxtəlif münasib meyarları nəzərdən keçirir. Bu mərhələdə bütün əlaqəli məbləğlər "Tikilməkdə olan aktivlər"-dən "İstehsal mədənləri" kateqoriyasına yenidən təsnifləşdirilir. Hasilatın başlanma tarixini müəyyən etmək üçün istifadə edilən bəzi meyarlar aşağıdakılardır, lakin bunlarla məhdudlaşmır:

- Faktiki çəkilmiş kapital xərclərinin ilkin ehtimal olunan tikinti xərcləri ilə müqayisəsi;
- Mədən obyekti və avadanlığın ağlabatan müddət ərzində sınaqdan keçirilməsinin tamamlanması;
- Satıla bilən formada (spesifikasiyalara uyğun) metal istehsal etmək qabiliyyəti;
- Davamlı şəkildə metal istehsalını aparmaq qabiliyyəti.

Mədənin işlənməsi layihəsi hasilat mərhələsinə keçdikdə, mədənin işlənməsi ilə bağlı müəyyən xərclərin kapitallaşdırılması dayandırılır və mədən aktivlərinə əlavələr və ya bunların təkmilləşdirilməsi, yeraltı mədənin işlənməsi və ya istehsal ehtiyatlarının işlənməsi ilə bağlı kapitallaşdırılmaya uyğun olan xərclər istisna olmaqla, xərclər mal-material ehtiyatlarının dəyərinin bir hissəsi hesab edilir və ya xərclərə silinir. Bundan əlavə, bu mərhələdə köhnəlmə/amortizasiyanın hesablanması başlayır.

***Filiz ehtiyatları və mineral resurslar.*** Ətraflı məlumat üçün Qeyd 9-a baxın.

***Aktivlərin CGU-lar üzrə qruplaşdırılması.*** Ətraflı məlumat üçün Qeyd 9-a baxın.

***Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi.*** Ətraflı məlumat üçün Qeyd 9-a baxın.

## 10 Kəşfiyyat və qiymətləndirmə aktivləri (davamı)

31 dekabr 2023-cü il tarixinə kəşfiyyat və qiymətləndirmə aktivlərinin balans dəyəri üzrə hərəkət aşağıdakı cədvəldə göstərilir:

| *Min ABŞ dolları ilə* | Çovdar İnteqrəolunmuş | Filizçay | Göydağ | Peydərə | Ortakənd | Tutxun | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **1 yanvar 2023-cü il tarixinə ilkin qalıq** | **19,023** | **9,519** | **955** | **-** | **5,270** | **-** | **34,767** |
| Əlavələr | 1,516 | 702 | 822 | 5 | 400 | 170 | 3,615 |
| Kəşfiyyat və qiymətləndirmə aktivlərindən əsas vəsaitlərə köçürmələr | (19,020) | - | - | - | - | - | (19,020) |
| Mənfəət və ya zərərə silinmiş dəyərsizləşmə xərci | - | - | - | (5) | - | (170) | (175) |
| **31 dekabr 2023-cü il tarixinə yekun qalıq** | **1,519** | **10,221** | **1,777** | **-** | **5,670** | **-** | **19,187** |

31 dekabr 2022-ci il tarixinə kəşfiyyat və qiymətləndirmə aktivlərinin balans dəyəri üzrə hərəkət aşağıdakı cədvəldə göstərilir.

| *Min ABŞ dolları ilə* | Çovdar İnteqrə-olunmuş | Filizçay | Mazımçay | Göydağ | Qaradağ | Xarxar | Daşkəsən Dəmir | Nərimanlar | Peydərə | Çaykənd | Ortakənd | Dağkəsə-mən | Tutxun | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **1 yanvar 2022-ci il tarixinə ilkin qalıq** | **4,020** | **6,793** | **-** | **-** | **1,620** | **255** | **6,299** | **-** | **-** | **-** | **-** | **-** | **-** | **18,987** |
| Əlavələr | 15,003 | 2,726 | 6 | 955 | 6 | - | 337 | 219 | 1,909 | 1,269 | 5,270 | 32 | 147 | 27,879 |
| Silinmələr | - | - | - | - | (1,626) | (255) | - | - | - | - | - | | - | (1,881) |
| Kəşfiyyat və qiymətləndirmə aktivlərindən əsas vəsaitlərə köçürmələr | - | - | - | - | - | - | (6,636) | - | - | - | - | - | - | (6,636) |
| Mənfəət və ya zərərə silinmiş dəyərsizləşmə xərci | - | - | (6) | - | - | - | - | (219) | (1,909) | (1,269) | - | (32) | (147) | (3,582) |
| **31 dekabr 2022-ci il tarixinə yekun qalıq** | **19,023** | **9,519** | **-** | **955** | **-** | **-** | **-** | **-** | **-** | **-** | **5,270** | **-** | **-** | **34,767** |

## 10 Kəşfiyyat və qiymətləndirmə aktivləri (davamı)

Kəşfiyyat xərclərinə 31 dekabr 2023 və 2022-ci il tarixlərində başa çatan illər ərzində axtarış və qazma işlərinə çəkilən xərclər, eləcə də ilkin layihə və ilkin texniki-iqtisadi tədqiqatlar üçün podratçılara ödənişlər daxildir.

Cəmiyyət kəşfiyyat və qiymətləndirmə aktivləri üzrə dəyərsizləşmə təhlili aparmış və 31 dekabr 2023-cü il tarixində başa çatan il üzrə fərdi qiymətləndirmə əsasında 175 min ABŞ dolları (2022: 3,582 min ABŞ dolları) məbləğində dəyərsizləşmə zərəri tanımışdır. Dəyərsizləşmə CGU-ların ilkin texniki-iqtisadi əsaslandırma mərhələsində olması və ehtiyatlara dair heç bir sübutun olmamasına görə tanınmışdır.

## 11 Qeyri-maddi aktivlər

***Mühüm mühasibat uçotu prinsipi***

***Qeyri-maddi aktivlər.*** Qrupun qeyri-maddi aktivləri müəyyən edilmiş faydalı istifadə müddətinə malik olub, əsasən kapitallaşdırılmış proqram təminatından ibarətdir. Proqram təminatı üzrə əldə edilmiş lisenziyalar onların alınması və tətbiq edilməsi üçün çəkilmiş xərclərin əsasında kapitallaşdırılır.

Qeyri-maddi aktivlər onların faydalı istifadə müddəti (dörd il) ərzində düz xətt metodu ilə amortizasiya edilir.

***Dağ-mədən və kəşfiyyat işlərinin aparılması hüquqları.*** HPBS-ə uyğun olaraq, Cəmiyyət əvvəlki podratçılardan dağ-mədən və kəşfiyyat işlərinin aparılması hüququnu özündə ehtiva edən aktivlər qrupu satın almışdır.

Dağ-mədən və kəşfiyyat işlərinin aparılması hüquqları ilkin olaraq maya dəyərində tanınır. Maya dəyəri aktivlər qrupunun əldəolunma xərclərini dağ-mədən və kəşfiyyat işlərinin aparılması hüquqlarına (əldəetmə tarixində onların nisbi ədalətli dəyərinə əsasən) bölüşdürməklə müəyyən edilmişdir.

Dağ-mədən işlərinin aparılması hüquqları potensial mineral ehtiyatların və yığılmış tükənmənin qiymətləndirilməsindən irəli gələn dəyərsizləşmə üçün ehtiyat çıxılmaqla, maya dəyərində uçota alınır. Kəşfiyyat işlərinin aparılması hüquqları dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla, maya dəyərində uçota alınır. Kəşfiyyat işlərinin aparılması hüquqları tükənməyə silinmir. Dağ-mədən işlərinin aparılması hüquqları müvafiq sahənin cəmi ehtiyatları üzrə istehsal vahidi əsasında tükənməyə silinir. Tükənmə müvafiq sahənin istehsal mərhələsinə start verildikdə başlayır.

Cəmiyyət dağ-mədən və kəşfiyyat işlərinin aparılması hüququnun bərpa dəyərinin müəyyənləşdirilməsi üçün pul axınlarının diskontlaşdırılması modelini tətbiq etmişdir və mədənlər üzrə gözlənilən gələcək pul axınlarını mədənlərin xidmət müddəti planlarına əsasən hesablamışdır. Gözlənilən gələcək pul axınları əldə olunma tarixinə mədənin xidmət müddəti planını istifadə edərək gələcək hasilatın, əmtəə qiymətlərinin, əməliyyat məsrəflərinin və əsaslı məsrəflər üzrə proqnozların hesablanmasına əsaslanır.

***Qeyri-maddi aktivlərin dəyərsizləşməsi.*** Qeyri-müəyyən faydalı istifadə müddəti olan və ya istifadəyə hazır olmayan qeyri-maddi aktivlər üçün amortizasiya hesablanmır və hər il dəyərsizləşmə üzrə təhlil edilir. Amortizasiya hesablanan əsas vəsaitlər və qeyri-maddi aktivlər balans dəyərinin bərpa edilə bilmədiyini göstərən hadisə və ya şərait dəyişiklikləri baş verdikdə dəyərsizləşməyə görə təhlil edilir. Dəyərsizləşmə zərəri aktivin balans dəyərinin onun bərpa edilə bilən dəyərindən artıq olan məbləğdə tanınır. Aktivin bərpa edilə bilən dəyəri onun ədalətli dəyəri və satış üzrə məsrəfləri çıxılmaqla istifadə dəyərindən daha yüksək olan dəyəridir. Dəyərsizləşməni müəyyən etmək üçün aktivlər əhəmiyyətli dərəcədə sərbəst pul vəsaitləri yaradan ən kiçik aktivlər (pul vəsaiti yaradan vahidlər) üzrə qruplaşdırılır. Qeyri-maliyyə aktivlərinin əvvəlki dövrlərdə dəyərsizləşməsinin qaytarılma ehtimalı hər bir hesabat tarixində təhlil edilir.

***Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr***

***Aktivlərin CGU-lar üzrə qruplaşdırılması.*** Ətraflı məlumat üçün Qeyd 9-a baxın.

***Filiz ehtiyatları və mineral resurslar.*** Ətraflı məlumat üçün Qeyd 9-a baxın.

***Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi.*** Ətraflı məlumat üçün Qeyd 9-a baxın.

## 11 Qeyri-maddi aktivlər (davamı)

| *Min ABŞ dolları ilə* | Dağ-mədən işlərinin aparılması hüquqları | Kəşfiyyat işlərinin aparılması hüquqları | Digər qeyri-maddi aktivlər | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2022-ci il tarixinə ilkin dəyər** | **74,701** | **20,703** | **700** | **96,104** |
| Əlavələr | - | - | 358 | 358 |
| **31 dekabr 2022-ci il tarixinə ilkin dəyər** | **74,701** | **20,703** | **1,058** | **96,462** |
| Əlavələr | - | - | 352 | 352 |
| **31 dekabr 2023-cü il tarixinə ilkin dəyər** | **74,701** | **20,703** | **1,410** | **96,814** |
| **1 yanvar 2022-ci il tarixinə yığılmış amortizasiya və tükənmə xərcləri** | **(51,717)** | **-** | **(343)** | **(52,060)** |
| Amortizasiya və tükənmə xərcləri | (3,746) | - | (178) | (3,924) |
| **31 dekabr 2022-ci il tarixinə yığılmış amortizasiya və tükənmə xərcləri** | **(55,463)** | **-** | **(521)** | **(55,984)** |
| Amortizasiya və tükənmə xərcləri | (2,854) | - | (183) | (3,037) |
| Yığılmış dəyərsizləşmədən yığılmış amortizasiyaya köçürmə | (1,702) | - | - | (1,702) |
| Mənfəət və ya zərər hesabına dəyərsizləşmənin qaytarılması | 5,927 | - | - | 5,927 |
| **31 dekabr 2023-cü il tarixinə yığılmış amortizasiya və tükənmə xərcləri** | **(54,092)** | **-** | **(704)** | **(54,796)** |
| **31 dekabr 2022-ci il tarixinə balans dəyəri** | **19,238** | **20,703** | **537** | **40,478** |
| **31 dekabr 2023-cü il tarixinə balans dəyəri** | **20,609** | **20,703** | **706** | **42,018** |

Dəyərsizləşmənin qiymətləndirilməsi nəticəsində Çovdar İnteqrəolunmuş CGU üzrə dağ-mədən işlərinin aparılması hüquqları (Qeyd 11) və əsas vəsaitlər üzrə müvafiq olaraq 4,225 min ABŞ dolları və 6,353 min ABŞ dolları olmaqla, əvvəlki dövrlər üzrə ümumilikdə tanınmış 10,578 min ABŞ dolları məbləğində dəyərsizləşmə zərəri qaytarılmışdır. Çovdar İnteqrəolunmuş CGU ilə bağlı əsas vəsaitlər üzrə qaytarılmış dəyərsizləşmə zərərinin məbləği müvafiq olaraq 8,237 min ABŞ dolları, 87 min ABŞ dolları və (1,971) min ABŞ dolları məbləğində istehsal mədənləri və tikilməkdə olan aktivlər üzrə "Mənfəət və ya zərər hesabına dəyərsizləşmənin qaytarılması" və istehsal mədənləri üzrə "Yığılmış dəyərsizləşmədən yığılmış amortizasiyaya köçürmə" sətirlərinin (Qeyd 9) cəmini əks etdirir. Çovdar İnteqrəolunmuş CGU ilə bağlı qeyri-maddi aktivlər üzrə qaytarılmış dəyərsizləşmə məbləği yuxarıdakı cədvəldə göstərildiyi kimi, müvafiq olaraq 5,927 min ABŞ dolları və (1,702) min ABŞ dolları məbləğində dağ-mədən işlərinin aparılması hüquqları üzrə "Mənfəət və ya zərər hesabına dəyərsizləşmənin qaytarılması" və "Yığılmış dəyərsizləşmədən yığılmış amortizasiyaya köçürmə" sətirlərinin cəmini əks etdirir.

8 avqust 2016-cı il tarixində HPBS-ə xitam verildikdən sonra, Cəmiyyət Çovdar Oksid yatağında kəşfiyyat və hasilat işlərinin aparılması üçün ETSN-dən 5 il müddətinə icazə almışdır.

Köhnəmədən sahəsi üzrə (Filizçay-Katsdağ filiz qovşağı) dekabr 2018 - dekabr 2022-ci illər ərzində Cəmiyyət tərəfindən yer təkinin geoloji öyrənilməsi məqsədilə istifadəyə verilən yer təki sahələri və onlarla əlaqədar işlərin siyahısı AR ETSN tərəfindən 06 noyabr 2018-ci il tarixdə dövlət qeydiyyatına alınmışdır. Cəmiyyətin sorğusuna və ETSN-in dekabr 2022-ci il tarixli icazə məktubuna əsasən bu müddət 2025-ci ilin 4-cü rübünə qədər uzadılmışdır.

## 11 Qeyri-maddi aktivlər (davamı)

Çovdar sahəsi üzrə iyun 2017 - may 2021-ci illər ərzində Cəmiyyət tərəfindən yer təkinin geoloji öyrənilməsi məqsədilə istifadəyə verilən yer təki sahələri və onlarla əlaqədar işlərin siyahısı AR ETSN tərəfindən 19 iyun 2017-ci il tarixdə dövlət qeydiyyatına alınmışdır. Cəmiyyətin müraciəti və AR ETSN-in 29 aprel 2021-ci il tarixli razılıq məktubu ilə bu müddət 4-cü rüb 2025-ci il tarixinədək uzadılmışdır.

Cəmiyyətin sorğusuna və ETSN-in 6 dekabr 2021-ci il tarixli icazə məktubuna əsasən bu müddət 6 dekabr 2030-cu ilə qədər uzadılmışdır.

Qaradağ sahəsi üzrə iyul 2020 - oktyabr 2023-cü illər ərzində Cəmiyyət tərəfindən yer təkinin geoloji öyrənilməsi məqsədilə istifadəyə verilən yer təki sahələri və onlarla əlaqədar işlərin siyahısı AR ETSN tərəfindən 31 mart 2020-ci il tarixində dövlət qeydiyyatına alınmışdır. Həmin mədən yatağı 2022-ci il ərzində satılmışdır.

Göydağ sahəsi üzrə (Ortakənd-Xanağa) may 2018 – may 2020-ci illər ərzində Cəmiyyət tərəfindən yer təkinin geoloji öyrənilməsi məqsədilə istifadəyə verilən yer təki sahələri və onlarla əlaqədar işlərin siyahısı AR ETSN tərəfindən 28 mart 2018-ci il tarixində dövlət qeydiyyatına alınmışdır. Cəmiyyətin müraciəti və AR ETSN-in 29 aprel 2021-ci il tarixli razılıq məktubu ilə bu müddət 4-cü rüb 2025-ci il tarixinədək uzadılmışdır.

Daşkəsən Dəmir qrupu yataqları üzrə avqust 2020 – avqust 2022-ci illər ərzində Cəmiyyət tərəfindən yer təkinin geoloji öyrənilməsi məqsədilə istifadəyə verilən yer təki sahələri və onlarla əlaqədar işlərin siyahısı AR ETSN tərəfindən 17 avqust 2020-ci il tarixində dövlət qeydiyyatına alınmışdır. Cəmiyyətin sorğusuna və ETSN-in 20 dekabr 2022-ci il tarixli icazə məktubuna əsasən bu müddət 2027-ci ilin dekabr ayına qədər uzadılmışdır.

Quytul, Cavadxan və Çıraqlı yataqları üzrə 31 may 2023 – 6 dekabr 2030-cu il tarixləri ərzində Cəmiyyət tərəfindən yer təkinin geoloji öyrənilməsi məqsədilə istifadəyə verilən yer təki sahələri və onlarla əlaqədar işlərin siyahısı AR ETSN tərəfindən 31 may 2023-cü il tarixində dövlət qeydiyyatına alınmışdır.

2023-cü il ərzində aparılmış dəyərsizləşmə təhlili nəticəsində Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsi CGU üzrə 4,225 min ABŞ dolları məbləğində dəyərsizləşmə zərəri qaytarılmış (2022: dəyərsizləşmə zərəri tanınmamışdır) və "Filizçay CGU" üzrə heç bir dəyərsizləşmə zərəri tanınmamışdır (2022: dəyərsizləşmə zərəri tanınmamışdır). Qeyd 4-ə baxın.

## 12 İstifadə hüquqlu aktivlər və icarə öhdəlikləri

### *Mühüm mühasibat uçotu prinsipi*

***İstifadə hüquqlu aktivlər.*** Qrup müxtəlif ofis binaları, anbarlar və mənzillər icarəyə götürür.

İcarə müqavilesi üzrə yaranan aktivlər ilkin olaraq cari dəyərlə qiymətləndirilir. İstifadə hüquqlu aktivlər aşağıdakılar nəzərə alınmaqla, ilkin dəyərlə qiymətləndirilir:

- icarə öhdəliyinin ilkin qiymətləndirmə məbləği;
- icarə üzrə həvəsləndirici ödənişlər çıxılmaqla, icarə müqaviləsinin başlanma tarixindən əvvəl aparılmış bütün icarə ödənişləri;
- bütün ilkin birbaşa xərclər, və
- aktivin icarə müqaviləsinin şərtlərinə görə tələb olunan vəziyyətə qaytarılması xərcləri.

İstifadə hüquqlu aktivlər adətən onların faydalı istifadə və ya icarə müddəti ərzində (bu müddətlərdən hansı daha tez başa çatarsa) düz xətt metodu ilə amortizasiya edilir. İstifadə hüquqlu aktivlərin amortizasiyası onların təxmin edilən faydalı istifadə müddəti ərzində düz xətt metodu ilə aşağıdakı kimi hesablanır:

| | Faydalı istifadə müddəti |
|---|---|
| Ofis binaları | 3 - 6 il |
| Anbarlar | 3 - 5 il |
| Mənzillər | 3 - 5 il |

## 12 İstifadə hüquqlu aktivlər və icarə öhdəlikləri (davamı)

***İcarə öhdəlikləri.*** İcarə müqaviləsi üzrə yaranan öhdəliklər ilkin olaraq cari dəyərlə qiymətləndirilir. İcarə öhdəliklərinə aşağıdakı icarə ödənişlərinin xalis cari dəyəri daxildir:

- icarə üzrə alınacaq həvəsləndirici ödənişlər çıxılmaqla, sabit ödənişlər (mahiyyətcə sabit ödənişlər daxil olmaqla);
- ilkin olaraq icarə müddətinin başlanma tarixinə mövcud olan indeks və ya dərəcələrdən istifadə etməklə qiymətləndirilən indeks və ya dərəcələrdən asılı olan dəyişkən icarə ödənişləri;
- zəmanətli son qalıq dəyəri üzrə ödənilməsi gözlənilən məbləğlər;
- Qrupun əsaslı şəkildə əmin olduğu halda alış imkanının istifadə ediləcəyi qiyməti, və
- icarə müddəti ərzində Qrup icarəni ləğvetmə imkanını istifadə edərsə, icarənin ləğv edilməsi ilə bağlı cərimə ödənişləri.

İcarə müddətinin uzadılması və ləğv edilməsi imkanları Qrupun bir sıra icarə müqavilələrində nəzərdə tutulur. Bu şərtlər Qrupun fəaliyyətində istifadə etdiyi aktivlərin idarə edilməsində əməliyyat çevikliyinin artırılması məqsədilə tətbiq edilir. İcarə müddətinin uzadılması və ləğv edilməsi imkanlarının böyük hissəsi müvafiq icarəyə verən tərəfindən deyil, yalnız Qrup tərəfindən icra edilə bilər.

İcarə müddətinin uzadılması imkanı (və ya icarənin ləğv edilməsi imkanının istifadə müddətindən sonrakı dövrlərin) yalnız müqavilənin müddətinin uzadılacağına (və ya ləğv edilməyəcəyinə) əsaslı şəkildə əminlik olduqda, icarə müddətinə daxil edilir. İcarə müddətinin uzadılmasına dair əsaslı əminlik olduğu halda, uzadılma imkanının istifadəsi ilə bağlı aparılacaq icarə ödənişləri də öhdəliyin qiymətləndirilməsinə daxil edilir.

İcarə ödənişləri icarə müqaviləsində nəzərdə tutulan faiz dərəcəsi ilə diskontlaşdırılır. Bu faiz dərəcəsinin müəyyən edilməsi mümkün olmadıqda (bu, adətən Qrupun icarə müqavilələri ilə bağlı baş verir), Qrupun borc kapitalı üzrə artan faiz dərəcəsi istifadə edilir. Borc kapitalı üzrə artan faiz dərəcəsi Qrupun istifadə hüquqlu aktivin dəyərinə bərabər dəyərdə aktiv əldə etməsi üçün oxşar iqtisadi mühitdə eyni müddət, təminat və şərtlərlə zəruri olan vəsaitlərin cəlb edilməsi zamanı ödəməli olduğu faiz dərəcəsidir.

Borc kapitalı üzrə artan faiz dərəcəsini müəyyən etmək üçün Qrup:

- mümkün olduqda, üçüncü tərəfdən əldə etdiyi son maliyyələşdirməni ilkin məlumat kimi istifadə edir və üçüncü tərəfdən maliyyələşdirmənin əldə edildiyi dövrdən onun şərtlərindəki dəyişiklikləri nəzərə alaraq ona düzəliş edir,
- kredit riskinə uyğun düzəliş edilmiş risksiz faiz dərəcəsindən başlayan toplama yanaşmasından istifadə edir, və
- icarə müqaviləsinin xüsusiyyəltərinə (məs.: icarə müddəti, ölkəsi, valyutası və təminatı) uyğun düzəlişlər edir.

İcarə ödənişləri əsas və maliyyə xərclərinə ayrılır. Maliyyə xərcləri hər bir dövr üçün öhdəliyin qalığı üzrə daimi olaraq müntəzəm faiz dərəcəsini təmin etmək üçün ümumi icarə müddətində mənfəət və ya zərərdə tanınır.

### *Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr*

***İcarə müddətinin uzadılması və ləğv edilməsi imkanları.*** Əsas vəsaitlərin icarəsi ilə bağlı Qrupun bir sıra müqavilələrində icarə müddətinin uzadılması və ləğv edilməsi imkanları nəzərdə tutulur. Bu imkanlar Qrupun fəaliyyətində istifadə olunan aktivlərin idarə edilməsində əməliyyat çevikliyinin artırılması məqsədilə tətbiq edilir. İcarə müddətinin uzadılması və ləğv edilməsi imkanlarının böyük hissəsi müvafiq icarəyə verən tərəfindən deyil, yalnız Qrup tərəfindən icra edilə bilər.

İcarə müddətini müəyyən edərkən rəhbərlik icarənin uzadılması və ya ləğv edilməsi imkanlarının istifadəsi üçün iqtisadi stimul yaradan bütün fakt və şəraiti nəzərə alır. İcarənin uzadılması imkanı (və ya icarənin ləğv edilməsi imkanının istifadəsi müddətindən sonrakı dövrlərin) yalnız müqavilənin müddətinin uzadılacağına (və ya ləğv edilməyəcəyinə) əsası şəkildə əminlik olduqda, icarə müddətinə daxil edilir.

## 12 İstifadə hüquqlu aktivlər və icarə öhdəlikləri (davamı)

Ofis sahələri və anbarların icarəsi üçün adətən aşağıdakılar ən mühüm amillər hesab olunur:

- İcarənin ləğv edilməsi (və ya uzadılmaması) üçün əhəmiyyətli cərimələr müəyyən olunduqda, Qrupun icarənin uzadılacağından (və ya ləğv edilməyəcəyindən) əsaslı şəkildə əmin olması.
- İcarəyə götürülmüş aktivin əsaslı təmiri üzrə hər hansı kapitallaşdırılmış xərclərin əhəmiyyətli son qalıq dəyərinə malik olacağı gözlənildikdə, Qrupun icarənin uzadılacağından (və ya ləğv edilməyəcəyindən) əsaslı şəkildə əmin olması.
- Digər hallarda Qrup, əvvəlki dövrlərdə icarə müddətini, eləcə də icarəyə götürülmüş aktivin əvəz edilməsi üçün normal iş prosesində tələb olunan xərcləri və fəaliyyət pozuntuları kimi digər amilləri nəzərdən keçirir.

Qrup normal iş prosesində əhəmiyyətli xərclər və fəaliyyət pozuntuları olmadan aktivləri əvəz etmək imkanına malik olduğuna görə ofis binaları və nəqliyyat vasitələrinin icarəsi zamanı müqavilənin uzadılması imkanının əsas hissəsi icarə öhdəliyində əks etdirilməmişdir.

İcarə müqavilələrinin müddəti ilə bağlı rəhbərliyin təxminləri 10% fərqlənsəydi, 31 dekabr 2023-cü il tarixində başa çatan il üzrə icarə öhdəliyi 1,209 / 797 min ABŞ dolları artar / azalardı (2022: 397 / 319 min ABŞ dolları artar / azalardı).

İcarə müqavilələri adətən 1 - 3 il müddətinə bağlanır, lakin bu müddətin uzadılması seçimləri də nəzərdə tutula bilər.

| *Min ABŞ dolları ilə* | **Ofis binaları** | **Nəqliyyat vasitələri** | **Digər** | **Cəmi** |
|---|---|---|---|---|
| **1 yanvar 2022-ci il tarixinə balans dəyəri** | **968** | **357** | **71** | **1,396** |
| Əlavələr | - | 444 | 138 | 582 |
| Silinmələr | (6) | (314) | - | (320) |
| Amortizasiya xərci | (639) | (49) | (56) | (744) |
| İcarə müqavilesin modifikasiyası | (104) | - | - | (104) |
| **31 dekabr 2022-ci il tarixinə balans dəyəri** | **219** | **438** | **153** | **810** |
| Əlavələr | 2,485 | - | 366 | 2,851 |
| Silinmələr | - | (426) | (122) | (548) |
| Amortizasiya xərci | (763) | (12) | (108) | (883) |
| İcarə müqavilesin modifikasiyası | 3,390 | - | 3 | 3,393 |
| **31 dekabr 2023-cü il tarixinə balans dəyəri** | **5,331** | **-** | **292** | **5,623** |

Cəmiyyət icarə öhdəliklərini aşağıdakı kimi tanımışdır:

| *Min ABŞ dolları ilə* | **31 dekabr 2023** | **31 dekabr 2022** |
|---|---|---|
| Qısamüddətli icarə öhdəlikləri | 1,037 | 484 |
| Uzunmüddətli icarə öhdəlikləri | 4,724 | 405 |
| **Cəmi icarə öhdəlikləri** | **5,761** | **889** |

## 12 İstifadə hüquqlu aktivlər və icarə öhdəlikləri (davamı)

2023-cü il ərzində icarə müqavilələri üzrə cəmi ödənişlər 1,063 min ABŞ dolları (2022: 828 min ABŞ dolları) təşkil etmişdir.

| *Min ABŞ dolları ilə* | **31 dekabr 2023** | **31 dekabr 2022** |
|---|---|---|
| **1 yanvar tarixinə maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklər** | **889** | **1,518** |
| ***Pul axınları*** | | |
| İcarə ödənişləri | (1,063) | (828) |
| ***Qeyri-pul əməliyyatlarının hərəkəti*** | | |
| Hesablanmış faizlər | 240 | 49 |
| Yeni icarə müqavilələri | 2,851 | 582 |
| Digər | 2,844 | (432) |
| **31 dekabr tarixinə maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklər** | **5,761** | **889** |

## 13 Mal-material ehtiyatları

### *Mühüm mühasibat uçotu prinispi*

Mal-material ehtiyatları maya dəyəri və mümkün xalis satış dəyərindən daha az olan dəyərdə tanınır. Mal-material ehtiyatlarının maya dəyəri orta çəkili dəyər metodu ilə müəyyən edilir. Hazır məhsul və hazırlanmaqda olan məhsulların maya dəyərinə borc vəsaitləri üzrə xərclər istisna olmaqla, xammal, birbaşa işçi qüvvəsi və müvafiq istehsal xərcləri (normal iş həcminə əsasən) daxildir. Mümkün xalis satış dəyəri işin başa çatdırılma və satış xərcləri çıxılmaqla, adi fəaliyyət gedişində təxmin edilən satış qiymətidir.

Hazır məhsul şlam, topa aşındırmada olan filiz və filiz anbarında olan filiz ilkin dəyər və mümkün xalis satış dəyərindən ən aşağı olanı ilə qiymətləndirilir və hesablanır. Mümkün xalis satış dəyəri məhsul emal edilib satılanda müəssisənin reallaşdırılmasını gözlədiyi məhsulun təxmin edilmiş gələcək satış qiymətindən məhsulu tamamlayıb satışa çıxarmaq üçün təxmin edilən xərcləri çıxmaqla müəyyən edilir. Pulun zaman dəyərindəki fərq əhəmiyyətli olduqda, bu gələcək qiymətlər və tamamlama üçün xərclər diskont edilir.

Hazır məhsul emal olunmuş və əyarı müəyyən edilmiş, beynəlxalq qızıl bazarlarında külçə şəklində satıla bilən qiymətli ərintilərdən ibarətdir. Topa aşındırmada olan filiz frezləmə və ya emal əməliyyatları aparılan obyektlərdə əməliyyat sxeminə salınmış materiallardan və emal ediləcək ərintilərdən ibarətdir və ilkin dəyər və mümkün xalis satış dəyərindən ən aşağı olanı ilə qiymətləndirilir. Hazır məhsul üzrə xərclər birbaşa istehsal xərclərindən (dağ-mədən işləri, dağıtma və emal və sahə üzə inzibati xərclər) və bölüşdürülmüş dolayı xərclərdən (hasilat əldə edilən mədən aktivlərinin köhnəlməsi, tükənməsi və amortizasiyası) ibarətdir.

Filiz anbarında olan filiz ehtiyatda saxlanılan filizdən ibarətdir və ilkin dəyər və mümkün xalis satış dəyərindən ən aşağı olanı ilə qiymətləndirilir. Filiz anbarında olan filiz üzrə xərclər birbaşa hasilat xərclərindən ibarətdir (dağ-mədən, mədən partlatma və daşınma xərcləri daxil olmaqla). Filiz ehtiyatlarının hesabat tarixindən 12 ay sonra emal edilməsi gözlənilmədikdə, onlar uzunmüddətli aktivlərə aid edilir və mümkün xalis satış dəyəri pul axınlarının diskontlaşdırılması metodu ilə hesablanır.

Mal-material ehtiyatları üzrə xərclər satılmış qızıl unsiyaları əsasında əməliyyatlara aid edilir. Qrup mütəmadi şəkildə faktiki qızıl hasilatı və əməliyyat planlarına əsasən əməliyyatlara və mal-material ehtiyatlarının balans dəyərinə aid edilən xərclərin müəyyən edilməsində istifadə edilmiş təxminləri qiymətləndirir və dəqiqləşdirir. Mal-material ehtiyatları əməliyyatlarda istifadə olunan yanacaq, kimyəvi vasitələr, reagentlər, ehtiyat hissələri və xammaldan ibarətdir və ilkin dəyər və əvəzetmə dəyərindən ən aşağı olanı ilə və ehtiyac yarandıqda aşınma ehtiyatı çıxılmaqla qiymətləndirilir.

## 13 Mal-material ehtiyatları (davamı)

### *Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr*

***Mal-material ehtiyatlarının silinməsi.*** Hər bir hesabat tarixində mümkün xalis satış dəyəri test edilir və məhsul emal edilib satıldıqda müəssisənin realizə edilməsini gözlədiyi məhsulun təxmin edilmiş gələcək satış qiymətindən məhsulu tamamlayıb satışa çıxarmaq üçün təxmin edilən xərcləri çıxmaqla müəyyən edilir. Pulun zaman dəyəri əhəmiyyətli olduqda, həmin gələcək qiymətlər və tamamlanma üçün xərclər diskontlaşdırılır.

Fond ehtiyatları əlavə edilmiş və ehtiyat fondundan çıxarılmış tonların sayını təxmin etməklə ölçülür, qızıl tərkibli unsiyaların sayı əyara dair məlumata əsaslanır və təxmin edilən bərpa faizi gözlənilən emal üsuluna əsaslanır. Fond ehtiyatlarının tonnajı dövri icmallarla təsdiqlənir.

| *Min ABŞ dolları ilə* | **2023** | **2022** |
|---|---|---|
| Filiz anbarında olan filiz | 42,951 | 19,254 |
| Materiallar və ehtiyat hissələri | 11,297 | 6,953 |
| Şlam | 4,651 | 4,013 |
| Qızıl külçələr | 3,072 | 3,481 |
| Emalda olan metal | 6,192 | 2,863 |
| **Cəmi 31 dekabr tarixinə mal-material ehtiyatları** | **68,163** | **36,564** |

2023 və 2022-ci illər ərzində Qrup minimum altı aylıq ehtiyat tələbini yerinə yetirmək üçün Daşkəsən Filiz mədəni sahəsindən filiz və tullantıların çıxarılmasına başlamışdır.

## 14 Ticarət və digər debitor borcları

### *Mühüm mühasibat uçotu prinispi*

***İlkin tanınma.*** Müştərilərlə əməliyyatlar nəticəsində yaranan ticarət debitor borcları əhəmiyyətli maliyyələşdirmə komponentini ehtiva etmədiyi halda, ilkin olaraq BMHS 15-də müəyyən edilmiş əməliyyat qiymətləri ilə tanınır. Bütün digər ticarət və digər debitor borcları əməliyyat xərcləri də daxil olmaqla, ilkin olaraq ədalətli dəyərlə tanınır. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə sübut edilir.

İlkin tanınma zamanı gəlir və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır. Əməliyyat qiyməti eyni maliyyə aləti ilə aparılan digər müşahidə oluna bilən cari bazar əməliyyatları və ya əsas məlumat kimi yalnız müşahidə edilə bilən bazarların məlumatlarını istifadə edən qiymətləndirmə modeli ilə sübut edilir. İlkin tanınmadan sonra amortizasiya olunmuş dəyərlə ölçülən ticarət və digər debitor borcları üzrə gözlənilən kredit zərərləri üçün ehtiyat tanınır və bu da aktivin ilkin tanınmasından dərhal sonra zərərin tanınması ilə nəticələnir.

***Təsnifləşdirmə və sonrakı dövrdə qiymətləndirmə - qiymətləndirmə kateqoriyaları.*** Qrup ticarət və digər debitor borclarını mənfəət və ya zərərdə ədalətli dəyərlə əks etdirilən (FVTPL) və amortizasiya olunmuş dəyərlə ölçülən maliyyə aktivləri kateqoriyasında təsnifləşdirir. Ticarət və digər debitor borclarının təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi (i) müvafiq aktivlər portfelinin idarə olunması üçün Qrupun biznes modelindən və (ii) aktiv üzrə pul axınlarının xüsusiyyətindən asılıdır..

***Silinmə.*** Ticarət və digər debitor borclarını bərpa etmək üçün Qrupun bütün praktiki imkanları tükəndikdə və Qrup belə aktivlərin bərpasına dair gözləntilərin əsaslandırılmadığı qənaətinə gəldikdə, ticarət və digər debitor borcları tam və ya qismən silinir. Aktivlərin silinməsi tanınmanın dayandırılmasını nəzərdə tutur. Qrup müqaviləyə əsasən ödənilməli məbləğləri bərpa etməyə cəhd etdikdə, lakin həmin məbləğlərin bərpası ilə bağlı əsaslandırılmış gözləntiləri olmadıqda, barəsində hələ də məcburi bərpa tədbirləri görülən maliyyə aktivlərini silə bilər.

***Tanınmanın dayandırılması.*** Aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda, Qrup ticarət və digər debitor borcların tanınmasını dayandırır.

## 14 Ticarət və digər debitor borcları (davamı)

Qarşı tərəf satışa məhdudiyyətlər qoymadan aktivi tam olaraq əlaqəli olmayan üçüncü tərəfə satmaq imkanına malik olmadıqda nəzarəti özündə saxlayır.

| *Min ABŞ dolları ilə* | 2023 | 2022 |
|---|---|---|
| Ticarət debitor borcları | 586 | 3,573 |
| Sair debitor borcları | 3,219 | 3,192 |
| Çıxılsın: dəyərsizləşmə üzrə ehtiyat | (101) | (118) |
| **Cəmi ticarət və digər debitor borcları** | **3,704** | **6,647** |

Sair debitor borcları Azərbaycan Beynəlxalq Mədən Şirkətinə mədən yataqlarının (Qaradağ və Xar-xar) satışı ilə əlaqədar yaranmışdır.

GKZ aşağıdakı kredit riski parametrlərinin hasilinə bərabərdir: maliyyə aləti üzrə effektiv faiz dərəcəsinə əsasən cari dəyərə diskontlaşdırılan EAD, PD və LGD. GKZ bütöv müddət ərzində hər bir növbəti ay üçün fərdi kredit qalığı üzrə kredit riski parametrlərini proqnozlaşdırmaqla müəyyən edilir. Bu üç komponentin hasili tapılır və bərpa ehtimalını (yəni, maliyyə aktivinin əvvəlki ayda ödənilməsi və ya defolt olması) nəzərə alaraq onlara düzəliş edilir. Bu, hər bir gələcək dövr üçün GKZ-nin hesablanmasını effektiv şəkildə təmin edir və sonradan hesabat tarixinə geri diskontlaşdırılaraq toplanır. GKZ-nin hesablanmasında istifadə edilən diskont dərəcəsi ilkin effektiv faiz dərəcəsini və ya onun təxmini dəyərini əks etdirir.

Defolt baş verəcəyi halda itirilməsi gözlənilən məbləğ (LGD), defolt olmuş kredit üzrə zərərin həcminə dair Cəmiyyətin gözləntilərini əks etdirir. LGD kontragentin növü, iddianın növü və prioriteti, eləcə də girovun və ya digər kredit təminatının mövcudluğundan asılıdır.

Defolta məruz qalan məbləğ (EAD) defolt zamanı riskə məruz qalması gözlənilən məbləğdir. EAD kontragent üzrə cari kredit qalığından formalaşır. Maliyyə aktivinin defolta məruz qalan məbləği onun defolt anındakı ümumi balans dəyərinə bərabərdir.

GKZ-nin qiymətləndirilməsi məqsədilə, Cəmiyyət keçid matrisinə əsasən defolt ehtimalının hesablanması üçün xarici kredit agentliklərindən əldə etdiyi məlumatlardan istifadə edir.

Hesabat dövrünün əvvəli və sonu arasındakı müddətdə sadələşdirilmiş GKZ modelinə əsasən ticarət debitor borcları üzrə kredit zərərləri üçün ehtiyatda dəyişikliklər aşağıdakı cədvəldə göstərilir:

| *Min ABŞ dolları ilə* | 2023 | 2022 |
|---|---|---|
| **1 yanvar tarixinə ticarət debitor borcları üzrə kredit zərərləri üçün ehtiyat** | **(118)** | **-** |
| Yeni yaradılmış və ya alınmış | - | (118) |
| İl ərzində tanınması dayandırılmış | 17 | - |
| Dövr üzrə mənfəət və ya zərərə silinmiş cəmi kredit zərərləri üçün ehtiyatın qaytarılması/(yaradılması) | 17 | (118) |
| **31 dekabr tarixinə ticarət debitor borcları üzrə kredit zərərləri üçün ehtiyat** | **(101)** | **(118)** |

## 15 Verilmiş avanslar

### *Mühüm mühasibat uçotu prinsipi*

Verilmiş avanslar dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla maya dəyərində qeydə alınır. Verilmiş avanslar üzrə mal və ya xidmətlərin bir ildən sonra əldə edilməsi nəzərdə tutulduqda, yaxud bu avanslar ilkin uçot zamanı uzunmüddətli aktiv kimi təsnifləşdiriləcək aktivə aid olduqda uzunmüddətli aktiv kimi təsnifləşdirilir. Aktivin alınması üçün verilmiş avanslar Qrup bu aktiv üzərində nəzarəti əldə etdikdə və həmin aktivlə bağlı gələcək iqtisadi səmərənin Qrupa daxil olacağı ehtimal edildikdə aktivin qalıq dəyərinə köçürülür. Verilmiş digər avanslar onların aid olduğu mal və ya xidmətlər əldə edildikdə mənfəət və ya zərərə silinir. Verilmiş avanslarla bağlı aktivlər, mal və ya xidmətlərin əldə edilməməsi gözlənildikdə, həmin avansların qalıq dəyəri balansdan silinir və müvafiq dəyərsizləşmə zərəri il üzrə mənfəət və ya zərərdə tanınır.

31 dekabr 2023-cü il tarixinə verilmiş qısamüddətli avanslar dağ-mədən əməliyyatları, materialların təchizatı, təmir və texniki xidmət işləri və digər xidmətlərin satın alınması üçün təchizatçılara ödənilmiş 11,257 min ABŞ dolları (2022: 5,856 min ABŞ dolları) məbləğində vəsaitlərdən ibarətdir. Bu avansların növbəti il ərzində istifadəsi gözlənilir. 31 dekabr 2023-cü il tarixinə 408 min ABŞ dolları məbləğində uzunmüddətli avanslar əsasən istehsal avadanlıqlarının satın alınması üçün təchizatçılara ödənilmiş vəsaitlərdən ibarətdir (2022: yolların və magistral yolların tikintisi və istehsal avadanlıqlarının satın alınması üçün təchizatçılara ödənilmiş 556 min ABŞ dolları).

## 16 Ticarət və digər kreditor borcları

### *Mühüm mühasibat uçotu prinsipi*

***Tanınma və qiymətləndirmə.*** Ticarət kreditor borcları qarşı tərəfin müqavilə üzrə öz öhdəliklərini yerinə yetirdiyi zaman hesablanır və ilkin olaraq ədalətli dəyərlə, sonradan isə effektiv faiz metoduna əsasən amortizasiya olunmuş dəyərlə tanınır.

***Tanınmanın dayandırılması.*** Ticarət kreditor borclarının tanınması öhdəlik icra edildikdə dayandırılır (yəni, müqavilədə göstərilən öhdəlik yerinə yetirildikdə, ləğv edildikdə və ya icra müddəti başa çatdıqda).

| *Min ABŞ dolları ilə* | **2023** | **2022** |
|---|---|---|
| Ticarət kreditor borcları | 12,214 | 11,853 |
| Satın alınmış əsas vəsaitlər üzrə öhdəliklər | 6,222 | 1,345 |
| Hesablanmış öhdəliklər və digər kreditorlar | 209 | 135 |
| **31 dekabr tarixinə ticarət və digər kreditor borcları** | **18,645** | **13,333** |

## 17 Ətraf mühitin bərpasi öhdəliyi

### *Mühüm mühasibat uçotu prinsipi*

Qrup mədənlərin işlənməsi və müvafiq obyektlərin quraşdırılması və istifadəsi zamanı mədənlərdə və əlaqəli hasilat obyektlərində aparılacaq bərpa işləri üzrə gələcək xərclər üçün pul axınlarının diskontlaşdırılması modelinə əsasən tam ehtiyat yaradır. Ətraf mühitin bərpası öhdəliyi 2028-ci ildən 2030-cu ilədək olan dövr ərzində (bu dövrdə istehsal mədən obyektlərinin fəaliyyəti dayandırılması gözlənilir) çəkilməsi gözlənilən mədən sahələri ilə bağlı bərpa işləri üzrə xərclərin cari dəyərini ifadə edir.

Öhdəlik əsasən mədən aktivləri quraşdırılanda və ya hasilat sahəsində mədən sahəsinə və ya mühitə ziyan vurulanda yaranır. Öhdəlik ilkin olaraq tanındıqda, təxmin edilən xərclərin cari dəyəri əlaqəli mədən aktivlərinin balans dəyərini artırmaqla bu şərtlə kapitallaşdırılır ki, həmin xərclər adi olduğu filizin hasilatından öncə çəkilsin. Zaman keçdikcə diskontlaşdırılmış öhdəlik cari bazar qiymətləndirilmələrini və öhdəlik üzrə xüsusi riskləri əks etdirən diskont dərəcələri əsasında cari dəyərdə dəyişikliyin edilməsi üçün artırılır.

Diskontlaşmanın amortizasiyası Qrupun konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatında maliyyə məsrəfləri kimi tanınır. Əlavə ziyan və ya bərpa işləri üzrə xərclərdə dəyişikliklər yarandığı zaman bərpa öhdəliyi və müvafiq aktivlər üzrə əlavələr və ya xərclər kimi tanınır. Bərpa işləri üzrə öhdəlikdə azalmalar və müvafiq olaraq bərpa olunan aktivdən tutulmalar aktivin balans dəyərindən artıq ola bilməz. Artıq olarsa, balans dəyərini üstələyən məbləğ dərhal Qrupun konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatında əks etdirilir.

## 17 Ətraf mühitin bərpasi öhdəliyi (davamı)

Qiymətləndirmədə dəyişiklik bərpa işləri üzrə öhdəlikdə artım və müvafiq olaraq aktivin balans dəyərinə əlavələr ilə nəticələndikdə, Qrup bütövlükdə aktivin dəyərsizləşməsi əlamətinin olub-olmamasını nəzərdən keçirməli və BMS 36-ya uyğun olaraq dəyərsizləşmə testi aparmalıdır. İşlənmiş mədənlər üzrə ətraf mühitin bərpası öhdəlikləri çıxılmaqla yenidən baxılmış mədən aktivləri bərpa edilən dəyərdən artıq olduqda, artımın bu hissəsi birbaşa xərclərə aid edilir. Bağlı sahələr üçün, təxmin edilmiş xərclərdə dəyişikliklər dərhal Qrupun konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatında tanınır.

### *Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr*

***Ətraf mühitin bərpası öhdəliyi üzrə ehtiyatın müəyyən edilməsi ilə bağlı fərziyyələr.*** Bərpa işləri üzrə yekun xərclər müəyyən deyil və bu xərclərin qiymətləndirilməsi bərpa işlərinin həcmi və xərclərinin qiymətləndirilməsi, texnoloji dəyişikliklər, normativ dəyişikliklər, inflyasiya dərəcələri ilə müqayisədə maya dəyərinin artması və diskont dərəcələrində dəyişikliklər də daxil olmaqla bir sıra faktordan asılı olaraq dəyişə bilər. Bu qeyri-müəyyənliklər gələcək faktiki məsrəflərin hal-hazırda ayrılmış məbləğlərdən fərqlənməsi ilə nəticələnə bilər. Beləliklə, mədənin bərpası üçün ehtiyat müəyyən edilərkən əhəmiyyətli təxmin və fərziyyələr işlədilir. Bu ehtiyat subyektiv olduğuna görə, bu cür xərclərin həm məbləği, həm də ehtimal edildiyi çəkilmə vaxtı qeyri-müəyyəndir. Bu şərtlərin hər hansı birində baş verən dəyişiklik Cəmiyyət tərəfindən qeydə alınmış ehtiyatlarda düzəlişlər ilə nəticələnə bilər. Hesabat tarixinə ehtiyat tələb olunan gələcək bərpa xərclərinin cari dəyəri üzrə rəhbərliyin ən yaxşı təxminlərini əks etdirir.

31 dekabr 2023-cü il tarixinə ehtiyatın hesablanmasında istifadə edilən diskont dərəcəsi 7.52% (2022: 8.28%) olmuşdur. 31 dekabr 2023-cü il tarixinə diskont dərəcəsinin hesablanmasında nəzərə alınan inflyasiya səviyyəsi 4.57% (2022: 5.03%) təşkil etmişdir.

Hesablama zamanı rəhbərliyin diskont dərəcəsi ilə bağlı təxminləri 1% çox/az olsaydı, ehtiyatın balans dəyəri müvafiq olaraq 136 min ABŞ dolları azalardı / 146 min ABŞ dolları artardı (2022: 147 min ABŞ dolları azalardı / 159 min ABŞ dolları artardı).

| *Min ABŞ dolları ilə* | **2023** | **2022** |
|---|---|---|
| **1 yanvar tarixinə balans dəyəri** | **11,661** | **8,958** |
| Əlavələr | 2,491 | 2,338 |
| Diskontlaşmanın amortizasiyası | 559 | 365 |
| **31 dekabr tarixinə balans dəyəri** | **14,711** | **11,661** |

## 18 Sair qısamüddətli aktiv və öhdəliklər

### *Mühüm mühasibat uçotu prinsipi*

***Əlavə dəyər vergisi.*** Vergi tutulan əməliyyatın vaxtı təqdim edilən mallar (işlər və xidmətlər) üçün ödəmənin aparıldığı vaxtdır. Ödəmə aşağıdakı vaxtda aparılmış sayılır:

- pul vəsaitini aldığı, nağdsız ödəmədə isə pul vəsaitinin bankda onun hesabına və ya sərəncamçısı ola biləcəyi hesaba, yaxud göstərilən vəsaiti almaq hüququna malik olacağı hesaba daxil olduğu vaxt;
- qarşılıqlı hesablaşmalar aparıldıqda öhdəliyin ləğv edildiyi və ya ödənildiyi vaxt;
- malların (işlərin, xidmətlərin) təqdim edilməsi üzrə yaranan debitor borclar üzrə – iddia müddətinin bitdiyi vaxt;
- natura şəklində aparıldıqda, habelə barter edildikdə – aktivlərin əldə edildiyi (barter edildiyi) vaxt;
- əvəzsiz təqdim edildiyi hallarda təqdimetmənin həyata keçirildiyi vaxt;
- tələb hüququ güzəşt edildikdə – güzəşt edilən məbləğ üzrə tələb hüququnun güzəşt edildiyi vaxt.

Ödəmə malların (işlərin, xidmətlərin) təqdim edilməsinədək həyata keçirildikdə, vergi tutulan əməliyyatın vaxtı ödəmənin həyata keçirildiyi vaxt sayılır. Vergi tutulan əməliyyat üçün iki və ya daha çox ödəmə aparılırsa, hər ödəmə ödəniş miqdarında ayrıca əməliyyat üçün həyata keçirilmiş sayılır. Alınmış avans ödəmələri üzrə elektron qaimə-faktura verilməsinə yol verilmir.

Ümumiyyətlə, ödənilmiş ƏDV məbləğləri vergi hesab fakturaları alındıqdan sonra satışdan hesablanan əlavə dəyər vergisi ilə əvəzləşdirilə bilər. Vergi orqanları ƏDV-nin xalis məbləğdə ödənilməsinə icazə verir.

## 18 Sair qısamüddətli aktiv və öhdəliklər (davamı)

Satış və alışlar üzrə ƏDV konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda ümumi məbləğdə qeydə alınır və ayrıca olaraq aktiv və öhdəlik kimi göstərilir:

| *Min ABŞ dolları ilə* | 2023 | 2022 |
|---|---|---|
| Əvəzləşdirilən ƏDV | 3,281 | 2,127 |
| ƏDV üzrə alınacaq məbləğ | 19,724 | 17,079 |
| Digər | 59 | 181 |
| **Cəmi 31 dekabr tarixinə sair qısamüddətli aktivlər** | **23,064** | **19,387** |

2023-cü il ərzində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən Cəmiyyətə geri qaytarılmış ƏDV (ƏDV üzrə alınacaq məbləğin azaldılması) məbləği 14,118 min ABŞ dolları təşkil edir.

| *Min ABŞ dolları ilə* | 2023 | 2022 |
|---|---|---|
| Əmək haqqı və əlaqəli ödənişlər | 1,967 | 1,801 |
| **Cəmi 31 dekabr tarixinə sair qısamüddətli öhdəliklər** | **1,967** | **1,801** |

## 19 Pul vəsaitləri və onların ekvivalentləri

### *Mühüm mühasibat uçotu prinsipi*

***Pul vəsaitləri və onların ekvivalentləri.*** Pul vəsaitləri və onların ekvivalentlərinə nağd pul və banklardakı tələbli depozitlər daxildir. Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakı səbəblərə görə amortizasiya olunmuş dəyərlə qeydə alınır: (i) müqavilə üzrə pul axınlarını əldə etmək məqsədilə saxlanılır və həmin pul axınları yalnız əsas borc və faiz ödənişlərindən ibarətdir, və (ii) FVTPL kateqoriyasında qiymətləndirilmir.

| *Min ABŞ dolları ilə* | 2023 | 2022 |
|---|---|---|
| Kassa | 66 | 25 |
| Banklardakı cari hesab qalıqları | 36,110 | 6,776 |
| **Cəmi 31 dekabr tarixinə pul vəsaitləri və onların ekvivalentləri** | **36,176** | **6,801** |

31 dekabr 2023-cü il tarixinə kredit riskinin ödəmə qabiliyyəti dərəcələrinə əsasən pul vəsaitləri və onların ekvivalentlərinin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir. Qrupun kredit riskinin təsnifatı sistemi Qeyd 31-də təsvir edilir.

| *Min ABŞ dolları ilə* | Banklardakı cari hesab qalıqları |
|---|---|
| - Yüksək dərəcə | 36,062 |
| - Orta dərəcə | 48 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri, kassa istisna olmaqla** | **36,110** |

31 dekabr 2022-ci il tarixinə kredit riskinin ödəmə qabiliyyəti dərəcələrinə əsasən pul vəsaitləri və onların ekvivalentlərinin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir. Qrupun kredit riskinin təsnifatı sistemi Qeyd 31-də təsvir edilir.

| *Min ABŞ dolları ilə* | Banklardakı cari hesab qalıqları |
|---|---|
| - Yüksək dərəcə | 5,597 |
| - Orta dərəcə | 1,179 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri, kassa istisna olmaqla** | **6,776** |

## 20 Müddətli depozitlər

| *Min ABŞ dolları ilə* | 2023 | 2022 |
|---|---|---|
| Müddətli depozitlər | 33,528 | 62,749 |
| Müddətli depozitlər üzrə gözlənilən kredit zərəri | (79) | (687) |
| **Cəmi müddətli depozitlər** | **33,449** | **62,062** |

31 dekabr 2023-cü il tarixinə kredit riskinin ödəmə qabiliyyəti dərəcələrinə əsasən müddətli depozitlərin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir. Qrupun kredit riskinin təsnifatı sistemi Qeyd 31-də təsvir edilir.

| *Min ABŞ dolları ilə* | Müddətli depozitlər |
|---|---|
| - Orta dərəcə | 33,528 |
| **Cəmi müddətli depozitlər, GKZ istisna olmaqla** | **33,528** |

31 dekabr 2022-ci il tarixinə kredit riskinin ödəmə qabiliyyəti dərəcələrinə əsasən müddətli depozitlərin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir. Qrupun kredit riskinin təsnifatı sistemi Qeyd 31-də təsvir edilir.

| *Min ABŞ dolları ilə* | Müddətli depozitlər |
|---|---|
| - Yüksək dərəcə | 39,272 |
| - Orta dərəcə | 23,477 |
| **Cəmi müddətli depozitlər, GKZ istisna olmaqla** | **62,749** |

## 21 Nizamnamə kapitalı

Daşkəsən dəmir filizi yatağının istismarı və digər mədən sahələrində kəşfiyyat işləri ilə əlaqədar olaraq, 31 dekabr 2023-cü il tarixində başa çatan il ərzində Dövlət tərəfindən Qrupa müvafiq olaraq 23,529 min ABŞ dollar və 2,942 min ABŞ dolları (2022: Daşkəsən dəmir filizi yatağının istismarı ilə əlaqədar olaraq 73,529 min ABŞ dolları) məbləğində əlavə kapital qoyuluşu həyata keçirilmişdir.

31 dekabr 2023-cü il tarixinə nizamnamə kapitalı müvafiq məzənnəyə uyğun olaraq hesabat valyutasına çevrilmiş və 36,471 min ABŞ dolları (2022: 36,471 min ABŞ dolları) təşkil etmişdir.

## 22 Borc vəsaitləri

### *Mühüm mühasibat uçotu prinsipi*

***Tanınma və qiymətləndirmə.*** Borc vəsaitləri ilkin olaraq əməliyyat xərcləri çıxılmaqla ədalətli dəyərlə, sonradan isə effektiv faiz metoduna əsasən amortizasiya edilmiş dəyərdə tanınır.

***Tanınmanın dayandırılması.*** Maliyyə öhdəliyinin tanınması öhdəlik icra edildikdə dayandırılır (yəni, müqavilədə göstərilən öhdəlik yerinə yetirildikdə, ləğv edildikdə və ya icra müddəti başa çatdıqda).

| *Min ABŞ dolları ilə* | 2023 | 2022 |
|---|---|---|
| Müddətli kreditlər | 93,060 | 36,922 |
| Qeydiyyatdan keçmiş istiqrazlar | - | 20,148 |
| **Cəmi borc vəsaitləri** | **93,060** | **57,070** |

## 22 Borc vəsaitləri (davamı)

Aşağıdakı cədvəldə maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklərin təhlili və təqdim olunan hər bir dövr üzrə Qrupun maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklərin hərəkəti göstərilir. Bu öhdəliklər konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatda maliyyələşdirmə fəaliyyətinin tərkibində qeydə alınır:

| *Min ABŞ dolları ilə* | 2023 | 2022 |
|---|---|---|
| **1 yanvar tarixinə maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklər** | **57,070** | **20,291** |
| ***Pul axınları*** | | |
| Kredit üzrə daxilolmalar | 135,018 | 74,912 |
| Əsas borcun ödənilməsi | (98,979) | (38,014) |
| Faizlərin ödənilməsi | (4,108) | (1,118) |
| ***Qeyri-pul əməliyyatlarının hərəkəti*** | | |
| Hesablanmış faizlər | 4,059 | 999 |
| **31 dekabr tarixinə maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklər** | **93,060** | **57,070** |

*"Xalq Bank" ASC*

16 dekabr 2022-ci il tarixində "AzerGold" QSC ilə "Xalq Bank" ASC arasında 25 iyun 2027-ci il tarixinədək illik 4% dərəcəsi ilə 58,000 min ABŞ dolları məbləğində kredit xəttinin ayrılmasına dair müqavilə imzalanmışdır. 2023-cü il ərzində bu kredit xətti üzrə ümumilikdə 31,803 min ABŞ dolları (2022: 32,511 min ABŞ dolları) cəlb edilmiş və əsas borc üzrə ödəniş həyata keçirilməmişdir (2022: 6,346 min ABŞ dolları). Bu kredit xətti üzrə heç bir girov təminatı alınmamışdır.

*"Paşa Bank" ASC*

5 avqust 2020-ci il tarixində "AzerGold" QSC ilə "Paşa Bank" ASC arasında 1 oktyabr 2024-cü il tarixindək illik 4% dərəcəsi ilə 20,000 min ABŞ dolları məbləğində kredit xəttinin ayrılmasına dair müqavilə imzalanmışdır. 2023-cü il ərzində bu kredit xətti üzrə ümumilikdə 47,508 min ABŞ dolları (2022: 40,974 min ABŞ dolları) cəlb edilmiş və əsas borcun 36,939 min ABŞ dolları (2022: 31,668 min ABŞ dolları) geri qaytarılmışdır. Bu kredit üzrə heç bir girov təminatı alınmamışdır.

9 sentyabr 2023-cü il tarixində "AzerGold" QSC ilə "Paşa Bank" ASC arasında 22 sentyabr 2027-ci il tarixinədək illik 5.8% dərəcəsi ilə 30,500 min ABŞ dolları məbləğində kredit xəttinin ayrılmasına dair müqavilə imzalanmışdır. 2023-cü il ərzində bu kredit xətti üzrə ümumilikdə 10,500 min ABŞ dolları cəlb edilmiş və əsas borcun 6,000 min ABŞ dolları geri qaytarılmışdır. Bu kredit üzrə heç bir girov təminatı alınmamışdır.

*"Kapital Bank" ASC*

15 avqust 2023-cü il tarixində "AzerGold" QSC ilə "Kapital Bank" ASC arasında 15 avqust 2030-cu il tarixinədək illik 7% dərəcəsi ilə 25,000 min ABŞ dolları məbləğində kredit xəttinin ayrılmasına dair müqavilə imzalanmışdır. 2023-cü il ərzində bu kredit xətti üzrə ümumilikdə 24,250 min ABŞ dolları cəlb edilmiş və geri qaytarılmışdır. Bu kredit üzrə heç bir girov təminatı alınmamışdır.

14 iyul 2022-ci il tarixində "Azerblast" MMC ilə "Kapital Bank" ASC arasında 14 iyul 2027-ci il tarixinədək illik 9% dərəcəsi ilə 9,000 min AZN (5,294 min ABŞ dolları) məbləğində kredit xəttinin ayrılmasına dair müqavilə imzalanmışdır. 2023-cü il ərzində bu kredit xətti üzrə ümumilikdə 3,867 min ABŞ dolları (2022: 2,426 min ABŞ dolları) cəlb edilmişdir. Bu kredit üzrə heç bir girov təminatı alınmamışdır.

*"Ziraat Bank" ASC*

16 avqust 2023-cü il tarixində "AzerGold" QSC ilə "Ziraat Bank" ASC arasında 16 avqust 2024-cü il tarixinədək illik 5.4% dərəcəsi ilə 5,290 min ABŞ dolları məbləğində kredit xəttinin ayrılmasına dair müqavilə imzalanmışdır. 2023-cü il ərzində bu kredit xətti üzrə ümumilikdə 5,290 min ABŞ dolları cəlb edilmişdir. Bu kredit üzrə heç bir girov təminatı alınmamışdır.

## 22 Borc vəsaitləri (davamı)

*"Azərbaycan Beynəlxalq Bankı" ASC*

22 sentyabr 2023-cü il tarixində "AzerGold" QSC ilə "Azərbaycan Beynəlxalq Bankı" ASC arasında 22 sentyabr 2030-cu il tarixinədək illik minimum 4.5% olmaq şərtilə SOFR+2.25% dərəcəsi ilə 17,000 min ABŞ dolları məbləğində kredit xəttinin ayrılmasına dair müqavilə imzalanmışdır. 2023-cü il ərzində bu kredit xətti üzrə ümumilikdə 11,800 min ABŞ dolları cəlb edilmiş və ödənilmişdir. Bu kredit üzrə heç bir girov təminatı alınmamışdır.

*Qeydiyyatdan keçmiş istiqrazlar*

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin qərarına əsasən, Qrup 2020-ci il ərzində istiqrazlar tədavülə buraxmışdır. İstiqrazların sayı 200,000 ədəd, nominal dəyəri 100 ABŞ dolları, illik kupon dərəcəsi 4%, tədavül müddəti isə 3 ildir. "AzerGold" istiqrazlarının birinci və ikinci tranşlarının yerləşdirilməsi üzrə hərraclar müvafiq olaraq 24 sentyabr və 30 noyabr 2020-ci il tarixlərində Bakı Fond Birjasında keçirilmişdir. 31 dekabr 2023-cü il tarixinə bütün istiqrazlar ödənilmişdir.

## 23 Müştərilərlə müqavilələr üzrə gəlirlər

***Mühüm mühasibat uçotu prinsipi***

Gəlir əməliyyat qiymətinin məbləğində tanınır. Əməliyyat qiyməti vəd verilmiş mal və xidmətlər üzrə nəzarətin alıcıya ötürülməsi müqabilində üçüncü tərəflərin adından alınan məbləğlər istisna olmaqla, Qrup tərəfindən əldə ediləcəyi gözlənilən ödənişlərdir.

Gəlir güzəştlər, geri qaytarılmış mallar, əlavə dəyər vergisi, ixrac rüsumları və digər oxşar icbari ödənişlər çıxılmaqla tanınır.

***Qızıl və gümüş külçələrin satışı.*** Qızıl və gümüş külçələrin satışından əldə edilən gəlirlər mülkiyyət hüququ ilə bağlı əhəmiyyətli risklərin və faydaların alıcıya keçdiyi və satış qiymətlərinin və əyarın müəyyən olduğu və ya dəqiq şəkildə ölçülməsi mümkün olduğu zaman tanınır. Əyar təhlilinin nəticələri ərintidə qızılın və gümüşün miqdarını göstərir, bunun da qiyməti hər bir metalın bazar kotirovkaları əsasında müəyyən edilir. Qızıl ilə birlikdə istehsal olunan gümüşün ərintidə miqdarı əlavə məhsul hesab edilir və gəlirlərdə tanınır.

Qrup aşağıdakı əsas fəaliyyət istiqamətləri üzrə malların və xidmətlərin ötürülməsindən müəyyən zaman anında gəlir əldə edir:

| *Min ABŞ dolları ilə* | **2023** | **2022** |
|---|---|---|
| Qızıl külçələr | 131,130 | 117,704 |
| Gümüş külçələr | 2,584 | 4,524 |
| Materialların satışı | 1,641 | 1,418 |
| **Cəmi müştərilərlə müqavilələr üzrə gəlirlər** | **135,355** | **123,646** |

## 24 Satışların maya dəyəri

***Mühüm mühasibat uçotu prinsipi***

***İşçi heyəti ilə bağlı ödənişlər.*** Əmək haqları, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ayırmalar, məzuniyyət və xəstəlik vərəqələri üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar (məsələn, səhiyyə və uşaq bağçası xidmətləri) Qrupun işçiləri tərəfindən müvafiq xidmətlərin göstərildiyi ildə hesablanır. Qrupun sosial ayırmalardan başqa pensiya və analoji ödənişləri həyata keçirmək üçün hər hansı hüquqi və ya işgüzar praktikadan yaranan öhdəliyi yoxdur.

## 24 Satışların maya dəyəri (davamı)

31 dekabr tarixində başa çatan il üzrə satışların maya dəyəri aşağıdakılardan ibarətdir:

| *Min ABŞ dolları ilə* | 2023 | 2022 |
|---|---|---|
| Amortizasiya və tükənmə xərcləri | 32,080 | 14,368 |
| Mədən partlatma və tullantıların daşınma xərcləri | 14,639 | 12,424 |
| Topa aşındırma xərcləri | 9,791 | 10,023 |
| Əmək haqqı xərcləri | 6,662 | 7,329 |
| Təkrar satış üçün alınmış malların maya dəyəri | 6,354 | 3,547 |
| Mədən partlatma və filiz süxurlarının daşınma xərcləri | 5,831 | 4,865 |
| Mədən vergisi | 3,821 | 3,669 |
| Material xərcləri | 3,197 | 2,114 |
| Kimyəvi mallar | 2,627 | 1,812 |
| Laboratoriya xərcləri | 1,423 | 1,071 |
| Elektrik enerjisi xərcləri | 1,443 | 743 |
| Təhlükəsizlik xidməti xərcləri | 858 | 816 |
| Əmlak vergisi | 774 | 164 |
| Nəqliyyat xərcləri | 702 | 686 |
| Metal filizlərin çəndə qələviləşdirmə texnologiyası ilə emalı | 632 | - |
| Digər | 2,319 | 1,705 |
| **Cəmi satışların maya dəyəri** | **93,153** | **65,336** |

## 25 Ümumi və inzibati xərclər

| *Min ABŞ dolları ilə* | 2023 | 2022 |
|---|---|---|
| Əmək haqqı xərcləri | 11,937 | 10,872 |
| Hüquq və konsaltinq xidməti üzrə xərclər | 3,776 | 3,862 |
| Əsas vəsaitlər üzrə amortizasiya xərcləri | 2,895 | 2,462 |
| İcarə haqqının bağışlanması ilə bağlı xərclər | 809 | 275 |
| Mənfəət vergisindən başqa digər vergilər | 610 | 472 |
| İanə və üzvlük haqları | 382 | 337 |
| Ezamiyyə xərcləri | 353 | 216 |
| Sığorta xərcləri | 325 | 188 |
| Elektrik enerjisi xərcləri | 311 | 29 |
| Bank komisyon haqları | 260 | 145 |
| Reklam xərcləri | 220 | 32 |
| Nəqliyyat xərcləri | 202 | 91 |
| Ofis təchizatı xərcləri | 198 | 341 |
| Qeyri-maddi aktivlər üzrə amortizasiya xərcləri | 181 | 178 |
| Digər | 2,425 | 1,834 |
| **Cəmi ümumi və inzibati xərclər** | **24,884** | **21,334** |

## 26 Sair gəlirlər

### *Mühüm mühasibat uçotu prinsipi*

***Dövlət subsidiyaları.*** Dövlət subsidiyaları onların alınacağı və Qrupun belə subsidiyaların alınması ilə bağlı bütün şərtləri yerinə yetirəcəyinə dair əsaslı əminlik yarandıqda ədalətli dəyərlə tanınır. Xərclərə aid olan dövlət subsidiyaları təxirə salınır və onların kompensasiya edəcəyi müvafiq xərclərə uyğunlaşdırılması tələb olunan dövr ərzində il üzrə mənfəət və ya zərərdə sair gəlir kimi tanınır. Dövlət subsidiyaları aid olduğu xərclərlə birlikdə ümumi şəkildə təqdim olunur.

| *Min ABŞ dolları ilə* | 2023 | 2022 |
|---|---|---|
| Mədən yataqlarının satılması | - | 1,771 |
| Cərimə və penyalar | 3,412 | 241 |
| Konsaltinq xərcləri ilə bağlı dövlət qrantları | 1,030 | 3,211 |
| Ödənişsiz icarə | 696 | 275 |
| Əsas vəsaitlərin satılmaı üzrə gəlir/(zərər) | 499 | - |
| Digər | 489 | 1,576 |
| **Cəmi sair gəlirlər** | **6,126** | **7,074** |

2023-cü il ərzində Cəmiyyət müqavilə üzrə zavodun tikilməsində əhəmiyyətli gecikmələrə görə cavabdeh olan əsas podratçılarından birinə cərimə tətbiq etmişdir.

## 27 Maliyyə xərcləri

| *Min ABŞ dolları ilə* | 2023 | 2022 |
|---|---|---|
| İstiqrazlar və borc vəsaitləri üzrə faiz xərcləri | 2,532 | 658 |
| Ətraf mühitin bərpası ilə bağlı öhdəlik üzrə faiz xərcləri | 559 | 365 |
| İcarə öhdəlikləri üzrə faiz xərcləri | 240 | 49 |
| **Cəmi mənfəət və ya zərərdə tanınmış maliyyə xərcləri** | **3,331** | **1,072** |

Qrup Çəndə Qələviləşdirmə Zavodunun tikintisinə birbaşa aid edilən maliyyələşdirmədən yaranan borclar üzrə məsrəfləri 4% (2022: 4%) kapitallaşdırma dərəcəsi ilə kapitallaşdırmışdır.

## 28 Mənfəət vergisi

### *Mühüm mühasibat uçotu prinsipi*

***Mənfəət vergisi.*** Hazırki konsolidasiya edilmiş maliyyə hesabatlarında mənfəət vergisi qüvvədə olan və ya hesabat dövrünün sonuna qüvvəyə minmiş qanunvericiliyin tələblərinə uyğun olaraq əks etdirilir. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarət olub, il üzrə mənfəət və ya zərərdə tanınır. Mənfəət vergisindən başqa digər vergilər əməliyyat xərcləri kimi qeydə alınır.

Cari vergilər cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə əlaqədar ödəniləcək və ya geri qaytarılacaq məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim olunmasından əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır..

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə, aktiv və öhdəliklərin vergi bazası və maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün onların balans dəyəri arasında yaranan keçmiş illərin vergi zərəri və bütün müvəqqəti fərqlər üçün hesablanır. İlkin tanınma zamanı istisna hal olaraq, əgər əməliyyat maliyyə mənfəəti və vergiyə cəlb edilən mənfəətə təsir göstərmirsə və əməliyyat həyata keçirilən anda bərabər məbləğdə vergi bazasını artıran və azaldan müvəqqəti fərqlərə səbəb olmursa, aktiv və öhdəliyin ilkin qeydə alınması nəticəsində yaranan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi hesablanmır (müəssisələrin birləşməsi halları istisna olmaqla). Təxirə salınmış vergi qalıqları qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş vergi dərəcələrinə əsasən müvəqqəti fərqlərin qaytarılacağı və ya keçmiş illərdən yığılmış vergi zərərlərinin istifadə ediləcəyi dövrdə tətbiq edilməli vergi dərəcələrindən istifadə etməklə hesablanır.

## 28 Mənfəət vergisi (davamı)

Gəlirdən çıxılan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi aktivləri və keçmiş illərin vergi zərərləri müvəqqəti fərqlərin geri qaytarılması, kifayət qədər vergi tutulan gələcək gəlirlərin yaranması və bu gəlirlər üzrə çıxılmaların istifadə edilməsi ehtimalını nəzərə alaraq tanınır.

Təxirə salınmış vergi aktiv və öhdəlikləri cari vergi aktivləri və vergi öhdəliklərinin əvəzləşdirilməsi üçün qanunvericilikdə nəzərdə tutulan hüquq mövcud olduqda, eləcə də təxirə salınmış vergi aktiv və öhdəlikləri vergiyə cəlb edilən eyni və ayrı-ayrı şəxslər tərəfindən eyni vergi orqanına ödənilmiş vergiyə aid olduqda və bu zaman hesablaşmaları əvəzləşdirmə yolu ilə aparmaq niyyəti mövcud olduğu halda əvəzləşdiirlə bilər. Təxirə salınmış vergi aktiv və öhdəlikləri yalnız Qrupun ayrı-ayrı müəssisələri arasında əvəzləşdirilir.

***Qeyri-müəyyən vergi mövqeləri.*** Qrupun qeyri-müəyyən vergi mövqeləri rəhbərlik tərəfindən hər bir hesabat dövrünün sonunda yenidən qiymətləndirilir. Rəhbərlik vergi orqanları tərəfindən Qrupun vergi mövqeyinin mübahisələndirildiyi halda əlavə vergi öhdəliklərinin yaranmasını ehtimal edərsə, vergi öhdəlikləri nəzərə alınmır. Bu cür qiymətləndirmə qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş vergi qanunvericiliyinin təfsirinə və bu məsələlərə dair hər hansı məhkəmə və ya digər qurumların məlum qərarlarına əsasən aparılır. Mənfəət vergisi istisna olmaqla, cərimələr, penyalar və vergilər üzrə öhdəliklər hesabat dövrünün sonunda öhdəliklərin yerinə yetirilməsi üçün zəruri olan xərclərə dair rəhbərliyin ən yaxşı təxminləri əsasında uçota alınır. Faiz və cərimələr istisna olmaqla, qeyri-müəyyən vergi mövqeləri üzrə düzəlişlər mənfəət vergisi xərci kimi qeydə alınır. Faiz və cərimələr ilə bağlı qeyri-müəyyən vergi mövqeləri üzrə düzəlişlər müvafiq olaraq xalis maliyyə xərcləri və sair gəlirlər/(zərərlərin) tərkibində qeyd alınır.

### *a) Mənfəət vergisi xərcinin komponentləri*

Mənfəət vergisi xərci aşağıdakı komponentlərdən ibarətdir:

| *Min ABŞ dolları ilə* | 2023 | 2022 |
|---|---|---|
| Cari vergilər | 3,848 | 8,830 |
| Təxirə salınmış vergilər | 3,362 | 533 |
| **İl üzrə mənfəət vergisi xərci** | **7,210** | **9,363** |

### *(b) Mənfəət vergisi xərci ilə mənfəət və ya zərərin qanunvericiliklə müəyyən edilmiş müvafiq vergi dərəcəsinə olan hasilinin üzləşdirilməsi*

2023 və 2022-ci illər ərzində Qrupa tətbiq edilən mənfəət vergisi dərəcəsi 20% təşkil etmişdir. Gözlənilən və faktiki tətbiq edilən vergi xərclərinin üzləşdirilməsi aşağıda göstərilir.

| *Min ABŞ dolları ilə* | 2023 | 2022 |
|---|---|---|
| **Vergidən əvvəlki mənfəət** | **34,438** | **39,575** |
| Qanunvericiliklə müəyyən edilmiş 20% dərəcə ilə hesablanmalı olan vergi məbləği: | 6,888 | 7,915 |
| Vergi məqsədləri üçün çıxılmayan xərclərin və ya vergiyə cəlb edilməyən gəlirlərin vergi effekti: | | |
| - Vergi tutulan gəlir kimi qiymətləndirilən kapital əməliyyatı | | - |
| - Gəlirdən çıxılmayan xərclər | 233 | 1,141 |
| Keçmiş illərin tanınmamış vergi zərəri | 368 | 307 |
| Dəyərsizləşmə üzrə zərərin qaytarılmasının effekti | (279) | - |
| **İl üzrə mənfəət vergisi xərci** | **7,210** | **9,363** |

## 28 Mənfəət vergisi (davamı)

### *(c) Müvəqqəti fərqlərin növləri üzrə təxirə salınmış vergilərin təhlili*

BMHS və Azərbaycan Respublikasının yerli vergi qanunvericiliyi arasındakı fərqlər nəticəsində maliyyə hesabatlarının hazırlanması və mənfəət vergisinin hesablanması məqsədilə aktiv və öhdəliklərin balans dəyəri arasında müvəqqəti fərqlər əmələ gəlir. 31 dekabr 2023-cü il tarixində tamamlanan il üzrə "AzerGold" QSC üçün bu müvəqqəti fərqlər üzrə hərəkətlərin vergi effekti aşağıda göstərilir:

| *Min ABŞ dolları ilə* | **31 dekabr 2022** | **Mənfəət və ya zərərdə (xərc)/gəlir kimi tanınmışdır** | **31 dekabr 2023** |
|---|---|---|---|
| **Vergi bazasını azaldan/(artıran) müvəqqəti fərqlərin vergi effekti** | | | |
| Mal-material ehtiyatları | 500 | (993) | (493) |
| Ətraf mühitin bərpası öhdəliyi | 2,332 | 610 | 2,942 |
| İcarə öhdəliyi | 16 | 22 | 38 |
| Kəşfiyyat və qiymətləndirmə aktivləri | 1,106 | (2,009) | (903) |
| Ticarət və digər kreditor borcları | (639) | 493 | (146) |
| Qeyri-maddi aktivlər | (999) | (266) | (1,265) |
| Əsas vəsaitlər | (2,024) | (2,022) | (4,046) |
| Verilmiş avanslar | (23) | 139 | 116 |
| Borc vəsaitləri | (28) | 81 | 53 |
| Ticarət və digər debitor borcları | (657) | 608 | (49) |
| **Təxirə salınmış xalis vergi öhdəliyi** | **(416)** | **(3,337)** | **(3,753)** |
| Tanınmış təxirə salınmış vergi aktivi | 3,954 | (804) | 3,150 |
| Tanınmış təxirə salınmış vergi öhdəliyi | (4,370) | (2,533) | (6,903) |
| **Təxirə salınmış xalis vergi öhdəliyi** | **(416)** | **(3,337)** | **(3,753)** |

31 dekabr 2023-cü il tarixində tamamlanan il üzrə "Daşkəsən Dəmir Filiz" MMC üçün bu müvəqqəti fərqlər üzrə hərəkətlərin vergi effekti aşağıda göstərilir:

| *Min ABŞ dolları ilə* | **31 dekabr 2022** | **Mənfəət və ya zərərdə (xərc)/gəlir kimi tanınmışdır** | **31 dekabr 2023** |
|---|---|---|---|
| **Vergi bazasını azaldan/(artıran) müvəqqəti fərqlərin vergi effekti** | | | |
| Mal-material ehtiyatları | (315) | 127 | (188) |
| Müddətli depozitlər | (193) | (37) | (230) |
| Kəşfiyyat və qiymətləndirmə aktivləri | 952 | 4,086 | 5,038 |
| Ticarət və digər kreditor borcları | 413 | (246) | 167 |
| Qeyri-maddi aktivlər | 11 | 1,278 | 1,289 |
| Əsas vəsaitlər | (726) | (5,234) | (5,960) |
| Verilmiş avanslar | 3 | 32 | 35 |
| Ticarət və digər debitor borcları | (65) | (31) | (96) |
| **Təxirə salınmış xalis vergi aktivi** | **80** | **(25)** | **55** |
| Tanınmış təxirə salınmış vergi aktivi | 1,379 | 5,150 | 6,529 |
| Tanınmış təxirə salınmış vergi öhdəliyi | (1,299) | (5,175) | (6,474) |
| **Təxirə salınmış xalis vergi aktivi** | **80** | **(25)** | **55** |

## 28 Mənfəət vergisi (davamı)

31 dekabr 2022-ci il tarixində tamamlanan il üzrə "AzerGold" QSC üçün bu müvəqqəti fərqlər üzrə hərəkətlərin vergi effekti aşağıda göstərilir:

| *Min ABŞ dolları ilə* | **31 dekabr 2021** | **Mənfəət və ya zərərdə (xərc)/gəlir kimi tanınmışdır** | **31 dekabr 2022** |
|---|---|---|---|
| **Vergi bazasını azaldan/(artıran) müvəqqəti fərqlərin vergi effekti** | | | |
| Mal-material ehtiyatları | 25 | 475 | 500 |
| Ətraf mühitin bərpası öhdəliyi | 1,792 | 540 | 2,332 |
| İcarə öhdəliyi | 25 | (9) | 16 |
| Kəşfiyyat və qiymətləndirmə aktivləri | 1,956 | (850) | 1,106 |
| Ticarət və digər kreditor borcları | (171) | (468) | (639) |
| Qeyri-maddi aktivlər | (1,752) | 753 | (999) |
| Əsas vəsaitlər | (1,779) | (245) | (2,024) |
| Verilmiş avanslar | (23) | - | (23) |
| Borc vəsaitləri | 58 | (86) | (28) |
| Ticarət və digər debitor borcları | 33 | (690) | (657) |
| **Təxirə salınmış xalis vergi aktivi/(öhdəliyi)** | **164** | **(580)** | **(416)** |
| Tanınmış təxirə salınmış vergi aktivi | 3,889 | 65 | 3,954 |
| Tanınmış təxirə salınmış vergi öhdəliyi | (3,725) | (645) | (4,370) |
| **Təxirə salınmış xalis vergi aktivi/(öhdəliyi)** | **164** | **(580)** | **(416)** |

31 dekabr 2022-ci il tarixində tamamlanan il üzrə "Daşkəsən Dəmir Filiz" MMC üçün bu müvəqqəti fərqlər üzrə hərəkətlərin vergi effekti aşağıda göstərilir:

| *Min ABŞ dolları ilə* | **31 dekabr 2021** | **Mənfəət və ya zərərdə (xərc)/gəlir kimi tanınmışdır** | **31 dekabr 2022** |
|---|---|---|---|
| **Vergi bazasını azaldan/(artıran) müvəqqəti fərqlərin vergi effekti** | | | |
| Mal-material ehtiyatları | (153) | (162) | (315) |
| Müddətli depozitlər | - | (193) | (193) |
| Kəşfiyyat və qiymətləndirmə aktivləri | - | 952 | 952 |
| Ticarət və digər kreditor borcları | 165 | 248 | 413 |
| Qeyri-maddi aktivlər | - | 11 | 11 |
| Əsas vəsaitlər | 20 | (746) | (726) |
| Verilmiş avanslar | 1 | 2 | 3 |
| Ticarət və digər debitor borcları | - | (65) | (65) |
| **Təxirə salınmış xalis vergi aktivi** | **33** | **47** | **80** |
| Tanınmış təxirə salınmış vergi aktivi | 186 | 1,193 | 1,379 |
| Tanınmış təxirə salınmış vergi öhdəliyi | (153) | (1,146) | (1,299) |
| **Təxirə salınmış xalis vergi aktivi** | **33** | **47** | **80** |

## 29 Təəhhüdlər və şərti öhdəliklər

***Auditorun xidmət haqqı.*** 31 dekabr 2023-cü il tarixinə Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarının audit yoxlaması ilə bağlı auditorlara ödəniləcək illik xidmət haqqı ƏDV çıxılmaqla 70,000 ABŞ dolları təşkil edir.

***Məhkəmə prosesi.*** Adi fəaliyyət gedişində vaxtaşırı olaraq Qrupa qarşı iddialar irəli sürülə bilər. Rəhbərlik öz təxminlərinə, eləcə də daxili və xarici peşəkarların tövsiyələrinə əsasən hesab edir ki, bu iddialar ilə əlaqədar hazırkı maliyyə hesabatlarında ayrılmış ehtiyatlardan artıq əhəmiyyətli zərər yaranmayacaqdır.

***Vergilərlə bağlı potensial öhdəliklər.*** Azərbaycan Respublikasının vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Qrupun əməliyyatları və fəaliyyəti ilə bağlı vergi qanunvericiliyinə dair rəhbərliyin mövqeləri müvafiq vergi orqanları tərəfindən mübahisələndirilə bilər. Rəhbərlik hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, xarici valyuta və gömrük qanunvericiliyi ilə bağlı Qrupun mövqeləri dəyişməyəcəkdir.

***Normativ-hüquqi baza.*** Qrupun maliyyə vəziyyəti Azərbaycanda siyasi dəyişikliklərin, o cümlədən qüvvədə olan və gələcək qanunvericiliyin və vergi normativlərinin təsirinə məruz qalmağa davam edəcəkdir. Qrup fəaliyyəti ilə əlaqədar Azərbaycanda analoji müəssisələrlə müqayisədə daha əhəmiyyətli potensial öhdəliklərlə qarşılaşdığını hesab etmir. Mərkəzi hökumət bazar iqtisadiyyatına keçdikcə, vergilərin tutulması, xarici valyuta ilə əməliyyatlar və xarici valyuta ilə bağlı kreditlərin verilməsinin lisenziyalaşdırılması daim inkişaf edir. Bundan əlavə, müxtəlif qanunvericilik və normativ aktlar heç də hər zaman dəqiq yazılmayıb və onların şərh edilməsi vergi müfəttişlərinin, Mərkəzi Bankın və Maliyyə Nazirliyinin rəylərindən asılıdır. Qrupun siyasəti zərərin yaranması mümkün hesab edildiyi və məbləğ etibarlı şəkildə ölçülə bildiyi hesabat dövründə potensial öhdəliklərin hesablanmasını nəzərdə tutur.

## 30 Nəzarət olunmayan iştirak payı

### Mühüm mühasibat uçotu prinsipi

***Nəzarət olunmayan iştirak payı.*** Qrup mövcud iştirak paylarını əks etdirən və pay sahibinə müəssisənin likvidasiyası halında xalis aktivlərdə proporsional həcmdə pay əldə etmək hüququ verən nəzarət olunmayan iştirak payını hər bir əməliyyat üzrə fərdi qaydada a) ədalətli dəyərlə və ya b) əldə edilmiş müəssisənin xalis aktivlərində nəzarət olunmayan iştirak payına proporsional şəkildə qiymətləndirir. Mövcud iştirak paylarını əks etdirməyən nəzarət olunmayan iştirak payı ədalətli dəyərlə qiymətləndirilir.

Nəzarət olunmayan iştirak payı Qrupa birbaşa və ya dolayısı ilə sahib olmadığı paya düşən törəmə müəssisənin xalis fəaliyyət nəticələrinin və kapitalının bir hissəsini əks etdirir. Nəzarət olunmayan iştirak payı Qrupun kapitalının ayrıca komponentini formalaşdırır.

Qrupun nəzarət olunmayan iştirak payı olduğu hər bir əhəmiyyətli törəmə müəssisə haqqında məlumat aşağıdakı cədvəldə təqdim edilir:

| *Min ABŞ dolları ilə* | Fəaliyyət göstərdiyi ölkə (fərqlidirsə, təsis edildiyi ölkə) | Nəzarət olunmayan iştirak payı | Nəzarət olunmayan iştirak payına aid olan zərər | Törəmə müəssisədə yığılmış nəzarət olunmayan iştirak payı |
|---|---|---|---|---|
| **31 dekabr 2023-cü il tarixində başa çatan il** | | | | |
| "AZERBLAST" MMC | Azərbaycan | 49% | (262) | 664 |
| **31 dekabr 2022-ci il tarixində başa çatan il** | | | | |
| "AZERBLAST" MMC | Azərbaycan | 49% | (149) | 926 |

## 30 Nəzarət olunmayan iştirak payı (davamı)

Törəmə müəssisə haqqında ümumiləşdirilmiş maliyyə məlumatları aşağıda göstərilir:

| | 31 dekabr | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| *Min ABŞ dolları ilə* | **Qısa-müddətli aktivlər** | **Uzun-müddətli aktivlər** | **Qısa-müddətli öhdəliklər** | **Uzun-müddətli öhdəliklər** | **Gəlir** | **İl üzrə zərər** | **Cəmi məcmu gəlir** |
| **2023** | | | | | | | |
| "AZERBLAST" MMC | 1,130 | 5,932 | 1,379 | 4,329 | - | (535) | (535) |
| **2022** | | | | | | | |
| "AZERBLAST" MMC | 1,028 | 2,789 | 501 | 1,427 | - | (304) | (304) |
| **Cəmi** | **1,028** | **2,789** | **501** | **1,427** | **-** | **(304)** | **(304)** |

## 31 Maliyyə risklərinin idarə edilməsi

Qrup daxilində risklərin idarə edilməsi funksiyası maliyyə, əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirilir. Maliyyə risklərinə bazar riski (o cümlədən valyuta və faiz dərəcəsi riski), kredit riski və likvidlik riski daxildir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd bu risklərin azaldılması üçün nəzərdə tutulan qanunvericilik və daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

***Bazar riski.*** Qrup bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan (a) xarici valyuta (b) faiz hesablanan aktiv və öhdəliklər və (c) pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. Rəhbərlik qəbul edilə bilən risklərin səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə hər gün nəzarət edir. Buna baxmayaraq, bu cür yanaşmadan istifadə edilməsi bazarda daha əhəmiyyətli dəyişikliklərin baş verdiyi halda, müəyyən edilmiş limitlərdən artıq zərərlərin yaranmasının qarşısını almır.

***Kredit riski.*** Maliyyə aləti ilə əməliyyat aparan bir tərəfin müqavilə öhdəliyini yerinə yetirməməsi nəticəsində digər tərəfə maliyyə zərəri vurularsa, Qrup kredit riskinə məruz qalır.

Kredit riski Qrupun kredit şərtləri ilə məhsul satışı və qarşı tərəflərlə digər əməliyyatlar nəticəsində yaranır ki, bu da maliyyə aktivlərinin və balansdankənar kredit öhdəliklərinin yaranmasına səbəb olur.

31 dekabr 2023-cü il tarixinə Qrupun məruz qaldığı maksimal kredit riski məbləği 73,329 min ABŞ dolları (2022: 75,623 min ABŞ dolları) təşkil etmişdir.

*Kredit riskinin idarə edilməsi.* Kredit riski Qrupun fəaliyyəti üçün yeganə əhəmiyyətli riskdir. Buna görə, rəhbərlik kredit riskinin idarə edilməsinə xüsusi diqqət yetirir.

*Limitlər.* Qrup məruz qaldığı kredit riskinə bir müştəri və ya bir-biri ilə əlaqədar müştərilər qrupu, eləcə də coğrafi və sənaye seqmentləri üzrə limitlər müəyyən etməklə nəzarət edir. Kredit riski səviyyəsinin məhsul və sənaye sektoru üzrə limitləri müntəzəm olaraq rəhbərlik tərəfindən təsdiqlənir. Belə risklərə ayda bir dəfədən az olmayaraq yenidən baxılır.

***(i) Pul vəsaitləri və onların ekvivalentləri.*** Qrup nağd pul vəsaitlərini Azərbaycan Respublikasının tanınmış maliyyə təşkilatlarında saxlayır. Qrupun nağd pul vəsaitləri müstəqil maliyyə təşkilatları olan "Paşa Bank" ASC, "Xalq Bank" ASC və "Azərbaycan Beynəlxalq Bankı" ASC-də yerləşdirilib. Qrup həmin maliyyə təşkilatlarının statusuna mütəmadi olaraq nəzarət edir.

*Kredit riskinin təsnifatı sistemi.* Kredit riskinin qiymətləndirilməsi və kredit riskinin səviyyəsinə görə maliyyə alətlərinin təsnifləşdirilməsi məqsədilə Qrup beynəlxalq reytinq agentliklərinin (Standard & Poor's - "S&P", Fitch, Moody's) müəyyən etdiyi risklərin təsnifatı dərəcələrindən istifadə edir. Daxili və xarici kredit reytinqləri və müəyyən edilmiş defolt ehtimalı üzrə intervalların müqayisəsi aşağıdakı cədvəldə göstərilir:

## 31 Maliyyə risklərinin idarə edilməsi (davamı)

| Vahid şkala üzrə ödəmə qabiliyyəti dərəcələri | Kənar beynəlxalq reytinq agentliklərinin müvafiq reytinqləri (S&P) | Müvafiq PD internvalı |
|---|---|---|
| Ən yüksək dərəcə | AAA dan BB+ dək | 0,01% – 0,5% |
| Yüksək dərəcə | BB dən B+ dək | 0,51% – 3% |
| Orta dərəcə | B, B- | 3% – 10% |
| Xüsusi monitorinq tələb edir | CCC+ dən CC- dək | 10% – 99,9% |
| Defolt | C, D-I, D-II | 100% |

Vahid şkala üzrə kredit riskinin hər bir səviyyəsi üçün müəyyən ödəmə qabiliyyəti dərəcələri təyin olunur:

- *Ən yüksək dərəcə* – aşağı kredit riski olan yüksək keyfiyyətli aktivlər;
- *Yüksək dərəcə* – orta kredit riski olan kifayət qədər keyfiyyətli aktivlər;
- *Orta dərəcə* – qənaətbəxş kredit riski olan orta keyfiyyətli aktivlər;
- *Xüsusi monitorinq tələb edir* – daha ətraflı monitorinq və bərpaedici idarəetmə tələb edən kreditləşdirmə mexanizmləri; və
- *Defolt* – defolt hadisəsi baş vermis kreditləşdirmə mexanizmləri.

***Valyuta riski.*** Hesabat dövrünün sonuna Qrupun məruz qaldığı valyuta riski üzrə ümumi təhlil aşağıdakı cədvəldə əks olunur:

| *Min ABŞ dolları ilə* | 31 dekabr 2023 Monetar maliyyə aktivləri | 31 dekabr 2023 Monetar maliyyə öhdəlikləri | 31 dekabr 2023 Xalis mövqe | 31 dekabr 2022 Monetar maliyyə aktivləri | 31 dekabr 2022 Monetar maliyyə öhdəlikləri | 31 dekabr 2022 Xalis mövqe |
|---|---|---|---|---|---|---|
| ABŞ dolları | 33,375 | (98,965) | (65,590) | 3,444 | (63,536) | (60,092) |
| Avro | - | - | - | 439 | (4) | 435 |
| İngilis funt sterlinqi (GBP) | - | (5) | (5) | - | (5) | (5) |
| **Cəmi** | **73,330** | **(111,720)** | **(38,390)** | **75,511** | **(70,402)** | **5,109** |

Bütün digər dəyişənlər sabit qalmaqla, hesabat dövrünün sonuna Qrupun əməliyyat valyutasına tətbiq edilən məzənnələrdəki mümkün dəyişikliklərin mənfəət və ya zərərə, eləcə də kapitala təsiri aşağıdakı cədvəldə əks etdirilir:

| *Min ABŞ dolları ilə* | 31 dekabr 2023 Mənfəət və ya zərərə təsir | 31 dekabr 2023 Kapitala təsir | 31 dekabr 2022 Mənfəət və ya zərərə təsir | 31 dekabr 2022 Kapitala təsir |
|---|---|---|---|---|
| ABŞ dollarının 20% möhkəmlənməsi (2022: 20% möhkəmlənməsi) | (13,118) | (13,118) | (12,018) | (12,018) |
| ABŞ dollarının 20% zəifləməsi (2022: 20% zəifləməsi) | 13,118 | 13,118 | 12,018 | 12,018 |

Risk yalnız Qrupun əməliyyat valyutasından fərqli valyutalarda olan pul qalıqları üçün hesablanmışdır.

***Likvidlik riski.*** Likvidlik riski maliyyə öhdəliklərinin yerinə yetirilməsində Qrupun çətinliklərlə üzləşəcəyi riskdir. Qrup cari hesablar, ödəmə müddəti başa çatmış depozitlər və s. üzrə mövcud olan nağd pul vəsaitlərindən gündəlik istifadə zərurəti ilə bağlı risklə qarşılaşır. Likvidlik riski Qrupun rəhbərliyi tərəfindən idarə edilir.

## 31 Maliyyə risklərinin idarə edilməsi (davamı)

Qrup əsasən borc vəsaitləri və ticarət kreditor borclarından ibarət olan davamlı maliyyələşdirmə bazasının saxlanmasına çalışır. Qrupun likvidlik portfeli pul vəsaitləri və onların ekvivalentlərindən ibarətdir (Qeyd 19).

Aşağıdakı cədvəldə 31 dekabr 2023-cü il tarixinə maliyyə öhdəlikləri müqavilə üzrə ödəmə müddətlərinə görə təsnifləşdirilir. Cədvəldə göstərilən məbləğlərə müqavilə üzrə diskontlaşdırılmamış pul vəsaitlərinin hərəkəti daxildir. Belə diskontlaşdırılmamış pul axınları maliyyə vəziyyəti haqqında hesabatdakı məbləğlərdən fərqlənir, belə ki, maliyyə vəziyyəti haqqında hesabatdakı məbləğlər diskont edilmiş pul axınlarına əsasən hesablanır.

Ödənilməli məbləğ sabit olmadığı hallarda, cədvəldə göstərilən məbləğlər hesabat dövrünün sonuna mövcud olan şərtlərə istinadən müəyyən edilir. Xarici valyuta ilə ödənişlər hesabat dövrünün sonuna olan spot məzənnəsindən istifadə etməklə çevrilir.

31 dekabr 2023-cü il tarixinə maliyyə öhdəliklərinin ödəmə müddətlərinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *Min ABŞ dolları ilə* | **Tələb edilənədək və 1 aydan az** | **1 - 3 ay** | **3 - 12 ay** | **1 - 5 il** | **Cəmi** |
|---|---|---|---|---|---|
| **Öhdəliklər** | | | | | |
| Borc vəsaitləri (Qeyd 22) | 469 | 690 | 27,983 | 75,428 | 104,570 |
| İcarə öhdəlikləri (Qeyd 12) | 108 | 216 | 972 | 5,284 | 6,580 |
| Ticarət və digər kreditor borcları (Qeyd 16) | 18,659 | - | - | - | 18,659 |
| **Əsas məbləğ və faiz üzrə gələcək ödənişlər daxil olmaqla, cəmi gələcək ödənişlər** | **19,236** | **906** | **28,955** | **80,712** | **129,809** |

31 dekabr 2022-ci il tarixinə maliyyə öhdəliklərinin ödəmə müddətlərinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *Min ABŞ dolları ilə* | **Tələb edilənədək və 1 aydan az** | **1 - 3 ay** | **3 - 12 ay** | **1 - 5 il** | **Cəmi** |
|---|---|---|---|---|---|
| **Öhdəliklər** | | | | | |
| Borc vəsaitləri (Qeyd 22) | 403 | 9,204 | 11,346 | 19,745 | 40,698 |
| İcarə öhdəlikləri (Qeyd 12) | 79 | 136 | 611 | 421 | 1,247 |
| Ticarət və digər kreditor borcları (Qeyd 16) | 13,333 | - | - | - | 13,333 |
| **Əsas məbləğ və faiz üzrə gələcək ödənişlər daxil olmaqla, cəmi gələcək ödənişlər** | **13,815** | **9,340** | **11,957** | **20,166** | **55,278** |

## 32 Ədalətli dəyər haqqında açıqlamalar

Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci səviyyəyə oxşar aktiv və öhdəliklər üçün fəal bazarlarda kotirovka olunan qiymətlərlə qiymətləndirmələr (təshih edilməmiş) (ii) 2-ci səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlərdən yaranan) müşahidə edilə bilən ilkin əhəmiyyətli məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları vasitəsilə əldə edilən qiymətləndirmələr və (iii) 3-cü səviyyəyə müşahidə edilən bazar məlumatlarına əsaslanmayan qiymətləndirmələr (müşahidə edilməyən ilkin məlumatlar) daxildir. Maliyyə alətlərini ədalətli dəyərlə qiymətləndirmə iyerarxiyalarına bölmək üçün rəhbərlik peşəkar mülahizələr irəli sürür. Ədalətli dəyərlə qiymətləndirmə üçün əhəmiyyətli dərəcədə düzəlişlər tələb edən müşahidə edilə bilən məlumatlardan istifadə edildikdə, bu qiymətləndirmə 3-cü Səviyyəyə aid edilir. İstifadə edilən məlumatların əhəmiyyətliliyi bütövlükdə ədalətli dəyərin qiymətləndirilməsi ilə ölçülür.

## 32 Ədalətli dəyər haqqında açıqlamalar (davamı)

***Ədalətli dəyərlə qiymətləndirilməyən, lakin ədalətli dəyəri açıqlanan maliyyə aktiv və öhdəlikləri***

31 dekabr 2023 və 31 dekabr 2022-ci il tarixlərinə ticarət debitor borcları, borc vəsaitləri və ticarət kreditor borcları üzrə ədalətli dəyər qiymətləndirmələri üçün 2-ci Səviyyə ədalətli dəyər iyerarxiyası müəyyən edilmişdir. Həmin maliyyə alətlərinin ədalətli dəyəri təxminən onların balans dəyərinə bərabərdir.

***Amortizasiya olunmuş dəyərlə qeydə alınan öhdəliklər.*** İstiqrazların ədalətli dəyəri bazar qiymətlərinə əsasən müəyyən edilmişdir. Müəyyən edilmiş ödəmə müddətinə malik olan sabit faizli maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri analoji kredit riskinə və yerdə qalan ödəmə müddətinə malik yeni alətlər üçün cari faiz dərəcələrini tətbiq etməklə diskont edilmiş pul vəsaitlərinin hərəkətinə əsaslanır. 31 dekabr 2023 və 2022-ci il tarixlərinə balans dəyəri amortizasiya olunmuş dəyərlə tanınan öhdəliklərin ədalətli dəyərinə bərabər olmuşdur.

## 33 Maliyyə alətlərinin qiymətləndirmə kateqoriyaları üzrə təqdim edilməsi

***Mühüm mühasibat uçotu siyasəti***

BMHS 9 "Maliyyə alətləri" standartına uyğun olaraq, maliyyə aktivləri aşağıdakı kateqoriyalara təsnifləşdirilir: (a) FVTPL-də əks etdirilən maliyyə aktivləri; (b) FVOCI-da əks etdirilən borc alətləri; (c) FVOCI-da əks etdirilən səhmlər və (d) amortizasiya olunmuş dəyərlə ölçülən maliyyə aktivləri. FVTPL-də əks etdirilən maliyyə aktivləri iki alt-kateqoriyaya bölünür: (i) FVTPL kateqoriyasında məcburi qaydada qiymətləndirilən aktivlər və (ii) ilkin tanınma zamanı həmin kateqoriyaya aid edilmiş aktivlər.

31 dekabr 2023-cü və 2022-ci il tarixlərinə Qrupun bütün maliyyə aktivləri və öhdəlikləri amortizasiya olunmuş dəyərlə uçota alınmışdır.

## 34 Səhm üzrə qazanc

Səhm üzrə əsas qazanc Qrupun səhmdarlarının payına düşən mənfəəti və ya zərəri il ərzində dövriyyədə olan adi səhmlərin orta sayına bölməklə hesablanır.

Davam edən fəaliyyətdən yaranan səhm üzrə qazanc aşağıdakı kimi hesablanır:

| *Min ABŞ dolları ilə* | **2023** | **2022** |
|---|---|---|
| İl üzrə mənfəət | 27,490 | 30,361 |
| Dövriyyədə olan adi səhmlərin orta çəkili sayı (min ədədlə) | 2,000 | 2,000 |
| **Adi səhm üzrə əsas və azaldılmış qazanc (bir səhm üçün ABŞ dolları ilə)** | **13.75** | **15.18** |

## 35 Hesabat tarixindən sonra baş vermiş hadisələr

*Qeydiyyatdan keçmiş istiqrazlar*

2024-cü ildə Bakı Fond Birjasının (BFB) Listinq Komitəsinin qərarı ilə "AzerGold" QSC-nin ümumi dəyəri 20,000 min ABŞ dolları olan istiqrazları 30 yanvar 2024-cü il tarixində emissiya edilərək standart bazar seqmentində listinqə daxil edilmişdir. İstiqrazların sayı 200,000 ədəd, nominal dəyəri 100 ABŞ dolları, illik faiz dərəcəsi 6%, tədavül müddəti isə 3 ildir.

*"Paşa Bank" ASC*

Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının təsdiqləndiyi tarixə Cəmiyyət "Paşa Bank" ASC ilə bağlanmış kredit xətti müqaviləsi əsasında illik 4% dərəcəsi ilə 15,919 min ABŞ dolları məbləğində əlavə borc vəsaiti cəlb etmişdir. Həmin borc vəsaiti üzrə müvafiq olaraq 568 min ABŞ dolları və 35,803 min ABŞ dolları məbləğində faiz və əsas borc ödənilmişdir.

Bundan başqa, hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının təsdiqləndiyi tarixə Cəmiyyət "Paşa Bank" ASC ilə bağlanmış kredit xətti müqaviləsi əsasında illik 5.8% dərəcəsi ilə 28,301 min ABŞ dolları məbləğində əlavə borc vəsaiti cəlb etmişdir. Həmin borc vəsaiti üzrə müvafiq olaraq 108 min ABŞ dolları və 32,801 min ABŞ dolları məbləğində faiz və əsas borc ödənilmişdir.

## 35 Hesabat tarixindən sonra baş vermiş hadisələr (davamı)

*"Kapital Bank" ASC*

Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının təsdiqləndiyi tarixə Cəmiyyət "Kapital Bank" ASC ilə bağlanmış kredit xətti müqaviləsi əsasında illik 7% dərəcəsi ilə 11,070 min ABŞ dolları məbləğində əlavə borc vəsaiti cəlb etmişdir. Hesabat tarixindən sonrakı dövr ərzində həmin borc vəsaiti tam ödənilmişdir.

Hesabat tarixindən sonrakı dövr ərzində "Azerblast" MMC "Kapital Bank" ASC ilə bağlanmış kredit müqaviləsi üzrə müvafiq olaraq 225 min ABŞ dolları və 717 min ABŞ dolları məbləğində faiz və əsas borcu ödəmişdir.

*"Xalq Bank" ASC*

Hazırlı konsolidasiya edilmiş maliyyə hesabatlarının təsdiqləndiyi tarixə Cəmiyyət "Xalq Bank" ASC-dən illik 4% faiz dərəcəsi ilə cəlb edilmiş kredit xətti üzrə müvafiq olaraq 1,600 min ABŞ dolları və 13,337 min ABŞ dolları məbləğində faiz və əsas borcu ödəmişdir.

*"Ziraat Bank" ASC*

Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının təsdiqləndiyi tarixə Cəmiyyət "Ziraat Bank" ASC ilə bağlanmış kredit xətti müqaviləsi əsasında illik 5.4% dərəcəsi ilə 6,224 min ABŞ dolları məbləğində əlavə borc vəsaiti cəlb etmişdir. Hesabat tarixindən sonrakı dövr ərzində həmin borc vəsaiti tam ödənilmişdir.

*Sənaye partlayıcı maddələrinin istehsalı zavodu*

Gəncədə "AzerGold" QSC-nin törəmə şirkəti – "AzerBlast" MMC tərəfindən istifadəyə verilən sənaye partlayıcı maddələrinin istehsalı zavodu 2024-cü ilin üçüncü rübündə tam rejimdə fəaliyyətə başlayıb. Zavodda dağ-mədən və inşaat sənayesində istifadə olunan ANFO (quru mühitdə istifadə üçün nəzərdə tutulan partlayıcı növü) və H-ANFO (nəm mühitdə istifadə üçün nəzərdə tutulan partlayıcı növü) partlayıcı maddələrinin istehsalı həyata keçirilir.

*Ağdərə Mis-Molibden emalı zavodu*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 9 aprel 2024-cü il tarixli Qərarına əsasən işğaldan azad edilmiş Ağdərə rayonunun Gülyataq kəndində yerləşən Ağdərə Mis-Molibden emalı zavodu sənaye tipli əmlak kompleksi ilə birlikdə Cəmiyyətin balansına verilmişdir. 31 mart 2024-cü il tarixinə müstəqil qiymətləndirici tərəfindən həyata keçirilmiş qiymətləndirməyə əsasən zavodun ədalətli dəyəri 49,223 min ABŞ dolları təşkil edir.